# NAXÇIVAN QƏDİM AZƏRBAYCAN DİYARIDIR

















## NAXÇIVAN MUXTAR RESPUBLİKASI - 80



*"...Naxçıvan Azərbaycanın ayrılmaz bir hissəsi olaraq, Azərbaycan xalqının tarixində, ümumiyyətlə, Azərbaycan anlayışında çox böyük yer tutur..."*

*HEYDƏR ƏLİYEV*

AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ

# NAXÇIVAN QƏDİM AZƏRBAYCAN DİYARIDIR

## NAXÇIVAN MUXTAR RESPUBLİKASININ YARADILMASININ 80 İLLİYİNƏ HƏSR OLUNUR

*Tədris - Metodiki şuranın qərarı ilə çap olunur*

Buraxılışa məsul: t.e.d., prof. **Hidayət Cəfərov**

i.e.n., dos. **Hacı Paşa Murad Kəngərli**

NAXÇIVAN QƏDİM AZƏRBAYCAN DİYARIDIR
**Naxçıvan Muxtar Respublikasının yaradılmasının 80 illiyinə həsr olunur. Bakı: "İqtisad Universiteti" nəşriyyatı, 2004**

Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyevin «Naxçıvan Muxtar Respublikasının 80 illik yubileyinin keçirilməsi haqqında»kı sərəncamını rəhbər tutaraq, Azərbaycan Dövlət İqtisad Universitetinin rektorunun əmrinə əsasən «Naxçıvan qədim Azərbaycan diyarıdır» mövzusunda elmi sessiya keçirilmiş və Muxtar Respublikanın tarixinin, sosial-iqtisadi inkişafının müxtəlif məsələlərinə həsr edilmiş məqalələr məcmusu buraxılmışdır.

$\frac{1801000000}{658(07)-095}$ 095 – 2004 **Qrifli nəşr**

**©" İqtisad Universiteti" nəşriyyatı, 2004**

## Naxçıvan Muxtar Respublikasının 80 illik yubileyinin keçirilməsi haqqında

*Azərbaycan Respublikası Prezidentinin sərəncamı*

2004-cü il fevral ayının 9-da Naxçıvan Muxtar Respublikasının yaradılmasının 80 ili tamam olur. Naxçıvan Muxtar Respublikasının yaradılmasının Azərbaycan xalqının həyatında böyük tarixi-siyasi əhəmiyyətini nəzərə alaraq, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 1999–cu il fevralın 4-də «Naxçıvan Muxtar Respublikasının 75 illiyinin keçirilməsi haqqında» geniş məzmunlu fərman imzalamışdı. Fərmana əsasən yaradılmış Dövlət komissiyası yubiley tədbirləri hazırlayaraq onların həyata keçirilməsini təmin etmişdir. Naxçıvanda və Azərbaycanın başqa şəhər və rayonlarında Naxçıvan Muxtar Respublikasının 75 illiyinə həsr edilmiş çoxsaylı yubiley tədbirləri, o cümlədən elmi-praktik konfranslar, festival, müsabiqə və sərgilər keçirilmiş, «Naxçıvan Ensiklopediyası» nın, digər elmi, ədəbi və publisistik əsərlərin nəşri təmin edilmiş, Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan bölməsi yaradılmış, Naxçıvanın tarixinə, maddi mədəniyyətinə və memarlıq məktəbinə həsr edilmiş televiziya verilişləri hazırlanmış və sair mühüm işlər həyata keçirilmişdir.

Naxçıvan Muxtar Respublikasının 75 illiyinin qeyd olunması ilə bağlı həyata keçirilmiş tədbirlərin təhlili göstərir ki, bu olduqca mühüm və səmərəli işin davam etdirilməsinə ehtiyac vardır. Ermənistanın apardığı təcavüzkarlıq siyasəti nəticəsində Azərbaycandan qismən təcrid olunmuş vəziyyətdə, blokada şəraitində yaşamaq məcburiyyətində qalan, tez-tez bədnam qonşuların ərazi iddiaları obyektinə çevrilən Naxçıvanın tarixinin hələ də tədqiq edilməyə ehtiyacı olan səhifələri açılmalı, Azərbaycanın qədim və zəngin tarixə, mədəniyyətə və çoxəsrlik dövlətçilik ənənələrinə malik olan bu diyarının tam dolğun, obyektiv tarixi xalqımıza, habelə dünya ictimaiyyətinə olduğu kimi çatdırılmalı, erməni siyasətçilərinin tarixi saxtalaşdırmaq cəhdlərinə tutarlı cavab verməlidir.

Naxçıvan Muxtar Respublikasının yaradılmasının Azərbaycanın, habelə bölgənin tarixində böyük əhəmiyyət kəsb et-

diyini və onun 80 illiyinin xalqımızın həyatında əlamətdar hadisə olduğunu nəzərə alaraq qərara alıram:

1. Naxçıvan Muxtar Respublikasının yaradılmasının 80 illik yubileyi ölkəmizdə geniş qeyd olunsun.

2. Naxçıvan Muxtar Respublikasının 80 illik yubileyinin keçirilməsi üçün hazırlanmış tədbirlər planı təsdiq edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
*Azərbaycan Respublikasının*
*Prezidenti.*

*Bakı şəhəri, 9 fevral 2004- cü il.*

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN DÖVLƏT İQTİSAD
UNİVERSİTETİ REKTORUNUN

ƏMRİ

№ 187\1 14 iyun 2004- cü il

*«Naxçıvan qədim Azərbaycan diyarıdır» mövzusunda elmi konfransın keçirilməsi haqqında»*

Məlum olduğu kimi 2004-cü ildə Azərbaycan Respublikasının tərkibində Naxçıvan Muxtar Respublikasının 80 ili tamam olmuşdur. Bununla əlaqədar Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 9 fevral 2004- cü ildə xüsusi sərəncam imzalamışdır. Sərəncamda Naxçıvan Muxtar Respublikasının yaradılmasının 80 illik yubileyinin ölkəmizdə geniş qeyd olunması, müxtəlif tədbirlər keçirilməsi öz əksini tapmışdır.

Azərbaycan Respublikası Prezidentinin məlum sərəncamından irəli gələn vəzifələrin həyata keçirilməsi ilə bağlı

*ƏMR EDİRƏM:*

1) Azərbaycan Dövlət İqtisad Universitetində «Naxçıvan qədim Azərbaycan diyarıdır» mövzusunda 2004-2005- ci tədris ilinin əvvəlində elmi- nəzəri konfrans keçirilsin.
2) Konfrans materialları toplu halında nəfis şəkildə nəşr edilsin.

3) Auditoriyalarda Naxçıvan diyarının Azərbaycanın ayrılmaz tərkib hissəsi olması, Naxçıvanın keçdiyi çox minillik tarixi yol haqqında tələbələrə geniş məlumat verilsin.
4) Konfrans günlərində Naxçıvan MR-in sosial-iqtisadi, mədəni və tarixi inkişafını əks etdirən sərgi təşkil edilsin.

Əmrin icrasına nəzarəti öz üzərimə götürürəm.

**REKTOR ƏVƏZİ** **prof. T.Ə. HÜSEYNOV**

T.Ə.Hüseynov
t.e.d., prof. AzDİU-nun rektor əvəzi

## ÖN SÖZ ƏVƏZİ

Naxçıvan ərazisində ən qədim dövrlərdən ibtidai insanlar məskunlaşmış, burada həyat durmadan davam etmişdir. Təbii-coğrafi mövqeyinə görə bu ərazi biri-digərini əvəz etmiş müxtəlif dövlət qurumlarının tərkib hissəsi olmuş, Azərbaycanda və bütövlükdə Yaxın Şərqdə cərəyan etmiş hadisələrdə mühüm yer tutmuşdur.

XVIII əsrin sonları – XIX əsrin əvvəllərində Naxçıvan ərazisi Rusiya ilə İran arasında toqquşmalar meydanına çevrildi. Baş vermiş müharibələr nəticəsində Azərbaycanın tarixi torpaqları parçalanaraq Rusiya və İran arasında bölüşdürüldü.

Azərbaycan Xalq Cümhuriyyətinin 23 aylıq (may 1918 – aprel 1920) tarixi boyu erməni silahlı quldur dəstələri İrəvan, Naxçıvan və Qarabağ bölgələrində dinc azərbaycanlı əhaliyə divan tutur, yerli azərbaycanlıların sayını süni surətdə azaltmaq üçün hər cür vasitəyə əl atırdılar. Qafqazda bolşeviklərin hakimiyyətinin bərqərar olduğu ilk günlərdən bolşevik-daşnak sövdələşməsi geniş vüsət aldı. Azərbaycan Xalq Cümhuriyyəti dövründəki sərhədlər alt-üst edilməyə başlandı. İlk olaraq əzəli Azərbaycan torpağı Zəngəzur mahalı (dekabr, 1920) Ermənistan SSR-nin tərkibinə qatıldı. Əslində isə ermənilərin planları daha geniş idi və onların torpaq iddialarının əsas hədəfi məhz Naxçıvan idi. Onlar Zəngəzurun Ermənistana ilhaq edilməsini bu yolda atılmış mühüm addım hesab edirdilər.

Lakin ermənilərin həm daşnak hökuməti dövründə, həm də sovet hakimiyyəti qurulduqdan sonra, Naxçıvanı Azərbaycandan ayıraraq Ermənistana birləşdirmək üçün göstərdiyi səylər Naxçıvan əhalisinin birmənalı, qəti mövqeyi sayəsində uğursuzluğa düçar oldu.

Naxçıvanın Azərbaycanın himayəsi altında olan muxtar ərazi statusu RSFSR ilə Türkiyə arasında 1921-ci ilin martında imzalanmış Moskva müqaviləsində, Rusiya, Azərbaycan, Gürcüstan, Ermənistan və Türkiyə arasında 1921-ci ilin oktyabrında

imzalanmış Qars müqaviləsində təsbit edildi. Naxçıvanın statusunun ilk Beynəlxalq müqavilədə əks olunması o dövrün böyük siyasi əhəmiyyət kəsb edən bir faktı kimi qiymətləndirilməlidir.

1922-ci ilin dekabrında I Zaqafqaziya Sovetlər qurultayı Naxçıvan məsələsi üzrə qəbul etdiyi xüsusi qərarında Naxçıvanın muxtariyyat statusunda Azərbaycan SSR-nin ayrılmaz tərkib hissəsi olduğunu təsbit etdi. 1923-cü il dekabrın 5-də Azərbaycan Mərkəzi İnqilab Komitəsi Naxçıvan Muxtar Diyarının Azərbaycan SSR tərkibində Naxçıvan Muxtar Sovet Sosialist Respublikasına çevrilməsi haqqında qərar qəbul edərək, onun təsdiq olunmasını Zaqafqaziya Mərkəzi İnqilab Komitəsindən xahiş etdi. Zaqafqaziya Mərkəzi İnqilab Komitəsi 1924-cü il yanvarın 8-də bu qərarı təsdiq etdi. Azərbaycan SSR Mərkəzi İnqilab Komitəsinin 1924-cü il 9 fevral tarixli Dekreti ilə Naxçıvan Muxtar Diyarının Sovet Sosialist Respublikasına çevrilməsi təsdiq edildi. Bu, Azərbaycan xalqının olduqca mürəkkəb bir şəraitdə əldə etdiyi böyük tarixi nailiyyət idi.

XX əsrin 90-cı illərində SSRİ-nin dağılması nəticəsində yaranmış şəraitdən istifadə edən Ermənistan hakimiyyət dairələri Azərbaycana, o cümlədən Naxçıvana öz ərazi iddialarını artıq müharibə yolu ilə gerçəkləşdirmək qərarına gəldilər. Naxçıvan çətin sınaqlar qarşısında qaldı. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet qoşunlarının Bakıya hücumundan 2-3 gün əvvəl sovet birləşmələri və erməni silahlı dəstələri Naxçıvana hücum etmiş, qan tökülmüş və erməni quldur dəstələri Naxçıvan Muxtar Respublikasının Kərki kəndini və Sədərək qəsəbəsinə uzanan yolu işğal etmişdir.

Ermənistanın apardığı təcavüzkarlıq siyasəti nəticəsində vaxtilə Ümumittifaq şəbəkəsinə daxil olan, Azərbaycanı Naxçıvanla bağlayan dəmir yol xətti və avtomobil yolu kəsilmiş, Naxçıvana Azərbaycandan təcrid olunmuş vəziyyətdə, blokada şəraitində yaşamaq taleyi qismət olmuşdur.

Məhz belə ağır şəraitdə Naxçıvan əhalisi böyük mərdlik və yenilməzlik nümayiş etdirərək, Azərbaycanın bu qədim torpağını ermənilərin işğalı təhlükəsindən qoruyub saxladı. Milli istiqlaliyyət uğrunda mübarizə yollarında o zaman Naxçıvanın atdığı cəsarətli addımlar bütün Azərbaycan xalqı tərəfindən böyük

rəğbətlə qarşılanaraq dəstəkləndi və respublikada gedən siyasi proseslərə öz müsbət təsirini göstərdi. 1990-cı ilin yayında Naxçıvan Ali Sovetinin sədri seçilmiş Heydər Əliyev həmin il noyabrın 17-də 1 sessiyada Muxtar Respublika adından «sovet», «sosialist» sözlərinin çıxarılması, Ali Sovetin adının dəyişdirilib Naxçıvan Muxtar Respublikasının Ali Məclisi adlandırılması, Azərbaycan Xalq Cümhuriyyətinin 3 rəngli bayrağının Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul edilməsi barədə və Azərbaycan Respublikasının Ali Soveti qarşısında vəsatət qaldırılması haqqında tarixi qərarını qəbul etdi. Gerb və himnin qəbul edilməsi üçün müsabiqə elan olunması da qərara alındı. Bununla yanaşı, Muxtar Respublika ərazisində Kommunist Partiyasının yerli orqanlarının fəaliyyətinin dayandırılması, Naxçıvan əhalisinin SSRİ-nin saxlanılması barədə referendumda iştirak etməkdən imtina etməsi, 1990-cı il 19-20 yanvar hadisələrinə siyasi qiymət verilməsi, 31 dekabr tarixinin «Dünya azərbaycanlılarının həmrəylik günü» elan olunması kimi siyasi aksiyalar həyata keçirildi.

Bu bir faktdır ki, Heydər Əliyev cənablarının çoxşaxəli dövlətçilik fəaliyyətində başqa təxirəsalınmaz və vacib məsələlərlə yanaşı elm, mədəniyyət və tariximizlə bağlı tədbirlərin keçirilməsinə qayğı və rəhbərlik mühüm yer tutur. Məlum olduğu kimi, 1999-cu il fevralın 4-də Azərbaycan Respublikasının Prezidenti «Naxçıvan Muxtar Respublikasının 75 illiyinin keçirilməsi haqqında» xüsusi fərman imzalamışdır. Fərmanda Naxçıvan Muxtar Respublikasının yaranmasının 75 illik yubileyinin keçirilməsinin vacibliyi, onun məqsədəuyğunluğu əsaslandırılmış, Prezidentin sədrliyi ilə xüsusi Dövlət komissiyasının tərkibi müəyyənləşdirilmiş, komissiyaya iş planı hazırlayıb müzakirəyə təqdim etmək tapşırılmışdır.

Az sonra, 1999-cu ilin fevralın 9-da Heydər Əliyev cənablarının sədrliyi ilə «Naxçıvan Muxtar Respublikasının 75 illik yubileyi» üzrə Dövlət komissiyasının geniş və işgüzar iclası keçirildi. İclasda yubileyə hazırlığın vəziyyəti geniş müzakirə olundu, tədbirlər planı dəqiqləşdirildi. Qeyd etmək lazımdır ki, belə bir fərmanın verilməsinin çox böyük ictimai-siyasi və tarixi əhəmiyyəti var idi. Bu fərman və ondan irəli gələn vəzifələrin

yerinə yetirilməsi ilə biz bütün dünya qarşısında monolit birliyimizi nümayiş etdirdik. Bu fərman ölkə Prezidentinin dövlətçiliyimizə böyük qayğısının bariz nümunələrindən oldu. Ermənistanın Naxçıvanla bağlı son iddiaları fonunda belə bir fərmanın verilməsi düşmənlərə tutarlı cavab idi.

Naxçıvan Muxtar Respublikasının 75 illiyinin keçirilməsi zərurəti və onun siyasi-tarixi əhəmiyyəti Prezident Heydər Əliyevin Dövlət komissiyasının iclasında söylədiyi nitqdə çox gözəl əks etdirilmişdir. O, çıxışının bir yerində demişdir: «Bir daha qeyd edirəm ki, məqsəd sadəcə bir mərasim keçirməkdən ibarət deyil, məqsəd Azərbaycanın tərkib hissəsi, ayrılmaz hissəsi olan Naxçıvan tarixini təhlil etmək və bunu geniş kütləyə, o cümlədən beynəlxalq aləmə təqdim etməkdən ibarətdir. Bunun da zərurəti ondan irəli gəlir ki, Azərbaycanın başqa torpaqlarına iddialarla yanaşı, Naxçıvana qarşı iddia daha da kəskinləşir. Naxçıvanın Ermənistan ərazisi ilə Azərbaycanın əsas hissələrindən ayrı düşməsi də, buna müəyyən qədər əsas yaradır». Bu sözlərdə nə qədər dərin məna və dəmir məntiq var.

Azərbaycan, o cümlədən Naxçıvan diyarı, bu böyük şəxsiyyətin siyasəti altında müstəqillik yollarında inamla irəliləmiş, inkişaf etmiş və indi də inkişaf etməkdədir. Azərbaycanın dahi rəhbəri, böyük şəxsiyyəti, müdrik bir siyasətçinin davamçısı, möhtərəm Prezident İlham Əliyev ənənəyə sadiq qalaraq Naxçıvan Muxtar Respublikasının yaranmasının 80 illik yubileyinə hazırlıqla bağlı 2004-cü il fevralın 9-da xüsusi fərman vermişdi. Fərmanda Yubileyin layiqincə keçirilməsi üçün geniş tədbirlərin həyata keçrilməsi göstərilir, aidiyyatı orqanlara tapşırıqlar verilir.

Naxçıvana diqqətin artması, onunla bağlı problemlərin həlli yolunda əməli addımların atılması, bu diyara qayğı göstərilməsi təsadüfi xarakter daşımır. Bu zəruri qanunauyğunluqdur. Çünki Naxçıvan diyarı böyük Azərbaycan dövlətinin ayrılmaz tərkib hissəsi olub, ən qədim zamanlardan Azərbaycan mədəniyyətinin, elminin, iqtisadiyyatının formalaşması və inkişafında böyük rol oynamışdır.

Naxçıvanı həmişə Şərqin qapısı adlandırmışlar. Bu, sadəcə olaraq, gəlişi gözəl olan söz deyil. Doğrudan da Naxçıvanın Qədim Şərqin Mesopatamiya, Xett və başqa dövlətləri ilə qon-

şuluğu burada ictimai-siyasi hadisələrin başqa səmtdə, daha sürətlə inkişaf etməsinə şərait yaratmışdır. Təsadüfi deyil ki, elə Prezidentin yanında keçirilmiş Dövlət komissiyasının iclasında Naxçıvan şəhərinin 3500 illik yubileyinin keçirilməsi təklifi də səslənmişdi.

Mövcud olduğu bütün dövrlərdə Naxçıvan diyarı həmişə dünya sivilizasiyasının aparıcı mərkəzlərindən biri olmuş, bütövlükdə dünya mədəniyyətinin, o cümlədən Qədim Şərqin aparıcı mədəni ocaqları sırasında durmuşdur. Həm qədim dövrlərdə, həm də ilk orta əsrlərdə Qədim Şərqdə baş vermiş ictimai-siyasi hadisələr Azərbaycanın başqa vilayətlərində olduğu kimi, Naxçıvan diyarının da ümumi durumuna öz dərin təsirini göstərmişdi.

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan - Muxtar Respublika kimi 80 il öz tarixi inkişafının çox mühüm və şərəfli dövrünü yaşamışdır. Sovet sisteminin doğurduğu bir çox çətinliklərə və əyintilərə, Naxçıvanın ərazi bütövlüyünün pozulmasına yönələn müxtəlif hadisələrə baxmayaraq, Naxçıvan diyarı yaşamış, möhkəmlənmiş, mətinləşmişdir.

Mövcud olduğu bütün dövrlərdə Naxçıvan diyarı dünya şöhrətli siyasətçilər, elm, incəsənət, mədəniyyət dühaları yetişdirmişdir.

Həmişə olduğu kimi, müasir dövrdə də Naxçıvan diyarı Azərbaycanın tərkibində müstəqillik yollarında inamla irəliləyir, ölkənin sosial-iqtisadi, ictimai-siyasi və mədəni inkişafında böyük rol oynayır.

prof. T.Hüseynov
prof. H. Cəfərov

# HEYDƏR ƏLİYEV- 80

## AZƏRBAYCAN XALQINA VƏ DÖVLƏTÇİLİYİNƏ HƏSR OLUNMUŞ ŞƏRƏFLİ ÖMRÜN ANLARI

Heydər Əliyev dühasının çoxşaxəli fəaliyyətini təhlil etmək çox çətin, lakin vacib və gərəklidir. Onun 1969- cu ildən davam edən titanik fəaliyyəti müasir yaşlı, orta və gənc nəslin gözləri qarşısında baş verib. Yalnız 1987-1991-ci ilin birinci yarısı arasındakı illər istisna olmaqla o, bu dövr ərzində böyük siyasətin yaradıcılarından və taktiki variantlarını hazırlayıb həyata keçirənlərdən biri olmuşdur.

Bütövlükdə Heydər Əliyev öz zəngin, şüurlu həyatını Azərbaycan xalqının milli dirçəlişinə, dövlətçiliyin möhkəmləndirilməsinə, müstəqilliyinin dönməzliyi uğrunda mübarizəyə həsr etmişdir. O, harada, hansı vəzifədə çalışmasından asılı olmayaraq həmişə doğma vətənini sevmiş və onun çiçəklənməsi üçün əlindən gələni etmişdir.

1960-cı illərin axırlarında Azərbaycan keçmiş SSRİ-nin sosial- iqtisadi inkişaf baxımından ən geridə qalan respublikalarından biri idi. Belə bir şəraitdə 1969-cu ilin iyul ayında Azərbaycanın rəhbərliyinə təyin olunan Heydər Əliyev qısa vaxtda respublikanın bütün sahələrdə inkişafı üçün strateji xətt hazırlamaqla qarşıya qoyulan dövlət əhəmiyyətli vəzifələrin yerinə yetirilməsi istiqamətlərini müəyyənləşdirə bildi. Mübaliğəsiz demək olar ki, 1969-1970- ci illər Azərbaycanın ictimai-siyasi və iqtisadi həyatında dönüş ili oldu. Təsərrüfatsızlığa, işdə səriştəsizliyə, özbaşınalığa, məsuliyyətsizliyə son qoyuldu. Tapşırılan vəzifənin yerinə yetirilməsi üçün kollektiv və şəxsi məsuliyyət hissi artırıldı, intizamsızlıq aradan qaldırıldı.

Heydər Əliyev hakimiyyətə gəldiyi ilk illərdən Azərbaycanın ənənəvi iqtisadiyyatı və təsərrüfat sahələri ilə yanaşı yeni, perspektivli elmi- texniki tərəqqinin tətbiqi ilə daha çox gəlir gətirəcək sahələrin yaradılması və inkişaf etdirilməsi məsələsini

həll etdi. O, iti zəkası, təşəbbüskarlığı, müstəqil mülahizə yürütmək qabiliyyəti, cəsarətli və qeyri- adi qərarlar qəbul etməsi və onun yerinə yetirilməsi üçün bütün qüvvələri səfərbər etmək bacarığı ilə rəhbərliyə gəldiyi ilk vaxtlardan keçmiş Sovetlər birliyinə daxil olan müttəfiq respublika rəhbərləri içərisində kəskin seçilirdi.

Heydər Əliyevin dövlətçilik fəaliyyətini üç dövrə ayırmaq olar: birinci dövr 1969-1982- ci illəri; ikinci dövr 1982-1987- ci illəri; üçüncü dövr isə 1991-ci ildən sonrakı dövrü əhatə edir. Doğrudur, birinci iki dövrdə Azərbaycanın tam müstəqil fəaliyyət göstərməsi məlum səbəblər üzündən mümkün deyildi. Bu dövrdə Azərbaycan iqtisadiyyatının dirçəldilməsi, xalq təsərrüfatının, sosial- ictimai həyatın bütün sahələrini əhatə etmiş geriliyin, durğunluğun aradan qaldırılması, Azərbaycanın bir ölkə kimi ittifaq miqyasında, necə deyərlər, imicinin qaldırılması ön planda dururdu. Heydər Əliyevin 1969-1982- ci illərdə ona məxsus tükənməz enerji, məqsədyönlü, incəliklərinə qədər hərtərəfli düşünülmüş plan əsasında Azərbaycanın sənaye sahələrinin, kənd təsərrüfatının, elm və mədəniyyətinin, ən başlıcası isə insanların sosial- rifah halının yaxşılaşdırılması üçün yönəldilmiş fəaliyyəti o zamanın ittifaq respublikaları üçün nümunə kimi gətirilirdi.

1970, 1975, 1979 –cu illərdə onun inadlı təkidləri və tutarlı dəlilləri qarşısında geri çəkilməyə məcbur olan SSRİ rəhbərliyi Azərbaycanda kənd təsərrüfatının və bütövlükdə xalq təsərrüfatının inkişaf etdirilməsi, intensivləşdirilməsi və ixtisaslaşdırılması ilə bağlı qərarlar qəbul etməyə məcbur oldu. Bu qərarları qəbul etdirmək asan iş deyildi. Bu qərarların arxasında Azərbaycana əlavə kapital qoyuluşu, elmi- texniki tərəqqinin inkişafı, yeni iş yerlərinin açılması, əhalinin sosial- rifah halının yaxşılaşdırılması kimi mühüm məsələlər dururdu.

Həmin dövrdə Azərbaycanın iri şəhərlərində, xüsusilə Bakıda tikilib istifadəyə verilmiş onlarca sənaye müəssisələrini qeyd etmək olar. Təkcə 1971-75- ci illərdə Azərbaycanda 55 yeni sənaye müəssisəsi fəaliyyətə başlamışdır. 1975-ci ilin dekabrında işə düşmüş Bakı məişət soyuducuları zavodu SSRİ-də dördüncü belə zavod idi. Sonrakı illərdə dərin özüllü platforma-

lar hazırlayan zavod, radioqayırma, dəqiq mexanizmlər zavodları, neft-maşınqayırma zavodu, müdafiə əhəmiyyətli «qapalı» zavodların və s. məhz Azərbaycanda, Bakıda tikilməsi yenə də Heydər Əliyevin şəxsi təşəbbüsü və bacarığı sayəsində mümkün olmuşdur.

Fəaliyyətinin bütün dövrlərində, hətta ilkin fəaliyyət illərində də, Heydər Əliyevdə böyük dövlətçilik qabiliyyətinin bütün xüsusiyyətləri hərtərəfli əks olunmuşdu. Bunların içərisində onun hadisələri, biz deyərdik ki, zamanı qabaqlamaq duyumunu, saysız- hesabsız mümkün variantlar içərisində yeganə düzgününü seçmək istedadını xüsusi qeyd etmək lazımdır. Yalnız böyük dühaya məxsus uzaqgörənliklə o, Azərbaycanın gələcək müstəqilliyinin bünövrəsini qurur, vaxtı gəldikdə müstəqil fəaliyyət göstərməsinə şərait yaradırdı. Doğrudur, keçmiş SSRİ tərkibində olan respublikaların müstəqil xarici siyasətindən söhbət gedə bilməzdi. Lakin ağıllı, diplomatiyanın və dövlətçiliyin incə sirlərinə bələd olan rəhbərlər öz ölkəsinin daxili sabitliyi, ictimai- iqtisadi, elmi- mədəni inkişafının qayğısına qalır və çox halda buna nail olurdular. Heydər Əliyev bu tip rəhbərlərin ön sırasında dururdu.

Keçmiş sovetlər birliyində müsəlman - türk mənşəli respublikalara da, onların rəhbərlərinə də münasibət hamıya bəllidir. Heydər Əliyev dövlətçilik qabiliyyəti və dühası ilə kök salmış stereotipləri sındırdı, Azərbaycan xalqının elm, incəsənət, mədəniyyət, hərb xadimləri ilə yanaşı, böyük siyasətçi, istedadlı dövlət xadimləri yetişdirib dünyaya bəxş etməsinini də sübut etdi. O, 1976-cı ildə Sov. İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ildə isə Siyasi Büroya üzv seçildi. Heydər Əliyev elə həmin il SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin olundu. SSRİ- nin dövlət strukturlarına rəhbər vəzifəyə seçilməyin incəliklərinə bələd olanlar yaxşı bilir ki, belə yüksək dövlət pilləsində yer tutmaq nə qədər çətin və müşkül bir iş idi. Özün də olasan azərbaycanlı...

Dövlətçilik fəaliyyətinin ikinci dövrünü əhatə edən 1987-ci ilə qədərki fəaliyyət illəri onun böyük siyasət aləmində yetkinlik, diplomatik və siyasətçi kimi daha yüksək pilləyə qalxması ilə xarakterizə olunur. Əvvəllər yalnız bir respublikanın

dövlətçilik, idarəçilik və təsərrüfat qayğılarını çiynində daşıyan H.Əliyev bu mərhələdə dünyanın 1/6 hissəsini əhatə edən super dövlətin daxili və xarici siyasətini hazırlayan və yerinə yetirilməsinə cavabdeh olan çox az ilkin şəxslərdən birinə çevrildi. Heydər Əliyev köhnə Siyasi Büroya yeni nəfəs gətirdi, müstəqilliyi, prinsipiallığı, iti və analitik ağlı ilə tez bir vaxtda aparıcı yer tutdu. O zaman Siyasi Büroya çıxarılan və müzakirə edilən az-çox diqqətəlayiq qərarların bir çoxu məhz Heydər Əliyevin rəhbərliyi və iştirakı ilə ərsəyə gəlmişdi.

Heydər Əliyev bu mərhələdə Azərbaycandan uzaq olsa da onun gündəlik fəaliyyətində öz doğma vətəni, Azərbaycan xalqının bu günü və gələcəyi ön planda durdu. O, bir an belə respublika ilə əlaqəsini kəsmədi. Başqaları təmtəraqlı kurortlarda istirahət edəndə Heydər Əliyev məzuniyyət günlərini doğma Azərbaycanda keçirir, onun problemlərinin həll olunması qayğısına qalırdı.

Şübhəsiz ki, Heydər Əliyevin yüksək şəxsi keyfiyyətləri; müstəqil fikir yürütmə qabiliyyəti, diplomatik və dövlətçilik istedadı keçmiş SSRİ rəhbərliyinin çoxunu narahat edir, yuxusuna haram qatırdı. M. Qorbaçov isə onu özünün bir nömrəli rəqibi hesab edirdi. Məhz bunun nəticəsidir ki, 1987-ci ildə, istedadının bütün sahələrdə parladığı bir dövrdə o, hakimiyyətdən uzaqlaşdırıldı.

Əslində köhnə SSRİ -nin şovinist, burnunun ucundan uzağı görməyən rəhbərlərinin kortəbii siyasətini başa düşmək olardı. Azərbaycan kimi kiçik bir xalqın nümayəndəsinin Moskvanın siyasət göydələnində ucalması onları vahiməyə salmışdı. Bəs bizim Azərbaycan rəhbərləri nə üçün bu qeyri- adi dühanın potensial imkanlarından istifadə etmədilər? Nəinki etmədilər, hətta Heydər Əliyevə qarşı xalis səlib müharibəsi, cihad elan etdilər. Azərbaycanın dövlətçilik, taleyüklü dövründə xalqın müqəddəratının, onun varlığının tarixində çox acınacaqlı və müşkül dövrünü təşkil edən 1988-1993- cü illərin ağrısı, acısı bizə çox baha başa gəldi. Təkcə onu xatırlamağı vacib sayırıq ki, bir-birini əvəz edən səriştəsiz rəhbərlərin fəaliyyəti nəticəsində xalq bəlalara düçar olundu, ölkə vətəndaş müharibəsi girdabına salındı, ərazimizin 20%-i ermənilər tərəfindən zəbt olundu.

Belə bir şəraitdə, 1993- cü ilin iyun ayında Heydər Əliyev yenidən Azərbaycan rəhbərliyinə, böyük siyasətə qayıtdı. Əslində bu qayıdış 1990- cı il yanvarın 21- dən başlamışdı. O zaman Bakıdakı yanvar qırğınına Moskvada qəti etirazını bildirən Heydər Əliyev SSRİ rəhbərliyini günahsız insan qanı axıtmaqla Azərbaycan xalqına qarşı soyqırımında təqsirləndirdi və lənətlədi. Bu çox böyük cəsarət, insani vətəndaşlıq və milli qeyrət tələb edirdi.

Naxçıvanda hakimiyyətdə olduğu dövr, Azərbaycan Ali Sovetinin deputatı seçildiyi dövrdə onun böyük siyasətə qayıdışının hazırlıq mərhələsi idi. Nəhayət, Azərbaycanın dövləçiliyinin, bir xalq kimi varlığının həll olunduğu məsuliyyətli bir dövrdə o, xalqın tələbi ilə yenidən Azərbaycan rəhbərliyinə qayıtdı. Bu mərhələ əvvəlki dövrlərdən köklü fərqlənir. Əgər birinci iki dövrdə Azərbaycan SSRİ kimi bir superdövlətin tərkibində idisə, indi o, müstəqil bir ölkə olmuşdur. Xalq çoxəsrlik arzusuna çatdı. Bu bir tərəfdən sevindirici olsa da, digər tərəfdən yeni, müstəqil respublika üçün çoxlu problemlər yaratdı. Belə ki, Azərbaycan SSRİ- nin ümumi «qazanından» pay alırdı, məhsulunu da oraya və ya başqa respublikalara ixrac edirdi, vahid iqtisadi və maliyyə məkanına daxil idi və s. Deməli, dövlət başçısı yeni şəraitdə elə strateji plan və taktiki variantlar işləyib hazırlamalı, onun həyata keçirilməsinin elə yollarını seçməli idi ki, xalqını və ölkəsini böhrandan çıxarsın, dünya ölkələri içərisində etibar və etimad qazana bilsin. 1991-93- cü illlərin müstəqillik imkanlarından nəinki istifadə edilmədi, əksinə ölkə siyasi - iqtisadi, maliyyə böhranına düçar oldu. Buna görə də Heydər Əliyev hakimiyyətə qayıtdığı ilk günlərdən üst- üstə qalanmış böhranlar girdabına sinə gərməli oldu.

İlk növbədə ölkəni bürümüş və vətəndaş müharibəsi təhlükəsinə çatmış siyasi böhran aradan qaldırıldı. Ordunun yaradılması, təchizatı məsələsi qaydaya salındı. Dövlətçiliyə, əhalinin asayişinin pozulmasına yönəldilmiş cəhdlərin qarşısı alındı və aradan qaldırıldı.

H. Əliyev 1993-cü ildə prezident seçilərkən içdiyi anda sadiq qalaraq dövlətçiliyin, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyünün pozulmasına yönəldilmiş hər hansı cəhdin qarşısını

almağa nail oldu. 1994- cü ilin oktyabr və 1995- ci ilin mart hadisələri, dövlətə qarşı yönəldilmiş qəsdlərin qarşısının qətiyyətlə alınması Heydər Əliyevin dövlətçilik dühasının parlaq nümunəsi oldu.

Ölkə daxilində sabitliyin bərqərar olması və möhkəmləndirilməsi dövlətçiliyin mühüm prinsiplərindəndir. Heydər Əliyev düşünülmüş ağıllı siyasəti ilə bu daxili sabitliyi yarada bildi. Məhz bunun nəticəsidir ki, xarici ölkələrin Azərbaycana marağı artdı. Sərmayə qoyuluşu gücləndi.

Dövlətçiliyin möhkəmlənməsində onun iqtisadi qüdrətinin artması aparıcı yerlərdən birini tutur. İqtisadiyyatın yüksəlişi isə maliyyə vəsaiti, kapital qoyuluşu olmadan mümkün deyil. Öz müstəqilliyini yenicə qazanmış Azərbaycan hələlik özünün maliyyə problemlərini təkbaşına həll etmək imkanına malik deyildi. Belə bir şəraitdə xarici kapital qoyuluşuna böyük ehtiyac var idi. Məhz Heydər Əliyevin məqsədyönlü siyasəti xarici investorların Azərbaycana maraq göstərməsinə, buraya sərmayə qoymasına şərait yaratdı.

1994- cü ilin sentyabrında imzalanmış «Əsrin müqaviləsi» və ondan sonra bağlanmış neft kotraktları xarici ölkələrin Azərbaycandakı daxili sabitliyin, dövlət müstəqilliyinin əbədi və dönməzliyinə inamının nəticəsi idi. Azərbaycan dövləti və onun rəhbəri həmin müqavilələrin qarantı olduğunu sübut etdi.

Azərbaycanın ən ağrılı, onun ümumi inkişafı yolunda buxova çevrilmiş problemləri içərisində Qarabağ məsələsi ümdə yer tutur. Erməni qəsbkarlığının zaman-zaman təcavüzünün yeni mərhələsi olan Qarabağ savaşı və onun törətdiyi əngəllər vaxtında həll edilsə idi ölkəmiz belə ağır bəlalara düçar olmazdı. Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra Qarabağ problemi və onun həlli qayğısı onun çoxşaxəli fəaliyyətində aparıcı yer tutmuşdur. Məhz onun inadlı təkidi sayəsində uzunmüddətli atəşkəs rejiminə əməl olundu. Qanlar axıdılmadı. Lakin prezidentimizin dediyi kimi bizim dövləti «nə sülh, nə də müharibə» prinsipi qane etmirdi. Ərazisinin 20 faizinin yağı düşmən tapdağı altında qalan, 1 milyondan artıq vətəndaşının doğma ev- eşiyindən didərgin salındığı ölkənin belə vəziyyətlə barışması mümkün deyil.

Ölkə prezidentinin bu sahədəki yorulmaz və ardıcıl fəaliyyəti, prinsipial mövqeyi həm Azərbaycan xalqına, həm də dünya ictimaiyyətinə yaxşı bəllidir. Bu prinsiplər onun çoxsaylı görüşlərində, dövlətlərarası danışıqlarda, ATƏT- in zirvə görüşlərində dönə-dönə nəzərə çatdırılıb. ATƏT-in 1996-cı ilin dekabrında keçirilmiş Lissabon zirvə toplantısında həmin prinsiplər, onların ən ümdəsi olan Azərbaycanın ərazi bütövlüyü dünyanın 53 dövləti tərəfindən birmənalı bəyənilib. Biz şübhə etmirik ki, Heydər Əliyev dühasından güc alan yeni Prezidentimiz İlham Əliyev ulu öndərin işini uğurla davam etdirəcək və problem həllini tapacaqdır. Bu mürəkkəb və ağrılı, xalqımız üçün tale yüklü problemin həlli məsələsi hazırda dövlət başçısının fəaliyyətində ən mühüm yer tutur.

Heydər Əliyevin dövlətçilik fəaliyyətində Azərbaycan elminin, mədəniyyətinin keçmiş zəngin irsinin öyrənilməsi və inkişaf etdirilməsi, gənc nəslə, bütövlükdə istedadlara qayğı ayrıca qeyd olunmalıdır. Onun bir-birinin ardınca 1948-1953-cü illərdə Azərbaycanlıların Ermənistandan kütləvi köçürülməsi, 31 martın hər il Azərbaycanlıların ermənilər tərəfindən soyqırımı günü elan edilməsi ilə əlaqədar verdiyi fərmanlar bütün dünya ictimaiyyətini bir daha Azərbaycanın problemlərinə, ermənilərin zaman- zaman törətdikləri vəhşiliklərə cəlb etdi. Bu fərmanlar eyni zamanda Azərbaycan xalqını ayıq- sayıq olmağa, onları məkrli düşmənə qarşı mübarizəyə hazır olmağa çağırmış və yenə çağırmaqdadır.

1998- ci ildə keçirilmiş prezident seçkilərində Heydər Əliyev cənablarının çox böyük üstünlüklə qələbə çalması qədirbilən Azərbaycan xalqının öz böyük oğluna sonsuz etimadının bariz nümunəsi oldu.

Prezidentliyinin sonrakı beşillik dövründə o, XX əsrin 90-cı illərinin ikinci yarısında yaratdığı mühüm təməl üzərində daha böyük nailiyyətlər əldə etməyə müvəffəq oldu. Azərbaycan xalqının milli- tarixi ənənələrini qoruyub saxlamaq və yeni şəraitdə daha da inkişaf etdirməklə yanaşı, dövlət başçısı, Avropa və dünya demokratiyasının ən yaxşı nümunələrinin Azərbaycan gerçəkliyinə tətbiq etməyin vacibliyini ön plana çəkmişdir.

Ölkədə kənd təsərrüfatı və sənayenin, sosial- mədəni sfe-

ranın, elm, mədəniyyət və təhsilin, səhiyyənin, bir sözlə, bütün sahələrin ahəngdar fəaliyyəti və yüksəlişi üçün bütün imkanlardan istifadə olundu.

Bakı-Tbilisi-Ceyhan (BTS), Bakı-Tbilisi-Ərzurum (BTƏ), neft və qaz kəmərlərinin, «TRASEKA»-Avropa-Qafqaz- Asiya nəqliyyat dəhlizinin yaranması və fəaliyyəti üzrə proqramların reallaşması istiqamətində aparılan işlər artıq öz bəhrəsini verməyə başlamışdır.

80 illik ömrünün çox hissəsini öz doğma xalqının əmin-amanlığı, dövlətçiliyinin möhkəmlənməsi, dünya birliyində layiqli yer tutmasına sərf etmiş Heydər Əliyev sağlığında klassikə çevrildi. Siyasət sahəsində etalon oldu.

Xalqımızın dahi oğlu Heydər Əliyevin dövlətçilik fəaliyyətinin bəzi məqamlarını xatırladarkən bir daha qeyd etmək istəyirik ki, son otuz beş ildə Azərbaycan dövlətçiliyinin yüksəlişi Heydər Əliyevin adı ilə bağlı olmuşdur. Bu illər ərzində o, fitri istedadını, diplomatik və siyasət aləmindəki zəngin bilik və bacarığını, müxtəlif dövrlərdə tutduğu vəzifələrin ona verdiyi imkanları Azərbaycan xalqının, onun dövlətçiliyinin yüksəlişinə, dünya sivilizasiyasında layiqli yer tutmasına sərf etmişdir.

H.F.Cəfərov prof.
AzDİU-nun «Azərbaycan tarixi»
kafedrasının müdiri

# NAXÇIVAN QƏDİM VƏ ƏBƏDİ AZƏRBAYCAN DİYARIDIR

2004-cü ildə Azərbaycan Respublikasının tərkibində Naxçıvan Muxtar Respublikasının yaranmasının 80 illiyi tamam olur. Bu haqda ölkə Prezidenti İlham Əliyev cənabları xüsusi fərman vermiş, Dövlət komissiyası yaradılmış, yubiley təntənələrinin keçirilməsi üçün respublika miqyasında çox böyük işlər görülmüşdür.

Bəzilərində belə təsəvvür yarana bilər ki, yəqin ki, elə Naxçıvan 80 ildir mövcuddur. Bizcə çox az azərbaycanlı belə düşünə bilər. Başqa əcnəbi millətlərin bir çoxunda isə yəqin belə qənaət var. Biz bu kiçik qeydlərimizdə çalışacağıq ki, belə bəsit təsəvvürə malik şəxslərdə Naxçıvanın nə qədər qədim və zəngin tarixə malik olması haqqında qısa, lakin imkan daxilində müfəssəl məlumat yaradaq.

Naxçıvan ən qədim zamanlardan Azərbaycanın tərkib hissəsi olmuşdur. Bu tarixi faktdır və isbata ehtiyacı yoxdur. Azərbaycanlılar yaxşı bilir, qoy başqaları da birdəfəlik bilsin və yadda saxlasın ki, tarixi Azərbaycanın ərazisi indi bizim yaşadığımız Şimali Azərbaycan, müstəqil Azərbaycan Respublikasının ərazisindən ibarət olmayıb. Cənublu-şimallı bütöv, böyük və bölünməz Azərbaycanın cənub sərhədləri az qala İran körfəzinə qədər, şimal sərhədi Dağıstana qədər uzanmışdır. Onun Qərb torpaqlarında vaxtilə Ermənistan adlı bir qondarma qurum peyda oldu və bu qurum öz havadarlarının köməyi ilə zaman-zaman Azərbaycana qarşı ərazi iddiaları qaldırmış, son illərdə açıq təcavüzə keçərək ərazimizin 20%-ni qəsb etmişdir. Son aylar isə erməni azğınlığının yeni mərhələsi başlanmışdır. Qarabağla iştahaları ödənməyən bu azğın millətçilər indi də Naxçıvana qarşı ərazi iddiaları qaldırır, təşkilat yaradır, dünya ictimaiyyətini faktları tərs-avand salmaqla çaşdırmağa çalışırdılar. Məhz buna görə də biz dünya ictimaiyyətinə Naxçıvanın tarixi kökləri ilə

bağlı əsil həqiqəti çatdırmalıyıq. Bu bizim vətəndaşlıq borcumuzdur.

Tarixi araşdırmalar sübut edir ki, bütövlükdə Azərbaycan, o cümlədən Nazçıvanda həyat ən qədim daş dövründən başlanmışdır. Naxçıvan diyarında paleolit dövrünə aid Qazma mağarasında aparılmış axtarışların nəticəsi bunu sübut edir. Azərbaycanın başqa regionlarında – Qarabağ, Qazax və s. aşkar olunmuş paleolit dövrü insan düşərgələri ilə birlikdə Qazma mağarası materialları ən qədim insan tiplərinin təkamül yolu ilə inkişafı prosesini izləməyə imkan vermişdir.

Təkcə Azərbaycanda deyil, bütövlükdə Qafqazda istehsal təsərrüfatının təşəkkülü və inkişafının bütün pillələri haqqında bitkin elmi məlumatların əldə olunmasında Naxçıvanın eneolit dövrü (e.ə. VI-IV minilliklər) abidələri (xüsusilə Kültəpə) həlledici rol oynamışdır. XX əsrin 50-ci illərində Naxçıvan Kültəpəsində aparılmış tədqiqatların nəticələri Qafqazda ibtidai cəmiyyət haqqındakı əvvəlki təsəvvürlərdə əsl inqilabi çevrilişə səbəb oldu. Məlum oldu ki, Azərbaycanın başqa ərazilərində olduğu kimi Naxçıvan diyarı da e.ə. VI-IV minilliklərdə geniş məskunlaşmışdır.

E.ə.IV minilliyin ikinci yarısı – I minilliyin əvvəllərini əhatə edən dövrdə Naxçıvan diyarının ictimai-siyasi, iqtisadi-mədəni həyatında böyük dəyişikliklər baş vermiş, etnik-mədəni proseslər yeni keyfiyyət almışdır. Bu dövrün ikinci Kültəpə, Oğlanqala, Bayxır, Govurqala, Çalxanqala, Əznəbyurdqala və s. möhtəşəm qalaları və başqa ətraflı qala hasarlı yaşayış məskənləri Naxçıvanın Qədim Şərq sivilizasiyası sistemində layiqli yer tutmasını sübut edir. Naxçıvan diyarının qayaüstü rəsmləri (söhbət məşhur Gəmiqaya təsvirlərindən gedir) Qobustan, Kəlbəcər qayaüstü rəsmləri ilə birlikdə Azərbaycanın qədim incəsənət nümunələrinin şah əsərləridir.

Bütövlükdə Zaqafqaziya kimi Azərbaycan və onun tərkib hissəsi olan Naxçıvan e.ə. III-II minilliklərdə Ön Asiyada cərəyan edən ictimai – siyasi və etnik – mədəni proseslərin tərkib hissəsi olmuşdur. Buna görə də Naxçıvan ərazisində Qədim Şərqin şəhər – dövlətlərini xatırladan möhtəşəm qala və bu tip yaşayış məskənlərinin olması heç kəsdə təəccüb doğurmamalıdır.

Şübhəsiz, bu qalalar həm Naxçıvan diyarının, həm də bütövlükdə Azərbaycan ərazisinin xarici həmlələrdən mühafizə olunmasında mühüm rol oynamışlar.

Azərbaycanın qədim dövlət qurumu olan Manna çarlığı (e.ə.IX-VII əsrlər) dövründə Naxçıvan regionda baş verən hadisələrin qaynar nöqtələrindən olmuşdur.

Manna dövləti öz müstəqilliyini itirdikdən sonra Azərbaycanın əksər ərazisi kimi Naxçıvan diyarı da uzun müddət əvvəl Midiya imperiyasının (e.ə.VII-VI əsrlər), sonra isə Əhəməni İran imperiyasının (e.ə. VI-IV əsrlər) tərkibində olmuşdur.

E.ə.331-ci ilə Qavqamel döyüşündə ağır məğlubiyyətə uğrayan Əhəməni dövləti süqut etdi. Makedoniya çarı İsgəndərin nəhəng imperiyası yarandı. İsgəndərin qəflətən ölümü ilə (e.ə. 323-cü il) bu az ömürlü, «Gil ayaqlar üzərində dayanmış» nəhəng imperiya parçalandı. Belə bir şəraitdə Azərbaycan ərazisində yeni dövlət, paytaxtı Qazaka şəhəri olan Atropatena dövləti yarandı. Manna dövlətinin tarixi ərazisini əhatə edən Atropatenanın şimal sərhədləri Muğan düzünə kimi yayılmışdır. Eyni vaxtda Azərbaycanın şimalında başqa bir dövlət – Qafqaz Albaniyası meydana gəldi. Mərkəzi şəhəri Qəbələ olan bu dövlət də Atropatena kimi Azərbaycanın dövlətçilik ənənələrinin möhkəmləndirilməsi və inkişaf etdirilməsində, ölkənin ümumi sosial – iqtisadi, ictimai - siyasi gücünün artırılmasında böyük rol oynamışdır. Naxçıvıan diyarı coğrafi mövqeyi və tarixi ənənənələri ilə Atropatenaya daha yaxın olsa da, onun bir hissəsinin Alban çarlığı ilə bağlılığı müddəası elmi gündəlikdədir.

Yeni eranın III əsrində meydana gəlmiş İran Sasani imperiyasının işğalçılıq qurbanları sırasında Azərbaycan ərazisi, o cümlədən Naxçıvan diyarı da olmuşdur. Sasani əsarətinə baxmayaraq y.e. III-V əsrlərində Azərbaycanda, habelə Naxçıvanda feodal münasibətləri təşəkkül tapır və inkişaf edir, sonrakı dövrlərdə ölkənin ictimai-iqtisadi həyatında irəliləyişlər müşahidə olunur.

Y.e. VII əsrinin 30-cu illərində yaranmış Ərəb xilafəti öz fəaliyyətini iki istiqamətdə çox geniş ərazidə davam etdirə bildi: a) yeni ərazilər zəbt etmək; b) islam dinini yaymaq. Azərbaycan ərazisi, o cümlədən Naxçıvan, Ərəb işğalçılarının ilkin ocaqların-

dan oldu. Azərbaycan xalqı işğallara qarşı qəhrəmancasına mübarizə aparsa da qüvvələr nisbətinin onun xeyrinə olmaması öz təsirini göstərdi. Artıq VIII əsrin başlanğıcında Azərbaycan ərazisi Ərəb xilafəti sisteminə qatılmışdı. Hərçənd ki, Ərəb xilafətini lərzəyə salan, 30 ildən artıq onun siyasi – iqtisadi dayaqlarını sarsıdan məşhur Xürrəmilər hərəkatı və Azərbaycan ərazisində təşəkkül tapmış, Azərbaycan oğlu Babək uzun müddət onun rəhbəri olmuşdur. Bu hərəkatın əsas dayaqlarından biri də məhz Naxçıvan diyarı olmuşdur.

Xürrəmilər hərəkatı nəticə etibarilə məğlub olsa da (837-ci il), əslində onun vurduğu zərbələrdən özünə gələ bilməyən Ərəb xilafəti zəiflədi və IX əsrin ortalarında parçalanaraq əvvəlki güc və zəhmini itirdi. Azərbaycan ərazisində bir-birinin ardınca Sacilər, Salarilər, Rəvvadilər, Şəddadilər və Şirvanşahlar feodal dövlətləri yarandı. Axırıncı iki dövlət istisna olunmaqla qalan Azərbaycan dövlətlərinin mərkəzi vilayətləri sırasında Naxçıvan diyarı mühüm yer tutmuşdur.

XI əsrin 30-cu illərindən başlanan Səlcuq hücumları və onun nəticəsində Səlcuqilər imperiyasının yaranması ilə IX-XI əsrlərdə mövcud olmuş Azərbaycan feodal dövlətləri süqut etdi, bəziləri isə (məsələn, Şirvanşahlar) Səlcuqilər imperiyasından asılı vəziyyətə düşdülər. Bu dövrdə də Naxçıvan Səlcuqilər imperiyasının əsas vilayətlərindən biri idi.

XII əsrin 30-cu illərində Səlcuqilərin zəifləməsindən istifadə edən bir çox feodal əyanları və əmirləri nominal qaydada mərkəzi hakimiyyəti qəbul etsə də, əslində müstəqil fəaliyyət göstərməyə başladılar. Belə bir vaxtda yaranmış və uzun müddət mövcud olmuş (1136-1225-ci illər) Azərbaycan Atabəylər-Eldəgizlər dövləti Azərbaycan dövlətçiliyi tarixində dərin iz qoymuşdur. Mövcud olduğu bütün dövr ərzində Naxçıvan diyarı və onun mərkəzi olan Naxçıvan şəhəri bu diyarın inzibati-mədəni mərkəzlərindən olmuşdur. Təsadüfi deyil ki, Eldəgizlər xanədanının zövcəsi Möminə xatına ithaf edilmiş mavzoley məhz burada yerləşmişdir. (Qarabağlar kəndində).

1220-ci ildən başlanan və XIV əsrin ortalarına qədər davam edən monqol işğalları və əsarəti dövründə bütövlükdə Azərbaycan kimi Naxçıvan da düşmən zülmünə məruz qalmış, dağıntı

və sarsıntılara düçar olmuş, lakin heç vaxt əsarətçilərə boyun əyməmişdir. Elə ilk monqol hücumları dövründən Azərbaycanın Təbriz, Ərdəbil, Beyləqan, Bərdə və başqa şəhərləri kimi Naxçıvan diyarı da düşmənə ciddi müqavimət göstərmişdir. 1258-ci ildən Azərbaycan Hülakülər – Elxanilər dövlətinin mərkəzinə çevriləndən sonra, Naxçıvan başqa bir neçə Azərbaycan şəhəri ilə birlikdə bu dövlətin aparıcı şəhərlərindən biri olmuşdu.

Naxçıvan diyarı tarixən sonrakı mərhələlərində də Azərbaycanın ictimai – siyasi həyatında öz aparıcı mövqeyini qoruyub saxlaya bilmişdir. Azərbaycan ərazisində müxtəlif vaxtlarda mövcud olmuş Cəlairlər (1357-1410), Qaraqoyunlu (1410-1467/68), Ağqoyunlu (1467-1501) dövlətlərinin ictimai-iqtisadi və siyasi durumunda Naxçıvan diyarı mühüm rol oymamışdır.

XIV əsrin II yarısında ictimai-siyasi hadisələrin son dərəcə kəskinləşdiyi bir vaxtda, şimaldan Qızıl Orda xanı Toxtamış, cənubdan isə Əmir Teymurun qoşunlarının aramsız hücumları dövründə Naxçıvan bütün Azərbaycan xalqı ilə birlikdə ölkənin müdafiəsinə qalxmışdır. Təkcə onu qeyd etmək kifayətdir ki, 1387-1401-ci illərdə Naxçıvanın əzəmətli Əlincə qalası Əmir Teymur qoşunlarına müqavimət göstərmiş, mühasirə şəraitində mübarizəni davam etdirmişdir.

1501-ci ildə Azərbaycanın çoxəsrlik tarixində öz əhəmiyyətini itirməyən böyük siyasi hadisə baş verdi. Cənublu-şimallı Azərbaycan ərazisi vahid, mərkəzləşmiş dövlətin tərkibində birləşdi. Şah İsmayıl Xətai əzəmətli babalarının – Şeyx Heydərin və Uzun Həsənin arzularını həyata keçirərək böyük, vahid, Azərbaycan Səfəvilər dövlətini yaratdı. Gənc Şah İsmayıl Ağqoyunlu varislərinə həlledici zərbəni 1501-ci ilin payızında məhz Naxçıvan ərazisində, Şərur çölündə endirdi. Mövcud olduğu bütün dövrlərdə Naxçıvan diyarı Səfəvilər dövlətinin mərkəzi vilayətlərindən olmuşdur. Strateji mövqeyi ilə qonşu dövlətlərin, o cümlədən Türkiyə sultanlığının diqqətini cəlb edən Naxçıvan ərazisi dəfələrlə hərb meydanına çevrilmişdir. Uzun sürən Osmanlı-Səfəvi müharibələrinin növbəti döyüşlərindən biri 1554-cü ildə baş vermişdir. Mənbələrdə bu yürüş (Osmanlı Türkiyəsinin XVI əsrdə 12-ci yürüşü) «Naxçıvan yürüşü» adı ilə məlumdur.

1590-cı ilin hərarətli İstanbul sülhündən sonra Səfəvilər Azərbaycanın, o cümlədən Naxçıvanın Türkiyə hakimiyyəti altına keçməsini qəbul etməyə məcbur oldu. Lakin qısa vaxtda geniş və əsaslı islahatlar keçirən I Şah Abbas 1602-ci ildən başlayaraq itirilmiş əraziləri geri qaytarmağa başladı. 1603-cü ildə I Şah Abbas Naxçıvanı azad etdi. Əmirgünə xan Naxçıvan hakimi təyin edildi. 1612-ci ilin müqaviləsinə görə yenidən bütün Azərbaycan Səfəvilər dövləti tərkibinə qatıldı.

XVII əsrdə Azərbaycan vilayətləri kimi Naxçıvan diyarında da nisbi sakitlik bərqərar olmuş, iqtisadi – mədəni inkişafın yeni mərhələsi başlanmışdır. Bu dövrdə Naxçıvanda olmuş türk səyyahı Övliyə Çələbi yazırdı ki, «...şəhəri 10 min böyük ev bəzəyirdi, məscid və ibadətlərin sayı 70-ə çatırdı, 40 məhəllə məscidi, 20 qonaq evi, 7 hamam, 1000 dükan var idi...».

1736-cı ilə qədər mövcud olmuş Səfəvilər dövləti zaman keçdikcə nəhəng imperiyaya çevrildi, orta əsrlər Şərqinin ictimai-siyasi mənzərəsinin bərqərar olması və dəyişməsində böyük rol oynadı. Doğrudur, XVII əsrin əvvəllərindən bü dövlətin idarə edilməsi, onun mərkəzinin İranın içərilərinə köçürülməsi və s. Azərbaycanın rolu getdikcə azalır. Lakin bütün vaxtlarda Naxçıvan Azərbaycanın başqa vilayətləri ilə birlikdə Səfəvilər dövlətinin tərkib hissəsi olmuş, dövlətin inkişafı və sonrakı taleyində böyük rol oynamışdır. Təsadüfi deyil ki, Səfəvilər dövlətinin 13 bəylərbəyliyindən 4-ü Azərbaycan ərazisinə düşürdü: Təbriz, Çuxur – Səəd, Qarabağ (və ya Gəncə), Şirvan bəylərbəylikləri, Naxçıvan, İrəvan və başqa yaxın ərazilər mərkəzi Naxçıvan olan Çuxur-Səəd bəylərbəyliyinin tərkibinə daxil idi.

XVIII əsrin əvvəllərində Səfəvilər dövlətinin zəifləməsindən istifadə edən çar Rusiyası və sultan Türkiyəsi Azərbaycanın əksər hissəsini zəbt etdilər. Belə bir şəraitdə hərb və siyasət meydanına çıxan Nadirqulu xan nəinki işğal olunmuş əraziləri azad edə bildi, müdaxiləçiləri ölkənin sərhədlərindən çıxardı. Hətta 1736-cı ildə hakimiyyətə gəldi və özünü İran şahı elan etdirdi. Həm XVIII əsrin əvvəllərində baş verən hadisələrdə, həm də Nadir şahın hakimiyyəti dövründə (1736-1747) cərəyan edən olaylarda Naxçıvan diyarı Azərbaycanın başqa vilayətləri kimi ön sıralarda olmuşdur.

1747-ci ildə Nadir şahın öldürülməsilə İran və Azərbaycanın ictimai-siyasi həyatında yeni mərhələ başlayır. Yaranmış vəziyyətdən istifadə edən Azərbaycan feodalları müstəqil dövlətlərin – xanlıqların əsasını qoymağa müvəffəq olurlar. Azərbaycanın həm cənubu, həm də şimalında müxtəlif güc və qüdrətə, siyasi çəkiyə malik olan feodal dövlətləri yaranır. Qarabağ, Quba, Şəki, Təbriz, Urmiya, İrəvan və bir çox başqa xanlıqlarla yanaşı Azərbaycan tarixində öz yeri və mövqeyi olan Naxçıvan xanlığı da yaranır. Kəngərli tayfasının başçısı Heydərqulu xan özünü Naxçıvan xanlığının hakimi elan etdi. Naxçıvan xanlığının ərazisi Zəngəzurdan başlamış Araz çayı vadisinə kimi geniş ərazini tuturdu. Buraya tarixi qərbi Azərbaycan torpaqlarının da xeyli hissəsi daxil idi. Şimal-şərqdən Dərələyəz dağları, cənub-şərqdən İlanlı dağ, şimal-qərbdən isə Böyük və Kiçik Ağrı dağları zonası Naxçıvan xanlığının sərhədi boyu uzanırdı. Xanlıq İrəvan, Qarabağ, Xoy və Manu xanlıqları ilə həmsərhəd idi.

Bütünlükdə Azərbaycanda olduğu kimi Naxçıvan xanlığının da dinc quruculuq həyatını XIX əsrin əvvəllərində baş vermiş ictimai-siyasi hadisələr pozdu. XVIII əsrin 20 və 90-cı illərindəki müvəffəqiyyətsizlik cəhdlərindən sonra yeni taktiki variant seçən Rusiya imperatorluğu öz mənfur strateji planlarını XIX əsrin əvvəllərində həyata keçirməyə başladı.

İlk dəfə 1808-ci ilin oktyabrında rus ordusunun generalı Nebolsinin dəstəsi Naxçıvanı tutdu. Lakin 1813-cü ilin Gülüstan müqaviləsinə görə Naxçıvan rus işğalı zonasından kənarda qaldı. İkinci Rus-İran müharibəsi gedişində (1826-1828) 1827-ci il iyunun 28-də Naxçıvan rus qoşunları tərəfindən işğal olundu. 1828-ci il fevralın 10-da bağlanmış Türkmənçay müqaviləsinə görə Azərbaycanın başqa şimal xanlıqları ilə birlikdə Naxçıvan xanlığı da Rus imperatorluğunun tərkibinə qatıldı.

1917-ci ilin fevral burjua inqilabı və Oktyabr çevrilişindən sonra mövcud olan ictimai-siyasi vəziyyət şəraitində Naxçıvan diyarında da hadisələr axarı xeyli mürəkkəbləşdi. 1918-1920-ci illərdə mövcud olmuş AXC hökuməti çətin şəraitdə Naxçıvan diyarını diqqət mərkəzində saxlamağa çalışırdı. Erməni qəsbkarları hər cür hiylə və iyrənc üsullara əl atmaqla Naxçıvanı zəbt etməyə çalışsa da buna nail ola bilmədi. Naxçıvanın

həmin vaxtkı durumunda Türkiyə hökuməti öz qardaşlıq köməyini əsirgəmədi. 1919-1920-ci illərdə mövcud olmuş Araz-Türk Respublikası da Naxçıvanın Azərbaycanla bağlılığının qorunub saxlanılmasında xeyli iş gördü.

AXC hökumətinin süqutundan sonra 1920-ci il aprelin 28-də Azərbaycanda Sovet hakimiyyəti quruldu. 1920-ci il iyunun 27-də Rusiyanın XI Qırmızı Ordu hissələri Naxçıvanı zəbt etdi, ertəsi gün Naxçıvanda Sovet hakimiyyəti elan edildi. Bundan sonra Naxçıvanın tarixi taleyinin müəyyən edilməsi istiqamətində xeyli iş aparıldı. Böyük çətinliklərə baxmayaraq Naxçıvanın əbədi Azərbaycan ərazisi olması, onun sonrakı mövcudluğunun da Azərbaycanla bağlılığı problemi yolunda addım-addım müvəffəqiyyətlər qazanıldı. Bu işdə 1921-ci ildə imzalanmış Moskva (16 mart) və Qars (13 oktyabr) müqavilələri mühüm rol oynamışdır. Hər iki müqavilədə (müvafiq olaraq 3-cü və 5-ci maddələrə əsasən) Naxçıvanın Azərbaycanın himayəsi altında muxtariyyəti təsbit edilmişdir.

1922-ci ilin dekabrında Azərbaycan SSR-nin ZSFSR-in tərkibinə daxil olması ilə elə həmin vaxt ZSFSR-nin I qurultayı Naxçıvan Respublikasının Muxtariyyət hüququnda Azərbaycan SSR-nin ayrılmaz və tərkib hissəsi hesab edilməsi haqqında qərar qəbul etdi.

1923-cü il yanvarın 27-də III Ümumnaxçıvan Sovetlər qurultayı Naxçıvan SSR-nin muxtariyyət hüquqları əsasında Azərbaycan SSR-nin tərkibinə daxil edilməsi haqqında qərar qəbul etdi.

1923-cü il iyunun 16-da Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin III sessiyası Naxçıvan SSR-nin yenidən təşkil edilərək muxtar diyar şəklində Azərbaycan SSR-in tərkibinə daxil olmasını bəyəndi.

1923-cü il dekabrın 31-də Az.MİK Naxçıvan Muxtar Diyarının Azərbaycan SSR tərkibində Naxçıvan MSSR-ə çevrilməsi haqqında qərar qəbul edərək onun təsdiq olunmasını Zaqafqaziya MİK-dan xahiş etdi. 1924-cü il yanvarın 8-də Zaqafqaziya MİK-nın I plenumu Naxçıvan Muxtar Diyarının Naxçıvan MSSR-ə çevrilməsi haqqında qərar çıxartdı. Bütün bunlardan sonra 1924-cü il fevralın 9-da Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi

xüsusi Dekretlə Naxçıvan Muxtar Diyarının Azərbaycanın tərkibində Naxçıvan MSSR-ə çevrilməsini təsdiq etdi. Beləliklə, Naxçıvan diyarı ilə bağlı çox uzun sürən mürəkkəb məsələlər diyar əhalisi və ümumi Azərbaycan dövlətçiliyinin xeyrinə həll olundu. Daha doğrusu, Naxçıvanın ən qədim zamanlardan Azərbaycanın ayrılmaz tərkib hissəsi olması qanuni yolla bir daha təsdiq edildi. Bu fakt erməni millətçiləri və onların havadarlarına tutarlı cavab, öldürücü zərbə idi.

1920-1980-ci illərdə Naxçıvan Muxtar Respublikası Azərbaycanın ümumi sosial-iqtisadi, ictimai, mədəni inkişafında mühüm rol oynamışdı.

SSRİ-nin dağılması ilə yaranmış vəziyyətdən istifadə etməyə çalışan erməni qəsbkarları Naxçıvana qarşı ərazi iddiaları qaldıraraq hərbi müdaxilə yolunu seçdi. Lakin bütün çətinliklərə sinə gərən Naxçıvan murdar düşmənin arzularının çin olmasına imkan vermədi. Xüsusilə Heydər Əliyev cənablarının Naxçıvana rəhbərliyə gəlməsi ilə bu qədim diyarın ictimai-siyasi həyatına yeni nəfəs, yeni ruh gətirildi. Hələ 1990-cı ilin yayında Naxçıvan Muxtar Respublikasının adından «sovet», «sosialist» ifadələri çıxarıldı. Naxçıvan Respublikası SSRİ-nin saxlanılmasını təsdiq edəcək referendumda iştirak etmədi. Bu ağır illərdə Naxçıvan Azərbaycanla bir olduğunu, onunla bağlılığını bir daha əyani surətdə nümayiş etdirdi.

Hal-hazırda bu qədim diyarın həyatında yeni mərhələ başlanmışdır. Ağır blokada şəraitində obyektiv iqtisadi çətinliklərə baxmayaraq Naxçıvan müstəqil Azərbaycan Respublikasının ictimai-siyasi, mədəni-iqtisadi həyatında ön cərgədə gedir və gələcəyə nikbinliklə baxır.






***Naxçıvan Muxtar Respublikasının iqtisadi xəritəsi***



*Möminə Xatun türbəsi*



*Gəmi qaya*





*Naxçıvan. e.ə. VII-II minillikdə Gəmiqaya qayaüstü təsvirləri.*



*Sasani hökmdarı II Xosrovun (591-628) və Buran (630- 631) dövrünə aid Naxçıvanda zərb edilmiş gümüş dirhəmlər.*





*Daş qoç heykəlləri. Orta əsrlər.*



*V-əsirdə Naxçıvan Qaraqoyunlu və sonra Ağqoyunlu dövrünün tapıntıları.*



*V-əsr Asəbkəf - ziyarətgahı.*





*Azərbaycan Atabəyləri memarlıq ansamblı XII əsr. Foto XIX əsr.*



*Naxçıvan şəhərində məscid.*



*Naxçıvan Duz mədənindən mexaniki duz daşınması*



*Naxçıvan MR ilə Türkiyə arasında "Ümüd" körpüsünün açılışı. 1992-ci il.*

Ə.Q.Əlirzayev
əməkdar elm xadimi, i.e.d.,
professor, millət vəkili

# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ SOSİAL-İQTİSADİ İNKİŞAF QANUNAUYĞUNLUQLARI, MEYLLƏRİ VƏ XÜSUSİYYƏTLƏRİ

Naxçıvan Muxtar Respublikasının tarixi, onun ərazisində Azərbaycan dövlətçiliyinin reallaşma xüsusiyyətləri, coğrafi mövqeyi və onun dəfələrlə işğalına cəhd edilməsi, əhalisinin, iqtisadiyyatının sonrakı davranışı, ənənəsini və həyat tərzini formalaşdırmışdır.

Naxçıvan Muxtar Respublika kimi 1924-cü ildən dövlət statusu almaqla Azərbaycan Respublikasının vahid ərazi və iqtisadi potensialının SSRİ məkanında öz potensialını inkişaf etdirməklə, fəal transformasiya olunub, müstəqillik şəraitində blokada statuslu analoqu olmayan Azərbaycan bölgəsi kimi yeni bazar tipli iqtisadi, sosial və siyasi aspektlərə və səciyyəvi cəhətlərə məruz qalmışdır. Naxçıvanın iqtisadiyyatı planlı təsərrüfat sistemindən fərqli olaraq, 1990-cı ildən bazar tipli strateji yol ilə inkişaf etməklə, öz tarixi ərazilərini qorumaq üçün beynəlxalq münasibətlərin sivil qaydalarından inteqrasiya olunmaqla yeni inkişaf mərhələsinə daxil olub.

Naxçıvan MR-in 80 illiyi, onun ərazi, iqtisadi və əhali potensialını qiymətləndirmək, tarixin dönücü illərində transformasiyasını təhlil etmək və yeni mərhələlərdə inkişaf xüsusiyyətlərini açmaq zəruriyyət kəsb edir.

Naxçıvanın coğrafi və ərazi xüsusiyyəti, onun iqtisadi və sosial potensialının formalaşması və inkişafının əsas istiqamətlərini, onun idarə olunması prinsipləri yaradır. Naxçıvan Muxtar Respublikasının iqtisadi potensialı, onun ehtiyatları, əhalinin maddi rifah səviyyəsinin dinamikası 1920-ci illərdən uzun tarixi dövr keçdiyi yolun qanunauyğunluqlarının bir sıra obyektiv amilləri olmuşdur.

Naxçıvanın iqtisadi və sosial inkişaf göstəriciləri 1970-1982-ci illərdə Azərbaycan iqtisadiyyatı üçün xarakterik olan yüksək artım templəri və dinamik inkişaf meyllərinə malik olmuşdur.

1983-1988-ci illərdə iqtisadi və sosial inkişaf göstəricilərinin artımında templər azalmağa meyl etmişdir. 1988-ci ildən başlayaraq Naxçıvanla qonşu olan Ermənistan Respublikasının ərazisində olan Azərbaycan rayonlarında əhalinin sıxlaşdırılması miqrasiya prosesinin intensivləşməsinə, respublikalararası iqtisadi əlaqələrin pozulmasına gətirib çıxarmışdır. Naxçıvanın Azərbaycan paytaxtı Bakı şəhəri və digər rayonlar ilə əlaqəsi və Rusiya şəhərlərinə çıxmaq üçün aviasiya yolları kəsilmişdi. Yeganə dəmir yolu ilə təsərrüfat əlaqələri və əhalinin daşınması baş verirdi.

Cülfa-Bakı dəmir yolunun Mehri rayonundan keçməsi və vaqonlara erməni təcavüzü bu yeganə nəqliyyat vasitəsinin işinin ahəngdarlığını pozmuş, Naxçıvan Muxtar Respublikasına yüklərin gətirilməsinə, onun ərazisində olan hazır məhsulların daşınmasına əngəl törətmişdir.

1990-cı ilin iyul ayında möhtərəm Prezident H.Əliyev cənablarının Naxçıvan torpağına ayaq basan gündən daima qorxu içərisində yaşayan, dəfələrlə köçülmək təhlükəsi ilə üzləşən, ancaq son damla qanına qədər torpağını, elini qoruyacaq Naxçıvan əhalisi öz xilaskarını tapdığı üçün daha da mətinləşmişdir. Bu gəliş Azərbaycanı parçalanma təhlükəsindən azad etmək üçün gəlişin başlanğıcı idi. Siyasi sabitlik, müstəqillik və iqtisadi təhlükəsizlik konsepsiyasının hazırlanması və mərhələ-mərhələ həyata keçirilməsi lazım idi.

Heydər Əliyevin uzun müddət keçmiş SSRİ məkanında, planlı mərkəzləşdirilmiş idarəetmə sistemində apardığı iqtisadi siyasət strategiyasının yeni əsaslar və mexanizmlər bazasında reallaşmış meyli məhz bu gəlişlə qədim Naxçıvan iqtisadi sistemində reallaşmağa başladı. Naxçıvanın iqtisadi və sosial inkişaf konsepsiyası onun tarixini və perspektivini əlaqələndirir. Bu konsepsiyanın işlənmə metodologiyası, reallaşma mexanizmi bir-birinə zidd olan iki iqtisadi sistemin təşkili və idarə

olunmasında nəzəri-elmi və praktiki görüşlərin məcmusu şəklində formalaşıb inkişaf etməli idi.

Bu metodologiya tarixilik, varislik, nəzəri və praktiki inkişaf meyllərini fəal surətdə dəyişmək ideologiyasına əsaslanır. Naxçıvan iqtisadiyyatının 1970-1980-cı illərdə formalaşmış potensialını qiymətləndirən H.Əliyev cənabları onun 1988-1993-cü illərdə böhran vəziyyətini təhlil etməklə, 2000-ci ildə və XXI əsrdə inkişaf yollarını, mənbələrini və istiqamətlərini müəyyən etmək məqsədilə yönəldilən iqtisadi-sosial inkişaf konsepsiyasının müəllifidir. Azərbaycanın 1970-ci illərdə formalaşmış iqtisadi potensialı, sosial sahələrin dinamikası, sənaye strukturu, elmi potensialı məhz indiki keçid dövründə tələbatın ödənilməsi və iqtisadi çətinliklərdən çıxmaq üçün yaradılmışdır. Təsəvvür edin ki, 1983-1993-cü ildən hörmətli Prezidentin gərgin əməyi nəticəsində uzun müddət formalaşmış azalma meyllərini dayandırmaq mümkün olmuşdur.

İqtisadi konsepsiya keyfiyyətcə yeni, məkanca perspektiv və uzunmüddətli, mahiyyətcə sosial yönümlü, xaraktercə demokratik, dinamik və dünyəvi bir konsepsiyadır. Onun əhatə dairəsi kompleks sistemli olub, praqmatik dəyişmələri nəzərə alır.

Əhalinin həyat səviyyəsini yüksəltmək, ölkənin və Naxçıvanın iqtisadi təhlükəsizliyini təmin etmək və dünya iqtisadi sistemində inteqrasiyaya daxil olmaq konseptual inkişafın əsas meyarlarıdır. Bu meyarların reallaşması yollarını resurs təminatının və onlardan istifadə mexanizmlərindən səmərəli istifadə etmək zəruriyyəti təşkil edir. İqtisadi inkişaf yolunun bazar iqtisadiyyatı, sahibkarlıq, sərbəst iqtisadiyyat, təşəbbüskarlıq olduğunu bütün beynəlxalq və daxili dövlət sənədlərində əsaslandırıb.

Bir iqtisadi sistemdən digər iqtisadi sistemə keçərkən formalaşmış strukturun dağıdılması yolunu tutmamış, onun yeni əsaslarla işlənməsi yollarını axtarmışdır. 1993-1997-ci illərdə Azərbaycanda və onun iqtisadiyyatında əsaslı keyfiyyət və kəmiyyət dəyişmələri baş vermişdir:

1. Qanunvericilikdə iqtisadi islahatları tənzim edən qanunlar tərtib edilib:

a) özəlləşdirmə proqramı;

b) torpaq islahatı;

c) vergi sisteminin yeni əsasları işlənib;

ç) maliyyə-kredit siyasətinin yeni bazar münasibətləri şəraitində əsas istiqamətləri müəyyən edilib.

Naxçıvan iqtisadiyyatının böhrandan çıxarılması yolunu aşağıdakı istiqamətlərdə həll etmək lazımdır:

1. Naxçıvan iqtisadiyyatının təşkili və idarə olunmasında onun potensialı və istiqamətlərinin düzgün müəyyən edilməsində iqtisadi idarəetmə strukturlarının işində;

2. Naxçıvan iqtisadi strukturlarında islahatların və bazar tipli iqtisadi mexanizmlərin yaradılması və istifadəsində;

3. Xarici-iqtisadi əlaqələrin və xarici investisiyaların Muxtar Respublikaya axınının təşkilində.

Naxçıvanın böhrandan çıxarılması tədbirlərinin əsas istiqamətləri siyasi sabitlik, sərhəd rayonlarında müharibənin dayandırılması, Naxçıvanın iqtisadi potensialından səmərəli istifadə yollarının tapılması, xarici ticarət, əməkdaşlıq və yardım əlaqələrinin gücləndirilməsi idi.

Heydər Əliyevin şəxsi nüfuzu onun qərar qəbulunda prinsipiallığı və praqmatik fikirləri qonşu dövlətlərin Naxçıvana təcavüzünün dayandırılması üçün əsas meyar oldu. İlkin günlərdə əhalinin ərzaq məhsulları ilə təminatı aparıcı iqtisadi tədbirlər olaraq həyata keçirildi. Naxçıvan əhalisinin ərzaq, enerji və istiliyə olan tələbatının ödənilməsi, Bakı və digər şəhərlərdə gediş-gəlişi intensivləşdirmək üçün Naxçıvan şəhər aeroportunun Sədərək-Türkiyə yolunun açılması iqtisadi proqram kimi qarşıya qoyuldu. Bunun da Naxçıvan Muxtar Respublikasından gətirilən mallar hesabına ödənilməsi əsas istiqamət olaraq müəyyən edilmişdi. Naxçıvan Muxtar Respublikasında iqtisadi potensialı olan su hövzələrində, Araz bəndində toplanan balıqdan istifadə yolları axtarıldı, Araz su anbarlarında balıq məhsullarından istifadənin iqtisadi proqramı, onun tutulması və satışı problemləri həll olundu.

Naxçıvan Muxtar Respublikasının iqtisadi potensialı onun intellektual səviyyəsinin blokada şəraitində istifadəsi üçün nəzəri-metodoloji əsas verdi. Naxçıvanda uzun müddət formalaşan təbii-coğrafi, kənd təsərrüfatı, sənaye və əhalinin məşğuliyyətinin təşkili üçün tədbirlər sistemi hazırlandı. Naxçıvanda 1990-cı illərdə əsas iqtisadi və sosial inkişaf göstəricisi istehsal olunmuş milli gəlir və onun istifadəsi təşkil edildi.

Milli gəlirin sahə quruluşu aşağıdakı göstəricilər ilə xarakterizə olunur.

Cədvəl 1.

**Naxçıvan Muxtar Respublikasında istehsal olunan milli gəlirin sahə quruluşu (%)**

| Sahələr | ÜDM | | Milli gəlir | |
|---|---|---|---|---|
| | 1988 | 1990 | 1998 | 1990 |
| Bütövlükdə iqtisadiyyat üzrə | 100 | 100 | 100 | 100 |
| O cümlədən, sənaye | 47,8 | 51 | 33 | 34,5 |
| Kənd təsərrüfatı | 22,0 | 23,3 | 31,3 | 42,6 |
| Tikinti | 18,2 | 14,0 | 16,9 | 5,9 |
| Nəqliyyat və rabitə | 11,8 | 11,7 | 18,8 | 1,7 |

Sənaye potensialı iqtisadi əlaqələrin kəsilməsi nəticəsində ciddi böhran keçirir. Yanacaq problemini həll etmək üçün qonşu İran və Türkiyə ilə müştərək müəssisələr investisiya qoyuluşu, humanitar kömək, mədəni əlaqələrin inkişafı üçün tədbirlər proqramı hazırlandı. 1992-ci ilin oktyabr ayında Araz çayı üzərində Türkiyə ilə Naxçıvan əlaqələrini intensivləşdirən müştərək «Ümid» körpüsünün açılması, onun əhalisinin Türkiyə ilə ticarət əlaqələrini gücləndirdi. Həmçinin başqa respublikalardan tranzit kimi yüklərin məhz Naxçıvan ərazisindən keçirilməsi əhalinin məşğuliyyətinə, Naxçıvanda gömrük işinin intensiv inkişafına təsir etmişdir.

Sərhədyanı ticarətin təşkili İran və Türkiyə sərhədlərində əmtəə mübadiləsinin həcmini artırmış, Naxçıvanda Azərbaycanın başqa rayonlarına, Bakı, Gəncə şəhərlərinə və Rusiya bazarlarına Naxçıvan vasitəsilə əmtəə axınının artmasına gəti-

rib çıxarmışdır. Naxçıvan əhalisinin ticarət, xırda biznes ilə məşğul olan hissəsi xeyli artmışdır. Bu da əhalinin tələbatının ödənilməsində güclü rol oynamışdı. Naxçıvanın sahəsindən və ərazi potensialından istifadə üçün özəlləşdirilmə islahatlarının həyata keçirilməsi əsas rol oynayır. Naxçıvanda özəlləşdirmənin daha radikal və tez bir zamanda yerinə yetirilməsi üçün torpaq islahatlarının əsasnaməsi H.Əliyevin təklifi və rəhbərliyi ilə işlənib hazırlanır. Torpaq islahatının əsas istiqamətləri aşağıdakılardır:

a) rentabelsiz kolxoz və sovxozların ləğvi və onların mülkiyyətinin əhali arasında bölgüsü;

b) kəndin sosial inkişafı üçün sosial infrastrukturun perspektiv inkişaf mexanizminin hazırlanması;

c) heyvandarlığın bütün ərazidə əhaliyə bölgüsü və heyvandarlıqda xüsusi mülkiyyət formasının bərqərar olması;

ç) xarici iqtisadi əlaqələrdə yerli resursların istifadəsi nəticəsində əldə olunmuş kənd təsərrüfatı məhsullarının ixracının liberallaşdırılması;

d) kənd təsərrüfatı resurslarından istifadə üçün kapital qoyuluşu və investisiya axınının stimullaşdırılması;

e) kənd təsərrüfatı məhsullarının emalı, müəssisələrin özəlləşdirilməsi.

Torpaq islahatı haqqında Əsasnamənin ideyası H.Əliyevin bazar iqtisadiyyatı, sərbəst iqtisadiyyat və Naxçıvan resurslarının istifadəsi mexanizmlərinin təşkili metodikasına uyğunlaşdırılmışdır. Kolxoz və sovxozların mülkiyyətində pay bölgüsü, vergi siyasəti, investisiya problemi, bazarlarda marketinq idarə olunması kimi əsas cəhətlər torpaq islahatında öz əksini tapmışdır. Naxçıvan MR-də torpaq islahatı və digər islahatlar, özəlləşdirmə təcrübəsi ərazi üzrə kiçik olan bir regionda respublika çərçivəsinə keçdi. Sonrakı illərdə respublikada keçmiş SSRİ məkanında ən radikal islahatlar məkanı olan Azərbaycan Respublikası səviyyəsinə yüksəldi.

Regional iqtisadi inkişaf konsepsiyasının əsasını tənzimlənən bazar iqtisadiyyatı təşkil edir. Tənzimlənən bazar iqtisadiyyatının Naxçıvanda reallaşması kredit və investisiya siya-

səti ilə həyata keçirilməli idi. Bu məqsədlərə görə lazım olan resursları tapmaq üçün Türkiyə Cümhuriyyətindən 200 min ABŞ dolları məbləğində kredit alındı. Həmin kreditin 100 min dolları 1992-ci ildə iqtisadi cəhətdən vəziyyəti ağır olan Naxçıvan əhalisini təmin etmək üçün İran və Türkiyədən ərzaq almaq üçün istifadə olundu. Naxçıvanda özünəməxsus tənzimləmə mexanizmi işlədildi. O vaxt Respublikada inflyasiyanın səviyyəsi gündə 2-3% olduğu üçün Naxçıvan Muxtar Respublikasında əhalinin ən vacib ehtiyatlarını ödəmək üçün çörək və çörək məmulatlarının qiyməti sabit saxlanıldı. Hər gündəlik çörək tələbatı ali operativ iqtisadi idarəetmə metodu ilə reallaşdı. İran İslam Respublikası ilə müqavilələr bağlanılıb əhalinin gediş-gəlişini asanlaşdıran və bəzi ərzaq məhsullarının gətirilməsinə qoyulan məhdudiyyətlərin aradan götürülməsi yolları hazırlandı. Respublikanın enerji tələbatını ödəmək üçün Araz körpüsündə beynəlxalq su elektrik stansiyasının İran İslam Respublikasına mənsub olan trebunun istehsal etdiyi enerjisinin bir hissəsinin Naxçıvana verilməsi haqqında sazişlər bağlandı.

Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı resurslarının səmərəli istifadəsi və hazır məhsulun reallaşması üçün Türkiyə Cümhuriyyəti ilə bağlanan müqavilələr mühüm əhəmiyyət kəsb edirdi. Belə sahələrdən biri 3-4 il bündan əvvəl yığılıb qalmış tütün məhsulu, şərab məmulatı emalının və artımının təşkili idi. Bazar münasibətləri şəraitində ayrı-ayrı respublikadaxili iqtisadi regionların iqtisadi və sosial inkişafı üçün yeni ərazi-təşkilati komplekslərin yaradılması effektli iqtisadi strukturdur. Sərbəst iqtisadi zonaların təşkili regionun məhsuldar qüvvələrinin istifadəsi üçün kapital axınına səbəb olur. Yerli resursların və fondların yeniləşməsi üçün şərait yaradır. Bu problemlərin elmi və təşkilati prinsiplərinin konkret iqtisadi idarəetmədə tətbiqi regionun inkişafı üçün əhəmiyyətlidir və bazar iqtisadiyyatı şəraitində Naxçıvan Muxtar Respublikasının resurslarının istifadəsi istiqamətlərini əsaslandırır. Naxçıvan MR-ın inkişaf istiqamətlərinin yeni idarəetmə

strukturlarının və bazar tipli iqtisadi mexanizmlərin yaradılmasını özündə əks etdirir.

Yeni iqtisadi münasibətlərdə azad iqtisadi zonaların yaradılmasının nəzəri-metodoloji məsələləri Azərbaycan Respublikasında xarici-iqtisadi əlaqələrin mövcud vəziyyəti, onun perspektivi və effektliliyi təhlil edilmişdir. Azad iqtisadi zonaların mahiyyəti, vəzifələri və yaradılmasının nəzəri-metodoloji prinsipləri reallaşmışdır. Azad iqtisadi zonaların dünya təcrübəsi ümumiləşdirilir. Azərbaycan şəraitində və Naxçıvan timsalında bu zonaların formalaşması xüsusiyyətləri Naxçıvan iqtisadiyyatında öz reallığını tapmışdır.

Azad iqtisadi zonaların yaradılmasının iqtisadi-təşkilati problemləri, azad iqtisadi zonaların təsərrüfat mexanizmi, azad iqtisadi zonaların səmərəli göstəriciləri və onların yüksəldilməsinin mənbə və mexanizmləri region iqtisadi idarəetmə modelidir. Azad iqtisadi zonaların təminatının iqtisadi problemləri və konseptual inkişaf istiqamətləri Ali Məclisin sessiyalarında çıxarılan məsələlərə, Naxçıvan MR-də azad iqtisadi zonaların təşkilinin region xüsusiyyətləri və reallaşma mexanizmləri Naxçıvan MR-in iqtisadi, sosial, təbii resurslarının bazar münasibətləri şəraitində istifadə yollarına uyğunlaşdırılır.

Azad iqtisadi zonalar şəraitində iqtisadi və sosial inkişaf problemlərinə aid nəzəri və praktiki tövsiyələr respublikada, digər zonalarda tətbiq olunur. Dünya təcrübəsində yaradılan azad iqtisadi zonaların təhlili təcrübəsi və onların Azərbaycan timsalında tətbiqinin modifikasiyası, iqtisadi idarəetmə və sosial inkişafının əsas göstəricilərinin proqnozu və qiymətləndirilməsi üçün metodiki təminat ola bilər.

Naxçıvan Muxtar Respublikasının hər bir strateji məhsuluna və resursuna aid xüsusi tədbirlər hazırlanmışdır. O cümlədən, Naxçıvan torpaqları üçün əlverişli olan şəkər çuğundurunun artırılmasının məqsədli proqramından istifadə olunur. Respublikada istehsal olunan şəkər çuğundurunun Türkiyə ilə ekvivalent olaraq şəkərə dəyişilməsinin iqtisadi əsaslı müqavilə şərtləri, o cümlədən Naxçıvan MR-da

istehsal olunan meyvə-tərəvəz, gön-dəri, mineral sular bazarlarının Türkiyə və Türkiyə emal müəssisələrində istehlak proqramları, Türkiyə Cümhuriyyəti ilə Naxçıvan MR-in mineral suları, şəkər, üzüm və digər məhsulların emalı üçün müştərək müəssisələrin tikilməsi, perspektivləri işlənib hazırlanmışdır.

Naxçıvan MR-in iqtisadi və sosial inkişafının H.Əliyev mərhələsinin əsas amili sosial təminat və mənəvi-psixoloji faktorlarında şəxsiyyətin rolunun olmasıdır. İstehlak strukturunda ciddi disproporsiyalar meydana gəlmişdir. Benzin qıtlığı, yanacağın olmaması və elektrik enerjisinin tələbatın ancaq 20-30%-nə uyğun olması qənaət rejiminin və psixoloji amilin daha üstün artmasını tələb edirdi. Bu şəraitdə azad bazar iqtisadiyyatı ünsürləri geniş inkişaf etdirilirdi. Ayrı-ayrı sənaye müəssisələrinin texniki imkanları yerli əhalinin tələbatını ödəmək üçün İran ərazisindən keçərək respublikaya mal gətirilirdi. Respublika Culfa, Şərur və Nehrəm gömrük məntəqələrinin işi, yerli əhalinin güzəranının yaxşılaşdırılması və minimum istehlak büdcəsinin təminatı üçün keçid, ödəmə haqqı və keçid şərtləri hazırlanmışdır. İran İslam Respublikasında öz tələbatını ödəmək üçün mal gətirmək niyyəti ilə getmək istəyən şəxslərin bütün sosial qrupları üçün bərabər şərtlər yaradılmışdır. Sosial gərginlik həmişə ədalət prinsipləri ilə həll olunurdu.

İqtisadi və sosial inkişafın idarə edilməsi təcrübəsi Naxçıvan MR-də ərazicə kiçik olan respublikadaxili diyarda yeni şəraitə uyğun olaraq daha da zənginləşmiş, sonra bu təcrübə Azərbaycan Respublikasının miqaysında beynəlxalq idarəetmə təcrübəsinə çevrilmişdir. Bu, demokratik prinsiplər zəminində iqtisadi islahatlar proqramını və yeni təsərrüfat formalarını əsaslandırır. Naxçıvan Ali Məclisinin 1992-ci il mart iclasında torpaq islahatlarının perspektiv istiqamətlərini təsərrüfat rəhbərləri, özəl sektorun nümayəndələri bəyənmişdir.

H.Əliyev hələ Sovet dövründə SSRİ Nazirlər Sovetinin birinci müavini işlədikdə SSRİ məkanı üçün bir çox perspektiv kompleks proqramların rəhbəri olmuşdur. Məqsədli pro-

qramı metodunu dərin bilən, onun yaranması və reallaşmasının idarəetmə sxeminə başçılıq edən H.Əliyev Naxçıvanda yeni şəraitə uyğun metodologiya yaratmışdır. Onun dedikləri:

*«Mən SSRİ Nazirlər Sovetinin sədr müavini vəzifəsinə təyin olunan kimi Y.V.Andropov mənə dedi ki, H.Əliyeviç, «Xalq istehlakı malları və xidmət istehlakının kompleks proqramı» beşillikdən beşilliyə keçirilir. Mən xahiş edirəm ki, Siz bu proqrama rəhbərlik edib onu həyata keçirəsiz. Mən bu işi həyata keçirmək üçün SSRİ-nin ən güclü iqtisadçı alimlərini, akademik S.S.Şatalini, Petrakovu və dövlət iqtisadi idarəetmə orqanlarını, elmi-tədqiqat, Akademiya institutlarını səfərbər edib bu proqramın 1986-2005-ci ilə qədər əsas istiqamətlərini hazırladım».* (Kursiv, Əlirzayev Ə.Q.).

Bəli, H.Əliyevin rəhbərliyi ilə hazırlanan bu proqram – Müəssisələr haqqında qanun «Nəqliyyatın kompleks inkişafı» proqramı bugünkü islahatların yeni məzmunda hazırlanmasında və reallaşmasında metodik baza oldu.

2001-2003-cü illərdə muxtar respublikaya ümumi və fərdi tələbata uyğun məhsullar idxal edilmişdir. Muxtar Respublikanın ixracat üçün əlverişli kənd təsərrüfatı məhsulları və emal sənayesi məhsulları istehsal etmək ənənəsi və imkanları potensial olaraq formalaşıb. Belə ki, Muxtar Respublikadan şəkər çuğunduru, xam spirt, konyak spirti ixracat etmək imkanları mövcuddur. 2001-ci ilin statistikasına görə Naxçıvan Muxtar Respublikasından 40975 ton mal ixrac, 50229 ton mal idxal olunmuşdur. Aparılan ixrac və idxal əməliyyatları üzrə muxtar respublikanın gömrükxanalarında 8,9 mlrd. manat gömrük rüsumları toplanmışdır ki, bu da 2000-ci ilə nisbətən 1,2 mlrd. manat və ya 15,1% çox olmuşdur.

İxracat strukturunda daha çox yerli istehsal məhsullarının artması, regionda özəl sektorun inkişafı hesabına baş verir. Artıq yükdaşıma və xidmət sferası bütövlükdə özəl vəsaitlərin istifadəsi yolu ilə həll olunur. Regionda daşınan yükün hamısı özəl şirkətlərin xidməti, yükvurma və yük boşaltma əməliyyatları, yüklərin saxlanılması və onların qablaşdırılması kimi əməliyyatlar fərdi sahibkarlar, yaxud muzdlu işə cəlb

olunan əhalinin hesabına baş verir. Bu da Sədərək və Culfa gömrükxanalarında xidmət sferasının və əhalinin rifahı üçün yeni məşğuliyyət növünün artması ilə tənzimlənir. Naxçıvan Muxtar Respublikasının Türkiyə ilə iqtisadi əlaqələrinin regionun iqtisadi və sosial inkişafında xüsusi rolu olduğu kimi, tranzit yüklərin daşınmasında regiona gəlir gətirmək mənbəyi olaraq, daha da təkmilləşdirilməsi imkanları perspektivdə daha inkişaf etməlidir. Naxçıvan hava limanının ötürmə gücünün artması, onun xidmət həcminin və hava yolları marşrutunun genişlənməsi ilə əlaqədar olaraq, təbii ki, Naxçıvanın yeni bir gəlir mənbəyini hava yolu ilə yükdaşımalar və sərnişin daşımaları təşkil edəcək. O cümlədən, Yaxın Şərqə, Türkiyəyə, Avropaya və Ərəb ölkələrinə Orta Asiya, Qafqaz və Rusiyadan yükdaşıma və sərnişin daşınmaları üçün tranzit imkanları artacaq. Naxçıvandan İstambula və Türkiyənin digər vilayətlərinə sərnişin gediş-gəlişi Bakıdan ucuz başa gəlir. Bu da Naxçıvanın bütövlükdə beynəlxalq əlaqələrinin, onun gəlir gətirmək istiqamətlərində istifadəsinə imkan verəcək.

Naxçıvan əhalisinin gəlirləri, həmçinin onun hüdudlarından kənarda qazanılan pul gəlirləri, sahibkarlıq fəaliyyəti ilə də səciyyələnib, onun ərazisində istehlak üçün xərclənən pul kütləsi ilə də seçilir. Əgər Naxçıvanın ərazi torlu maliyyə balansının dəqiq hesabını apara biləriksə, onun hipotez şəklində, demək olar ki, Naxçıvanda istehlak üçün olan dövrdə pulun kütləsi onun ərazisində istehlak olunan ümumi daxili məhsuldan dəfələrlə çoxdur. Bu hal məhz Naxçıvanın sosial iqtisadi inkişafı üçün müsbət situasiya kimi qəbul olunmalıdır.

Naxçıvan Muxtar Respublikasının tədiyə balansı, həmin respublikada toplanan pul kütləsi ilə müəyyən olunur. Naxçıvan Muxtar Respublikasında əsas pul kütləsi, həmin əhalinin pul gəlirləri və dövlətin Naxçıvanda dövriyyəyə buraxdığı pulun miqdarı ilə ölçülür. Bununla yanaşı Naxçıvanda ərazi üzrə maliyyə toplu balansı həmin respublikaya gətirilən valyuta ilə də müəyyən olunur. Naxçıvan əhalisi regionda istifadə olunan pulu, ancaq onun ərazisində qazanmırlar. Təq-

ribi hesablamalara görə Naxçıvan əhalisi öz gəlirlərinin 60%-ni başqa regionlarda, yaxud regionlardan kənarda yaşayan qohum və övladlarının qazandığı pulun hesabına özünün tələbatlarını ödəyirlər. Belə ki, Naxçıvan əhalisinin bir hissəsi qazanc üçün, müvəqqəti iş yerləri ilə təmin olunmaq üçün Türkiyə, Bakı, digər regionlarda və Moskvada qazanqıqları pulun forması milli vahidlə və ABŞ dolları ilə baş verir. Əhalinin gəlirlərinin ərazi üzrə yenidən bölgüsü hesabına gəlir və istehlak balansı uyğun gəlmir.

Cədvəl 2

**Naxçıvan əhalisinin pul gəlirləri və xərcləri (mln.manat)**

| Göstəricilər | 1995 | 1997 | 1999 | 2000 | 2002 | 2003 |
|---|---|---|---|---|---|---|
| Əhalinin pul gəlirləri | 58413.2 | 135075.0 | 179568.6 | 187580.0 | 697938.5 | 855093.0 |
| Əhalinin pul xərcləri | 49502.8 | 70987.5 | 78302.7 | 815559.2 | 539462.0 | 616337.9 |
| Fərq | 8910.7 | 64087.5 | 101265.9 | 72020.8 | 158476.5 | 238755.1 |

Cədvəldən göründüyü kimi gəlirlərin əhali xərclərindən yuxarı olması xarakterik olaraq pulun miqrasiyasını göstərir. Əhalinin əmanət və ev şəraitində saxladığı pulu ekspert, yaxud sorğu yolu ilə qiymətləndirməklə pul kütləsinin miqrasiyasının həcmini qiymətləndirmək mümkün olar. Təbii ki, bu tədqiqat metodikası bazar iqtisadiyyatı şəraitində tez-tez dəyişən amillərlə bağlı olub, ancaq müşahidə və ev təsərrüfatları büdcəsinin tədqiqi ilə mümkündür.

Ev təsərrüfatında hər bir ailənin gəlir və xərcləri balansı tərtib edilir və onun istehlakının məkanı və həcmi müəyyənləşdirilir. Bu da öz növbəsində ərazi toplu balanslarında idxal və ixracı düzgün nəzərə almaqla yerli balansların tutulması və proqnozu üçün informasiya bazası yaradır.

Naxçıvanda iqtisadiyyatın perspektivliyi onun təbii resurslarının tam gücü ilə iqtisadi dövriyyəyə cəlb edilməsi ilə mümkündür. Naxçıvanda Vayxır su anbarının tikilib istifadəyə verilməsi Babək, Gəncərik və Culfa rayonunun bir hissəsini suvarma suyu ilə təmin edəcək. Naxçıvana İran qazının gətirilməsi üçün ölkə prezidenti İlham Əliyevin səyləri, onun

sosial həyatında yeni keyfiyyət dəyişmələri yaradacaq. Naxçıvanda əhalinin iş, əmək və yaşayış şəraiti yaxşılaşacaq və məskunlaşma tamamilə həll olunacaq.

Naxçıvanda Elmlər Akademiyasının açılması, onun potensialının tədqiqi və qiymətləndirilməsi yeni perspektiv sahələrin inkişafını əsaslandırmaq üçün elmi baza yaradacaq.

Naxçıvanda sosial inkişaf problemləri 1991-2004-cü illərdə daha geniş artımla inkişaf edir. Məktəb, xəstəxana, nəqliyyat yolları, kiçik biznes fəaliyyəti daha üstün sürətlə artır.

Naxçıvanın təhlükəsizliyini təmin etmək, onun beynəlxalq əlaqələrini gücləndirmək və əhalinin gediş-gəlişini tənzimləmək üçün yeni aeroportun mühüm əhəmiyyəti vardır. Bu imkanlar dövlətin Naxçıvana olan himayəçilik siyasətini daha da təkmilləşdirməyi tələb edir.

# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ TƏBİİ SƏRVƏTLƏRİ MƏHSULDAR QÜVVƏLƏRİN İNKİŞAFININ ƏSASIDIR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının «Naxçıvan MR-nın 80 illiyinin keçirilməsi haqqında» 9 fevral 2004-cü il tarixli fərmanı bütün Azərbaycan xalqı tərəfindən rəğbətlə qarşılanmışdır.

Azərbaycanın hər bir bölgəsinin ümumxalq ənənəvi mədəniyyətinin və iqtisadiyyatının formalaşmasında öz yeri və payı olmuşdur. Ölkənin ayrı-ayrı bölgələri öz lokal xüsusiyyətlərinə görə fərqlənsə də, Ümumazərbaycan mədəniyyəti və iqtisadiyyatı ilə sıx vəhdətdə olub, bir-birini tamamlayır. Bu cəhətdən qədim Naxçıvan diyarı da istisna deyil. Tarixi, arxeoloji və etnoqrafik abidələr azərbaycanlıların burada min illərlə bundan əvvəl məskunlaşmasına tutarlı sübutdur. Qeyd etmək lazımdır ki, keçmişdə Naxçıvanın coğrafi hüdudları indikindən çox geniş idi. Vaxtilə Dərələyəz, Mehri və Qafan mahalları da bu ölkənin tərkibində idi. Sonralar istər çar Rusiyası və istərsə də Sovet hakimiyyəti illərində bu torpaqlar Ermənistana qatıldı və bölgənin ərazisi 5,5 min kv km-ə endirildi.

Mərhum Prezidentimiz H.Əliyev cənabları hələ konstitusiya komissiyasının iclasında demişdir: «Naxçıvan ətrafı əraziləri də Azərbaycan torpaqlarıdır, baxmayaraq ki, orada ermənilər yaşayıb. Belə ki, onlar başqa torpaqları, məsələn, indiki Ermənistan Respublikasını Türkiyə və Azərbaycana məxsus torpaqları tutduqdan sonra Naxçıvanı da ələ keçirməyə cəhd göstərdilər. Naxçıvanı Azərbaycandan ayıran Zəngəzur vilayəti vaxtilə Ermənistana verilməsəydi Naxçıvana muxtariyyət gərək deyildi». Verilən sanballı cavab müasir dövrdə Naxçıvana iddia ilə çıxış edənlərə xəbərdarlıq idi.

1828-ci ildə ermənilərin İrandan Naxçıvana köçürülməsi burada etnik durumu xeyli gərginləşdirdi. Həmin il Rusiyanın

səyləri nəticəsində Təbriz, Xoy, Səlmas və Urmiya mahallarından Naxçıvana xeyli (8 min nəfər) erməni köçürüldü. Onlar yerli əhalinin yaşadığı münbit torpaqlarda məskunlaşdılar. Əhali sıxlığı nəticəsində azərbaycanlıların bir hissəsi öz doğma yurdunu tərk etməyə məcbur oldu. XIX əsr müəllifləri (B.Qriqoryev, A.Dekonski və b.) burada yaşayan erməniləri hiyləgər, həris, möhtəkir, qapalı adamlar kimi səciyyələndirmişlər. Rusiya imperiyasının Dövlət Əmlak Nazirliyinin Qafqaz bölgəsi üzrə məmuru S.Zelinskinin fikrincə, Səlmasdan gələn və Naxçıvanda məskunlaşan ermənilər adam aldatmaq, saxta pul kəsmək, möhtəkirlik və xüsusilə qızıl alveri, xaç oğurlamaqla məşğul idilər. Məqsədlərini həyata keçirmək üçün onlar özlərini şəraitdən asılı olaraq pravoslav, yaxud müsəlman kimi qələmə verirdilər.

Tarix boyu Naxçıvan işğalçıların hücumlarına məruz qalmış, onun şəhər və kəndləri viran edilmişdir. Dinc əhali isə hər müharibənin vurduğu zərbələri aradan qaldırmaq üçün böyük səylə bərpa və quruculuq işləri ilə məşğul olmuşdur. Naxçıvanın bugünkü blokada vəziyyətinə düşməsinin köklərini də tarixi keçmişdə axtarmaq lazımdır.

Hazırda Naxçıvan MR ağır blokada şəraitindədir. Lakin buna baxmayaraq Naxçıvan MR yaşayır, inkişaf edir və öz iqtisadi potensialını artırmaqdadır.

Azərbaycan Respublikasının cənub-qərbində, Zəngəzur dağları ilə Araz çayı arasında yerləşən Naxçıvan MR əlverişli coğrafi mövqeyə, zəngin təbii ehtiyatlarına malik olmaqla ölkəmizin ictimai əmək bölgüsündə fəal iştirak edir.

Azərbaycan Respublikasının ərazisinin 6,2%-inə, əhalisinin 4,7%-nə malik olan Naxçıvan MR Azərbaycan Respublikasının sənaye məhsulunun 2,8%-ə qədərini istehsal edir.

Naxçıvan MR-ı Azərbaycandan eni 40 km olan Ermənistan ərazisi ayırır. MR şimalda və şərqdə Ermənistan Respublikası, cənubda Türkiyə (11km) və İran İslam Respublikası ilə (163 km) həmsərhəddir.

Naxçıvan MR-də məhsuldar qüvvələrin inkişafı və yerləşdirilməsinin təkmilləşdirilməsinə yönəldilmiş kompleks təd-

birlərin həyata keçirilməsi sosial-iqtisadi inkişafı sürətləndirməyin və istehsalın səmərəliliyini yüksəltməyin mühüm amilidir. Bu problemin həll olunmasında yerli təbii xammal ehtiyatlarının hərtərəfli istifadə olunmasının müstəsna əhəmiyyəti vardır.

MR-nın təbii şəraiti və təbii ehtiyatlarının rəngarəng olması təsərrüfatın inkişafı üçün əlverişli imkanlar yaradır. Kənd təsərrüfatının, mədən sənayesinin inkişafı və yerləşdirilməsinə, nəqliyyatın inkişafına güclü təsir göstərir. Onun müasir ərazi-istehsal kompleksi, yerli təbii şərait və təbii ehtiyatları sıx əlaqədar surətdə formalaşmış və inkişaf etmişdir. Belə ki, təbii şərait və təbii ehtiyatlar iqtisadiyyatın bünövrəsini təşkil edir. Buna görə də müasir cəmiyyətdə maddi-texniki bazanın yaradılması vəzifəsinin müvəffəqiyyətlə həlli bilavasitə, ölkəmizdə və onun ayrı-ayrı regionlarında təbii şəraitin və təbii ehtiyatların dərindən öyrənilməsi, elmi əsaslarla onlardan səmərəli istifadə olunması və mühafizə edilməsi ilə bağlıdır.

Son onilliklərdə MR-nın ərazisinin hərtərəfli elmi tədqiqi və yeni təbii ehtiyatların aşkara çıxarılması sayəsində böyük işlər görülmüşdür. Muxtar Respublikada məhsuldar qüvvələrin inkişafı, səmərəli yerləşdirilməsi və ixtisaslaşdırılmasında buradakı nisbətən geniş düzənlik, dağətəyi və yastan sahələr, zəngin metal və qeyri-metal faydalı qazıntıları, mineral su ehtiyatı, ərazinin əksər sahəsində iqlimin əlverişli olması, Araz çayı sistemi və şirin sulu gölləri, müxtəlif torpaq, bitki örtüyü və heyvanat aləmi mühüm rol oynayır.

Naxçıvan dağlıq diyardır. Onun ərazisinin 50%-i dəniz səviyyəsindən 1000-2000 m, 20%-i 2000-3000 m, 30%-i 800-1000 metr hündürlükdə yerləşir. Muxtar Respublikanın əsas sənaye mərkəzləri, intensiv əkinçilik rayonları, nəqliyyat magistralları, əhalinin sıx məskunlaşması məhz bu qurşaqda yerləşib. Ümumi torpaq sahəsinin təxminən 35 faizi dağlıq və dağətəyi zonadadır. Muxtar Respublikanın iqlimi kəskin kontinentallığı ilə fərqlənir. Mütləq minimum temperatur $-31^0$, mütləq maksimum temperatur $+44^0$C-yə çatır. İllik yağıntılar

Arazboyu düzənlikdə 200-300 mm, dağlıq sahələrdə 500-800 mm-ə bərabərdir.

Muxtar Respublikanın ərazisində boz, boz-çəmən, açıq-şabalıdı, dağ-çəmən-meşə, dağ-qəhvəyi torpaqlar yayılmışdır.

Torpaq-iqlim xüsusiyyətləri Muxtar Respublikanın bitki aləminə də təsir göstərmişdir. Rütubət çatışmadığına görə, hətta dağ yamaclarında tikanlı kolluqlar yayılmışdır. Dərələyəz və Zəngəzur silsilələrinin su ayrıcında qismən alp və subalp çəmənlikləri vardır. Bitki örtüyündə dərman və efir yağlı bitki növləri üstünlük təşkil edir. Çay hövzələrində meşə sahələri vardır.

Muxtar Respublikanın çayları Araz çayı hövzəsinə məxsusdur. Ordubadçay, Gilançay, Naxçıvançay, Əlincəçay, Arpaçay Araza tökülür. Muxtar Respublikanın çaylarının illik su sərfi 100 mln $m^3$-dən çoxdur. Çaylarda illik su axımı bərabər olmadığına və suvarma əkinçiliyi üstün yer tutduğuna görə çaylar üzərində su anbarlarının yaradılmasının böyük əhəmiyyəti vardır. Araz çayı və Arpaçay su anbarları torpaqların suvarılmasında əsas yer tutur. Araz çayı böyük su enerji ehtiyatına malikdir. Muxtar Respublikanın su ehtiyatlarının artırılmasında şirin sulu göllərin, xüsusilə Qanlıgöl, Batabat gölünün su anbarlarının əhəmiyyəti böyükdür.

Naxçıvan Muxtar Respublikasının ərazisi müxtəlif faydalı qazıntı sərvətləri ilə zəngindir və bu sərvətlər Muxtar Respublikanın iqtisadiyyatının inkişaf etdirilməsində mühüm yer tutur. Buradakı polimetal, sink, qurğuşun, mis, sürmə, gümüş, kobalt, volfram, manqan, kükürd, molibden, daş duz, xörək duzu, dolomit, mərmər, travertin, civə, tikinti daşı, sement xammalı, 200-dən artıq müxtəlif müalicə əhəmiyyətli mineral sular və s. mühüm xammal mənbəyidir. Mundidərədə qızıl yatağı müəyyən edilmişdir.

Azərbaycan Respublikasında olan molibden və dolomit ehtiyatının 80 faizi, mineral su ehtiyatının beşdə üçü, duz ehtiyatının xeyli hissəsi, üzlük daş ehtiyatının isə yarısı Naxçıvan Muxtar Respublikasının payına düşür.

Bu yerlərin əvəzolunmaz nemətlərinin ən dəyərlilərindən biri də mineral sulardır. Yer kürəsində yayılmış bütün mineral suların analoqlarının əksəriyyəti Naxçıvanda var. Bu sularda karbon qazlı, dəmirli, mərgümüşlü, kükürdlü və s. mineral suları göstərmək olar.

Muxtar Respublikada mineral bulaqların su ehtiyatlarından səmərəli istifadə edilməsində çox işlər görülmüşdür. Badamlı, Sirab və Vayxır zavodlarının istehsal gücü artırılmış, Qızılvəng, Cəhri, Suramlı, mineral bulaqların suyundan istifadə edilməsi nəzərdə tutulmuşdur.

Qeyd etmək lazımdır ki, hələ 1934-cü ildə SSRİ Xalq Səhiyyə Komissarlığı Vayxır bulağında Ümumittifaq əhəmiyyətli kurort kompleksi tikmək üçün layihə hazırlamışdır. Şahbuz rayonu ərazisində Batabat gölü ətrafında iri balneloji istirahət evi tikilməkdədir.

Əsası 1947-ci ildə qoyulmuş Badamlı mineral sudoldurma zavodu tam mexanikləşdirilmişdir və burada 1987-ci ildə 110 mln şüşədən artıq su istehsal olunmuşdur.

Badamlı-Vayxır-Naxçıvan mineral su kəmərinin çəkilməsi Naxçıvan Muxtar Respublikasının mineral su istehsalını xeyli artırmışdır. 1987-ci ildə Sirab zavodunda 56,5 milyondan, Vayxır mineral suyundan isə 31,5 milyon şüşədən çox su istehsal olunmuşdur.

Darıdağ termal suyundan karbon qazının alınması və təmizlənməsi texnologiyası hazırlanmış və butulkalara doldurulan mineral sulara karbon qazının vurulması yerli xammal hesabına təmin edilmişdir.

Naxçıvan şəhərindən 17 km. məsafədə müqəddəs Əshabi-Kəhf dağının ətəklərində mənzərəli bir yerdə Əshabi-Kəhf mineral suları yerləşir. Bu sular isti radonlu, karbon qazlı, hidrokarbonatlı, xlorlu, sulfatlı, natriumlu və kalsiumludur. Bu isə Rusiya Federasiyasında yerləşən məşhur Pyatiqorsk radonlu suyundan keyfiyyətlidir.

Təbii ehtiyatlar arasında duz ehtiyatı 1 mlrd. ton hesablanır. Naxçıvan şəhəri yaxınlığında Duzlaq adlanan yerdə, dəniz səviyyəsindən 850-1000 m yüksəklikdə yerləşən bu mədə-

nin istifadəyə verilməsi duz ehtiyatlarını xeyli artırmışdır. Naxçıvan duzu təkcə ərzaq məhsulu olmaqla qalmır, ondan mühüm xammal kimi sənayenin müxtəlif sahələrində də (yeyinti, kimya) geniş istifadə olunur. Nehrəm kəndi yaxınlığında yerləşən xörək duzu yataqları soda istehsalı üçün çox qiymətli xammaldır.

Təbii və mineral xammal ehtiyatları Naxçıvan MR-də sənaye sahələrinin inkişafı üçün geniş imkanlar açır.

Naxçıvan MR bir sıra respublikadaxili iqtisadi rayonlardan sənayesinin nisbətən çoxsahəli strukturu ilə fərqlənir. Bu, ilk növbədə, MR-in Azərbaycan Respublikasından ərazicə ayrı düşməsi və bununla əlaqədar olaraq, yerli tələbatı burada müvafiq istehsal sahələri yaratmaq hesabına təmin etmək zərurəti ilə izah edilir.

Hazırda Naxçıvan MR-in ərazisində yüzdən artıq müxtəlif sənaye müəssisələri vardır. Bunlardan Parağaçay molibden, gümüşlü sink saflaşdırma fabrikləri, elektrotexnika zavodu, Şahbuz avtomobil təmiri zavodu, alüminium qab-qacaq, şüşə qablar, dəmir-beton məmulatı, tütün fermentasiya zavodları, Sədərək şərab, Ordubad konserv, ilkin üzüm emalı zavodları, un kombinatı, mineral su zavodları, Araz çayı üzərində Naxçıvan hidrotexniki kompleksini və s. qeyd etmək olar. MR-ın blokada şəraitində olmasına baxmayaraq burada 2002-ci ildə 58 mlrd. manat dəyərində sənaye məhsulları, 104,1 mlrd. manat həcmində kənd təsərrüfatı məhsulları istehsal edilmişdir. 1998-ci ildə 73,2 mln. kvt.-saat elektrik enerjisi, 2 mln 878 min butulka mineral sular, 5 mln 497 min dkl tünd içkilər istehsal edilmişdir. Bütün maliyyə mənbələri hesabına əsaslı vəsait qoyuluşu xeyli artmışdır.

MR-nın iqlim-torpaq şəraiti burada kənd təsərrüfatının inkişaf etdirilməsinə imkan verir. Kənd təsərrüfatının inkişafı istifadəsiz qalan yararlı torpaqların mənimsənilməsi, mövcud su ehtiyatlarından səmərəli istifadə edilməsi, suvarmanın təkmilləşdirilməsindən asılıdır. Araz çayı üzərində hidrotexniki kompleksinin, Arpaçay, Sirab su anbarlarının, Sədərək, Naxçıvan, Əlincəçay suvarma sisteminin, bundan əlavə, Fərhad,

Artaşen, Nehrəm su anbarının tikilməsi və geniş miqyaslı meliorasiya irriqasiya işlərinin görülməsi sayəsində kənd təsərrüfatının suvarma imkanları və təchizatı yaxşılaşdırılmışdır. 2003-cü ildə Müxtar Respublikada əsas təsərrüfat növləri üzrə 74 min ton taxıl, 50 min ton tərəvəz, 25 min ton meyvə, 24,5 min ton üzüm, 39,3 min ton şəkər çuğunduru istehsal edilmişdir. Qeyd etmək lazımdır ki, Muxtar Respublikada aqrar islahat başa çatmaq üzrədir. Torpaq islahatı demək olar ki, başa çatdırılmışdır. Fermer-kəndli təsərrüfatının inkişafına ciddi fikir verilir. Qısa müddət ərzində dünya standartlarına cavab verən müasir Beynəlxalq hava limanı, Olimpiya idman kompleksi və s. tikilib istifadəyə verilmişdir.

Heç şübhə yoxdur ki, yaxın gələcəkdə blokada ləvğ olunacaq və Naxçıvan Muxtar Respublikasının təbii sərvətlərindən daha geniş istifadə olunması Muxtar Respublikada məhsuldar qüvvələrin sürətli inkişafına və səmərəli ərazi təşkilinə imkan yaradacaqdır.

Belə ki, polimetal, molibden, qurğuşun, sink, dolomit, mərmər, üzlük daş, duz, mineral su ehtiyatlarının cəmi beş faizə qədərindən istifadə edilir. Bu bir daha göstərir ki, Muxtar Respublikanın iqtisadiyyatını yerli mineral xammal hesabına inkişaf etdirmək üçün çox böyük imkanlar vardır.

Muxtar Respublikanın məhsuldar qüvvələrinin gələcəkdə sürətlə inkişaf etdirilməsi, onun ərazisində yerləşən yeraltı və yerüstü təbii sərvətlərindən səmərəli və kompleks istifadə edilməsindən asılı olacaqdır.

Möhtərəm Prezident İlham Əliyevin Azərbaycan Respublikasının iqtisadi-sosial inkişafı haqqında imzaladığı fərman Naxçıvanda uğurla həyata keçirilməkdədir.

i.e.d., prof. H.B. Allahverdiyev

# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ SOSİAL-İQTİSADİ İNKİŞAFI: REALLIQ VƏ PERSPEKTİVLƏR

Qədim və zəngin tarixə, mədəniyyətə malik olan Naxçıvan diyarı qədim türk-oğuz yurdu olmaqla, bəşər sivilizasiyasının beşiklərindən olub, Şərqin iqtisadi əlaqələr elm və mədəniyyət mərkəzlərindən biridir. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvanın əhalisi son dərəcə ağır və çətin təbii-iqlim şəraitində yaşayıb-yaratmışdır. Tarixi mənbələrdən açıq-aşkar məlumdur ki, Naxçıvan 3500-4000 il bundan əvvəl şəhərtipli yaşayış məntəqəsi olmuşdur.

Naxçıvan xanlığının ərazisi indikindən daha böyük olmuşdur. Bu xanlıq Dərələyəz və Zəngəzur ərazisinin çox hissəsini əhatə edirdi. Daha doğrusu, xanlığın tərkibinə aşağıdakı 7 mahal daxil idi: Xok, Ordubad və 2 şəhər- Naxçıvan və Ordubad. Naxçıvan rus imperiyasının tərkibinə daxil edildikdən sonra şahlıq üsuli- idarəsi ləğv edildi.

2004-cü il may ayının 14-də dünya standartlarına uyğun olan yeni hava limanı açılmışdır. Bu nəhəng hava limanı Muxtar Respublikanın iqtisadi inkişafında əhalinin gediş-gəlişində xüsusi rol oynayacaqdır. Bununla bərabər Naxçıvanda yeni Komputoq tomoqrafiyası kabinate yaradılmışdır ki, bu da Naxçıvan əhalisinin müayinədən keçmələri üçün geniş imkanlar açır. Son illərdə möhtərəm H.Əliyevin bilavasitə əməyi və göstərişləri nəticəsində Naxçıvan Dövlət Universitetində dünya standartlarına cavab verən yeni kitabxana, Naxçıvanda yeni mədəniyyət və səhiyyə ocaqları, insanlara xidmət müəssisələri yaradılmışdır. Bütün bunlara baxmayaraq hər şeydən əvvəl, Naxçıvan əhalisi son dərəcə çətin və ağır təbii iqlim şəraitində yaşayıb-yaratmağı bacarmışdır. Belə ki, qış ayları Sibiri, yaz – yay ayları isə keçmiş Mil-Muğan düzlərini xatırladan Naxçıvan diyarı cəhənnəmdən cənnətədək böyük tarixi yol keçmişdir. Lakin tarixi inkişafın bütün

mərhələlərində, xüsusilə 1917-ci ildən başlamış bu günədək Naxçıvan özünün mürəkkəb, ziddiyyətli və son dərəcə acınacaqlı anlarından tam xilas olmaq üçün daha böyük səylə çalışmalıdır. Açığını söyləmiş olsaq hələ keçmiş Sovetlərin dövründən başlamış 1969-cu ilədək Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına, daha doğrusu, ərazinin geopolitik əhəmiyyətini nəzərə almaq şərti ilə diqqət yetirilməmişdir. Belə ki, 3500 ilədək tarixə malik olan Naxçıvan diyarı imkansızlıq ucbatından son dərəcə zəif inkişafa malik olmuşdur. Ümumiyyətlə, 1970-ci ilədək respublika rəhbərliyi, onun hökuməti Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına biganə qalmışlar. Bununla bağlı bir sıra makroiqtisadi göstəricilərə diqqət yetirmək yerinə düşərdi. Araşdırmalar göstərir ki, 1924-cü ildə burada 90 min əhali yaşamışdır ki, onun da 79 min nəfəri və yaxud ümumi əhalinin 88%-i kənd yerlərində yaşamışdır. Həmin illərdə Naxçıvanda bir kilovatt belə elektrik enerjisi istehsal edilməmişdir. Xalq təsərrüfatının inkişafına qoyulan kapital qoyuluşları vur-tut 0,0001 milyon manat təşkil etmişdir. Bu mühüm makroiqtisadi göstərici 1940-cı ildə 0,4 milyon manat və 1965-ci ildə isə ancaq 10 milyon manat təşkil etmişdir. Bununla belə, 1924-cü ildə Naxçıvanda 18,5 min ton duz, 2 ton ipək xammalı, 27,3 min ton taxıl istehsal edilmişdir. Araşdırmalar göstərir ki, 1970-ci ilədək olan dövrlərdə Naxçıvan Muxtar Respublikasında sənaye və kənd təsərrüfatı istehsalı aşağı səviyyədə olmaqla bərabər, demək olar ki, əsaslı tikinti aparılmamışdır. Belə ki, əgər 1955-ci ildə cəmi 64,1 min kv. metr, 1965 - ci ildə isə 69,1 min kv.metr mənzil sahəsi və 536 şagird yeri tiklib istifadəyə verilmişdirsə, 1981-ci ildə 74,8 min kv. metr mənzil sahəsi, 2136 nəfər şagird yeri istifadəyə verilmişdir. Hər nəfərə görə mal dövriyyəsi 1970-ci ilə nisbətən 1980-ci ildə 151% artmışdır. Ümumtəhsil məktəblərində təhsil alanların sayı 1970-ci ilə nisbətən 1982-ci ildə 7000 nəfər çoxalmışdır. Araşdırmalar əyani surətdə göstərir ki, H.Əliyev cənablarının 1969-cu ildən respublikaya rəhbər təyin edildiyi vaxtdan başlayaraq Naxçıvan Muxtar Respublikasına kapital

qoyuluşları get-gedə artırılmışdır. Əgər bütövlükdə 1965-ci ildə xalq təsərrüfatı sahələrinin inkişafına ancaq 10 milyon manat kapital qoyuluşu sərf edilmişdirsə, bu mühüm göstərici 1970-ci ildə 47 milyon manat, 1981-ci ildə isə 64 milyon manat təşkil etmiş və yaxud 17 milyon manat çox olmuşdur. H.Əliyev cənablarının Azərbaycan KP MK-nın birinci katibi təyin edilməsi ilə əlaqədar olaraq Azərbaycanın, o cümlədən də onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi, ictimai-siyasi həyatında həqiqətən yeni bir tarixi inkişaf mərhələsi başlandı.

Belə ki, qısa bir müddətdə Azərbaycan Respublikası nəhəng tikinti meydanına çevrildi. Bakıda, Naxçıvanda, Sumqayıtda, respublikanın rayon, şəhər və kəndlərində geniş quruculuq işləri, daha doğrusu, mədəniyyət evləri, məktəblər, inzibati binalar-yaşayış evləri tikildi, geniş suvarma kanalları çəkildi, Naxçıvanda su anbarları yaradıldı və s. Beləliklə, faktiki olaraq Naxçıvan Muxtar Respublikasında əsaslı quruculuq işləri, sənayenin, kənd təsərrüfatının inkişafı faktiki olaraq 1970-ci illərdən başlayaraq həyata keçirilmişdir. Belə ki, Azərbaycan KP MK-nın 1969-cu il avqust plenumundan sonra respublika partiya təşkilatlarının həyata keçirdiyi düzgün xətt, Naxçıvan Muxtar Respublikasında da rəğbətlə qarşılanmaqla kadrlara qarşı tələbkarlığın gücləndirilməsində və onların məsuliyyətinin daha da artırılmasında, kütlələrin siyasi və əmək fəallığının yüksəldilməsində mühüm rol oynadı. Hazırda Naxçıvan diyarı inkişaf etməkdə olan sənaye və çoxsahəli kənd təsərrüfatı respublikasıdır. Sənayenin inkişafında yerli kənd təsərrüfatı məhsulunun emalı və faydalı qazıntı hasilatı xüsusi yer tutur. Elektrotexnika, metal emalı, yüngül, tikinti materialları sənayesi də inkişaf etmişdir. Təhlil göstərir ki, ümumi sənaye məhsulunun həcmi 1924-cü ilə nisbətən 1971-ci ildə 150 dəfə, 1940-cı ilə nisbətən 1977-ci ildə 14 dəfə artmışdır. Araz çayı üstündə su elektrik stansiyası tikilmişdir. Odur ki, 1970-ci ildə elektrik enerjisi istehsalı 0,5 mln. kvt-saatdan, 1982-ci ildə 20,9 mln. kvt\saat təşkil etmişdir. Xam ipək istehsalı 1970-ci ildəki 40 tondan 1982-ci ildə 108,5 tona,

üzüm şərabı 75 min tondan 521 min tona, konservlər istehsalı 10 mln.şərti bankadan 31,2 mln.şərti bankkaya, duz hasilatı 62,1 min tondan 104 min tona, mineral su 37 mln. şüşədən 104,3 mln.şüşəyə çatmışdır. Respublikada yeyinti sənayesinin digər sahələrindən ət kombinatı, süd, pivə, çörək zavodları, qənnadı sexləri, pendir zavodları istifadəyə verilmişdir. Ordubadda ipək kombinatı, Naxçıvanda tikiş və alt trikotaj paltar fabrikləri tikilib istismara verilmişdir. Sənaye ilə yanaşı Naxçıvan diyarında kənd təsərrüfatı da hərtərəfli inkişaf etdirilmişdir. Bu həyati sahənin inkişafında suvarma xüsusi rol oynayır. Suvarılan torpaq sahəsi 1982-ci ildə 51,4 min hektara çatdırılmışdır. Naxçıvan diyarında 207 kənd və 139 kolxoz və sovxoz fəaliyyət göstərdiyi halda, hazırda burada aqrar islahat başa çatmaq üzrədir. Torpaq islahatı demək olar ki, başa çatdırılmışdır. İndi hər bir şəxs torpağın və digər əmlakın əsl sahibləridir. Burada ən başlıca vəzifə odur ki, hər bir sahibkarın istehsal infrastrukturu ilə, xüsusilə fermer-kəndli təsərrüfatlarını başlıca olaraq mini traktor və digər kənd təsərrüfatı texnikası ilə təmin edilməsinə ciddi fikir verilməlidir. Bütün bunlarla yanaşı unudulmamalıdır ki, 1990-cı ilin iyun ayında H.Əliyev cənablarının öz doğma diyarına üz tutması Naxçıvan Muxtar Respublikasında yaşayan 350 min nəfər əhalini ağır blokada şəraitindən böyük əmək sərf etməklə, xilas etməyə nail olmuşdur. H.Əliyevin Azərbaycana qayıdışı onu hər cür qarşıdurmalardan, qardaş qırğınından və habelə xanlıqlara parçalanmaqdan birdəfəlik xilas etdi. Açığını demiş olsaq 1990-1993-cü illərdə möhtərəm H.Əliyev Naxçıvanı son dərəcə böyük fəlakətlərdən xilas etməyə nail oldu. Qədirbilən xalqın təkidi ilə H.Əliyev 1991-ci ilin sentyabrında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasına Ali Məclisin sədri seçildi. Tezliklə o, Naxçıvan diyarında sosial-iqtisadi inkişafın mövcud vəziyyətini hərtərəfli təhlil edərək, ağır iqtisadi şəraitdən çıxmaq üçün yollar axtarmağa başladı. Lakin neçə il əvvəl başlamış sosial-iqtisadi böhran nəticəsində əhalinin tələbatının ödənilməsində yerli istehsalın rolu kəskin surətdə aşağı düşmüşdür. Naxçıvan hər nəfər hesabına düşən mal dövriyyə-

sinə görə orta respublika göstəricisinin ancaq 75%-ni təşkil edir. Odur ki, ilk günlərdən başlayaraq əhalini ərzaq məhsulları ilə təmin etməkdən ötrü H.Əliyev operativ tədbirlər gördü. Sədərək-Türkiyə yolunun açılması nəticəsində çoxlu ərzaq gətirildi. Araz çayı üzərində su-elektrik stansiyasının İran İslam Respublikasına aid olan bir hissəsinin Naxçıvana verilməsi haqda saziş bağlanıldı. Bakı ilə Naxçıvan arasında gediş-gəliş üçün Araz boyu İran ərazisindən keçən yolun açılışı qısa müddətdə başa çatdırıldı. Beləliklə, böyük dahi insan Naxçıvan Muxtar Respublikasını Rusiyanın əlaltısı olan Ermənistanın ədalətsiz təcavüzündən qoruyub saxlamağa nail ola bildi. Bütün bunlarla yanaşı H.Əliyev cənabları 1990-1993-cü illərdə tariximiz üçün son dərəcə böyük siyasi-iqtisadi əhəmiyyət kəsb edən problemləri tezliklə həll etməyə nail oldu. Belə ki, Muxtar Respublikada Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli dövlət bayrağının qəbul edilməsi müstəqilliyimizin ən əsas rəmzlərindən biri oldu. Azərbaycanımızın ayrılmaz tərkib hissəsi olan Naxçıvanın muxtariyyəti problemi də möhtərəm H.Əliyev cənabları tərəfindən həyata keçirilmişdir. Belə ki, Azərbaycanın tərkibində Naxçıvanın muxtariyyət statusu Moskva və Qars müqavilələri ilə təsdiq olunmuşdur. Həmin müqavilənin 3-cü maddəsində qeyd edilir ki, Naxçıvan Azərbaycanın dövlət suverenliyi altına verilir və Azərbaycan dövləti onu heç bir üçüncü dövlətə vermədək barəsində öhdəçilik götürür. Həmçinin də Moskva müqaviləsinin 5-ci maddəsində göstərilir ki, bu ərazi Azərbaycanın tərkibində olacaq və üçüncü dövlətə verilməyəcək. Onu da qeyd etmək lazımdır ki, hələ Naxçıvan MR Ali Məclisinin sədri işlədiyi dövrdə H.Əliyev 1992-ci ilin mart ayında Türkiyəyə səfəri zamanı məlum Qars müqaviləsinə yenidən baxılmışdır. Hələ 1921-ci ildə RSFSR ilə bağlanmış və heç kim tərəfindən rəsmi ləğv edilməmiş Qars və Moskva müqavilələrinə əsasən «Türkiyə Naxçıvanın ərazi bütövlüyünün təminatçısıdır» reallığı bir daha təsdiq edildi. Bütövlükdə Azərbaycan Respublikasının, o cümlədən onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan MR-nın sosial-iqtisadi və siyasi həyatında əvəzsiz rol oynamış H.Əliyev cə-

nabları Naxçıvan Muxtar Respublikasının tarixində 1998-ci ilin yanvarın 14-də Konstitusiya komissiyasının iclasındakı yekun nitqində demişdir: «Mən hesab edirəm ki, Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir, biz bunu qoruyub saxlamalıyıq. Naxçıvanın muxtariyyəti Naxçıvanın əlindən getmiş başqa torpaqlarının qaytarılması üçün ona xidmət edən böyük bir amildir. Biz bu amili qoruyub saxlamalıyıq».

Beləliklə, H.Əliyev cənablarının Naxçıvan Muxtar Respublikasına göstərdiyi qayğıkeşliyin nəticəsində Naxçıvan Muxtar Respublikası xalq təsərrüfatı sahələrinin inkişafında qazandıqları nailiyyətlərə görə 1972-ci ildə Xalqlar Dostluğu, 1974-cü ildə Oktyabr İnqilabı ordenləri ilə təltif olunmuşdur. 1970-1981-ci illərdə Muxtar Respublikada 9 dəfə Ümumittifaq sosializm yarışında qalib çıxmış, Sov.İKP MK, SSRİ Nazirlər Soveti, ÜİHİMŞ və ÜİLKGİ MK-nın keçici Qırmızı Bayrağına layiq görülmüşdür. Möhtərəm sabiq Prezidentimizin müdrik və uğurlu sosial-iqtisadi siyasəti nəticəsində Naxçıvan diyarı indi müasir elm – mədəniyyət mərkəzlərindən birinə çevrilmişdir. Belə ki, məşhur akademik Y.Məmmədəliyev adına Naxçıvan Dövlət Universiteti, onun nəzdində konservatoriyanın yaradılması, Politexnikum, tibb, orta 7 illik musiqi məktəbləri, Cəmşid Naxçıvanski adına hərbi liseyin Naxçıvan filialı, Azərbaycan Respublikasının Elm-Texnika Komitəsinin filialı və s. yaradılmışdır. Bütün bunlar, bir daha, əməksevər, dəyanətli Naxçıvan xalqının üzərinə daha böyük və məsul vəzifələr qoyur. Şübhə yoxdur ki, müdrik, dahi rəhbərimiz möhtərəm Heydər Əliyev cənablarının Naxçıvan Muxtar Respublikasının 75 illik yubileyinin keçirilməsinə dair imzaladığı tarixi fərman xalqımızın taleyində son dərəcə böyük siyasi və hətta beynəlxalq əhəmiyyətə malikdir.

Respublika Milli Akademiyasının Naxçıvan filialının yaradılması Milli liderimiz H.Əliyev tərəfindən əsası qoyulmuş geniş quruculuq işləri, onun varisi İlham Əliyev tərəfindən uğurla davam etdirilməkdədir. Belə ki, araşdırmalar göstərir ki, Naxçıvan Muxtar Respublikasında mövcud su ehti-

yatlarından, kənd təsərrüfatında suvarmanı daha da genişləndirmək məqsədi ilə zəngin yeraltı sulardan istifadəni daha da dərinləşdirmək lazımdır. Son illərdə Naxçıvanda bir sıra mühüm su anbarları tikilib istifadəyə verilsə də respublikanın suya olan tələbatı tam ödənilmir. Naxçıvanın, Şərur rayonunun dağları altında gur çaylar axmaqda davam edir. Məqsəd bu çaylardan nə cür istifadə etməkdir. Naxçıvanda inşa edilmiş su anbarının tutumu aşağıdakıları təşkil edir: Kür-Araz - 1254, Arpaçay- 150, Vayxır- 100, Bənəniyar- 15, Uzunoba -9, Soxrab- 9. Nehran- 6, Xok-1-3, milyon kubmetr.

Naxçıvan Muxtar Respulikası güclü iqtisadi potensiala malikdir. Bu ehtiyatları ümumi şəkildə aşağıdakı qruplara ayırmaq olar: mineral xammal ehtiyatları, duz mineral və termal sular, torpaq və meşə ehtiyatları. Naxçıvan MR - nın təbii sərvətlərini təmayülünə və təsərrüfat əhəmiyyətinə görə isə belə qruplaşdırmaq olar: kimya sənayesində istifadə edilən xammallar, əlvan metallurgiya xammalı, tikinti materialları xammalı, müalicəvi əhəmiyyətli və balneoloji- mineral bulaqlar. Lakin təhlil göstərir ki, hazırda bu potenisaldan tam və səmərəli istifadə olunmur:

Hazırda Naxçıvan MR-də mövcud olan istehsal-texniki potensialdan da lazımi səviyyədə istifadə olunmur. Belə ki, MR-da istehsal müəssisələrinin əksəriyyəti xammal və köməkçi materialların əldə edilməsi və gətirilməsində, habelə hazır məhsulun göndərilməsində yaranmış çətinliklər, bəzi hallarda isə elektrik enerjisinin çatışmazlığı səbəbindən fəaliyyətlərini dayandırmış və yaxud fasilələrlə fəaliyyət göstərmək məcburiyyətində qalmışlar;

-Naxçıvan MR-nın ümumi məhsul istehsalında kənd təsərrüfatı aparıcı xüsusi çəkiyə malikdir və həm də son dövrlərdə bu sahədə məhsul istehsalının həcmində davamlı artım müşahidə olunur. Lakin buna baxmayaraq, sənaye istehsalı əhəmiyyətli kənd təsərrüfatı məhsulları olan üzüm və tütünün istehsal həcmləri isə kəskin şəkildə azalmaya məruz qalmışdır;

-Müasir dövrdə Naxçıvan MR-in ümumi istehsalında sənayenin xüsusi çəkisi kəskin şəkildə aşağı düşmüşdür ki, bu

da son nəticədə Muxtar Respublikada ümumi məhsul istehsalının azalmasını və sosial-iqtisadi vəziyyətin kəskinləşməsini şərtləndirmişdir. Təhlil göstərir ki, Muxtar Respublikada son illərdə bəzi sənaye sahələrində məhsul istehsalının həcm potensialı imkanlardan qat-qat aşağı səviyyəyə düşmüş, hətta bir çox müəssisələrdə isə istehsal tamamilə dayanmışdır;

-Naxçıvan MR-də son dövrlərdə nəzərəçarpacaq davamlı irəliləyiş müşahidə olunan sahələrə rabitə və tikinti sahələrini də aid etmək olar. Belə ki, aparılan təhlil göstərdi ki, son illərdə Muxtar Respublikada rabitə sisteminin modernləşdirilməsi sahəsində xarici şirkətlərlə birgə böyük layihələr həyata keçirilmişdir. 1996-cı ildən başlayaraq Naxçıvan MR-də geniş şəkildə tikinti-quraşdırma işlərinin də aparılmasına başlanılmışdır;

Naxçıvan Muxtar Respublikası iqtisadiyyatına xarici mənbələr hesabına investisiya qoyuluşu 1997-ci ildən başlasa da, 2002-cu ildə cəmi investisiya qoyuluşlarının yarıdan çoxunu təşkil etmişdir;

Ölkədə aparılan iqtisadi islahatlara uyğun olaraq Naxçıvan MR-da da islahatlar aparılmış və bunun da nəticəsi olaraq ümumi məhsul istehsalında özəl bölmənin xüsusi çəkisi xeyli yüksəlmişdir.

Aparılan ümumiləşdirmədən görünür ki, müasir dövrdə Naxçıvan MR-in sosial-iqtisadi inkişafında bəzi müsbət irəliləyişlər olsa da, bu sahədə bir çox problemlər və mənfi meyllər də mövcuddur. Tədqiqat göstərir ki, bu sahədə yaranmış problemlərin və xoşagəlməz meyllərin səbəbləri əsasən aşağıdakılardan ibarətdir:

-Muxtar Respublikanın ölkə ilə birbaşa kommunikasiya əlaqələri olmadığından məlum hadisələrlə əlaqədar olaraq blokada vəziyyətində qalması nəticəsində bu amillərin təsiri burada daha kəskin şəkil almışdır. Blokada Naxçıvan MR-nın təbii-iqtisadi potensialının tam reallaşmasına imkan vermir. Bir çox problemlər, o cümlədən əmək ehtiyatlarının, məşğulluğun və iqtisadi inkişafın kompleksliyinin təmin olunması problemləri daha kəskin forma almışdır;

-istehsalın texniki və texnoloji səviyyəsinin xeyli aşağı səviyyədə olması ilə əlaqədar olaraq istehsal olunan məhsulların nəinki dünya və ölkə bazarında, hətta yerli bazarda rəqabətə davamlı olmaması;

- istehsal, sosial və bazar infrastruktur sahələrinin zəif inkişafı və müasir tələblər səviyyəsindən geridə qalması və s.

- Odur ki, müasir dövrdə Naxçıvan MR-in sosial-iqtisadi inkişafının sürətləndirilməsi xarici-iqtisadi əlaqələrin yaratdığı imkanlardan maksimum dərəcədə yararlanmaqla yerli iqtisadi potensialdan mümkün qədər tam səmərəli istifadə olunmasını tələb edir.

Azərbaycanın digər regionlarından fərqli olaraq Naxçıvan MR nisbətən müstəqil bir inzibati ərazi bölgəsi kimi xarici iqtisadi fəaliyyət sahəsində müəyyən təcrübəyə malikdir

Son dövrlərdə Naxçıvan MR-də xarici iqtisadi əlaqələrin inkişafı sahəsində bir sıra müsbət dəyişikliklər baş verməsinə baxmayaraq hələ də bu sahədə mövcud imkanlardan Muxtar Respublikanın malik olduğu üstünlüklərə və potensiala müvafiq şəkildə tam və səmərəli istifadə olunmur.

Naxçıvan MR-in xarici iqtisadi əlaqələrində əsas yeri xarici ticarət əlaqələri tutur. Xarici iqtisadi əlaqələrin digər formalarından zəif istifadə olunur. Xarici ticarət dövriyyəsində isə idxalın payı çox yüksəkdir ki, bu da xarici ticarət saldosunun mənfi olmasını şərtləndirir.

Yerli xüsusiyyətlərə və bazar münasibətlərinə əsaslanan iqtisadi təsərrüfatçılıq mexanizmi şəraitində Naxçıvan Muxtar Respublikası bir region kimi özünün inkişafını aşağıdakı kimi istiqamətləndirməlidir.

Belə ki, təbii-iqtisadi, texniki-islahat və demoqrafik potensialının tam və səmərəli reallaşmasının təmin edilməsi və inkişafı üçün zəruri hüquqi, iqtisadi və təşkilati-idarəetmə tədbirləri görülməlidir.

Naxçıvan MR-in coğrafi mövqeyi onun anklav tipli azad iqtisadi zonaya çevrilməsini əsl zərurətə çevirir. Fikrimizcə, müasir dövrdə Naxçıvan MR-in sosial-iqtisadi inkişaf proqramını aşağıdakı problemlər əhatə etməlidir:

- mövcud iqtisadi kompleksin iş qabiliyyətinin qorunması və himayə olunması ilə bağlı problemlər;

- davam edən nəqliyyat blokadası ilə bağlı fövqəladə şəraitdə iqtisadiyyatın fəaliyyətinin təmin olunması problemləri;

- bazar münasibətlərinə keçidlə, o cümlədən mülkiyyət münasibətlərinin dəyişilməsi ilə bağlı problemlər;

- xarici-iqtisadi əlaqələrin güclənməsinə dair iqtisadi problemlər.

Bu baxımdan, iqtisadiyyatda struktur dəyişikliklərinin sürətlənməsi sosial- iqtisadi gərginliyin aradan qaldırılmasına xidmət etməlidir.

Yuxarıda qeyd etdiyimiz kimi, Naxçıvan regionu üçün ən mühüm məsələlərdən biri ixrac potensialını artırmaqla dünya bazarında rəqabətə davamlı son istehsalını daha da artırmaqdan ibarətdir;

- regionun nəqliyyat və rabitə - kommunikasiya sistemlərinin, həmçinin digər istehsal infrastruktur sahələrinin inkişaf etdirilməsi;

- xidmət sahələrinin və bazar infrastrukturunun inkişaf etdirilməsi;

- regionun investisiya qoyuluşunun əsaslı surətdə artırılması, o cümlədən xarici investisiyanın stimullaşdırılmasını tənzimləmək;

- regionda birgə sahibkarlığın fəaliyyətinin, təsərrüfat kooperasiyasının inkişafının stimullaşdırılması;

- regionda xarici iqtisadi əlaqələrin mütərəqqi formalarının tətbiqinin genişləndirilməsi;

- iqtisadi rezidentlərin dünya bazarına çıxışının tam liberallaşdırılması;

- əsas məhsullar üzrə daxili və beynəlxalq bazarlarda qiymətlərin uyğunluğünun təmin olunması;

- Muxtar Respublikada iqtisadi fəaliyyətin tənzimlənməsinin hüquqi-normativ bazasının beynəlxalq hüquq normalarına və dünya praktikasına uyğunlaşdırılması və onun tamamlanması;

- xarici iqtisadi fəaliyyəti idarəetmə sisteminin dünya təcrübəsi əsasında təkmilləşdirilməsi;

- ixracın inkişafına dövlət yardımı proqramının hazırlanıb qəbul edilməsi;

- ixracın kreditlənməsi və sığortalanması sisteminin yaradılması;

- idxalın tarif tənzimlənməsi sisteminin və vergiyə cəlbetmə sisteminin regionun mövcud potenisalı və tələbatı nəzərə alınmaqla təkmilləşdirilməsi.

Bir sıra ölkələrin təcrübəsini nəzərə alaraq xarici iqtisadi əlaqələrin yaratdığı imkanlardan və daxili iqtisadi potensialdan tam və səmərəli istifadə olunması baxımından Naxçıvan MR-də anklav tipli kompleks azad iqtisadi zona yaradılmasını da məqsədəuyğun hesab etmək olar. Belə ki, AİZ yaradılması xarici kapitalla birgə sahibkarlıq fəaliyyətini gücləndirməklə regiona qabaqcıl texnika və texnologiyanın cəlb edilməsi və mütərəqqi idarəçilik təcrübəsinin gətirilməsinə əlverişli şərait yaradar.Bu isə müasir dövrdə Naxçıvan MR-də sosial-iqtisadi inkişafın təmin olunması üçün çox mühüm əhəmiyyət kəsb edir.

Fikrimizcə, yuxarıda sadalananlar Naxçıvan MR-də sosial-iqtisadi inkişafın sürətləndirilməsində ən mühüm rol oynaya bilər.

A. Seyidov
tarix elmləri doktoru

# NAXÇIVAN ARXEOLOJİ ABİDƏLƏRİNİN ÖYRƏNİLMƏSİ XXI ƏSRDƏ

Naxçıvan Azərbaycanın ən qədim mədəniyyət mərkəzlərindən biridir. Bu diyarın tarixinin, mədəniyyətinin öyrənilməsinə həmişə ehtiyac olmuş, bundan sonra da olacaqdır. Ümummilli liderimiz Heydər Əliyevin 1999-cu il fevralın 4-də «Naxçıvan Muxtar Respublikasının 75 illiyinin keçirilməsi haqqında» fərmanından sonra, əvvəlki illərdən fərqli olaraq, Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşları tərəfindən 2001-2003-cü illərdə bu ərazidə geniş arxeoloji tədqiqat və qazıntı işləri aparıldı. Bu işlərə dair çoxsaylı kitab və monoqrafiyalar, elmi əsərlər yazıldı, beynəlxalq və respublika səviyyəli konfranslarda məruzələr edildi. Ordubad (Gəmiqaya), Culfa (Nəhəcir), Şərur, Babək, Sədərək rayonları ərazisində aparılmış tədqiqat işləri xüsusi maraq doğurdu.

Muxtar Respublikanın 80 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 9 fevral 2004-cü il tarixli sərəncamında göstərildiyi kimi: «...blokada şəraitində yaşamaq məcburiyyətində qalan, tez-tez bədnam qonşuların ərazi iddiaları obyektinə çevrilən Naxçıvanın tarixinin hələ də tədqiq edilməyə ehtiyacı olan səhifələri açılmalı, Azərbaycanın qədim və zəngin tarixə, mədəniyyətə və çoxəsrlik dövlətçilik ənənələrinə malik bu diyarın tam dolğun, obyektiv tarixi xalqımıza, habelə dünya ictimaiyyətinə olduğu kimi çatdırılmalı, erməni siyasətçilərinin tarixi saxtalaşdırmaq cəhdlərinə tutarlı cavab verilməlidir...».

Babək və Culfa rayonları ərazisində apardığımız tədqiqat işləri zamanı çoxminillik tariximizin öyrənilməsi sahəsində mühüm işlər görülmüş və ümidvarıq ki, həmin işlər davam etdiriləcəkdir. Tərəfimizdən Culfa rayonunun Nəhəcir kəndi yaxınlığında yerləşən arxeoloji abidələrin kompleks şəkildə öyrənilməsinin davam etdirilməsi ilə yanaşı [1], Nəhəcir-Göynük istiqamətində aparılan arxeoloji kəşfiyyat işləri nəticəsində Göynük

kəndi yaxınlığında qiymətli arxeoloji abidələrin, o cümlədən erkən tunc dövrünə aid Xornu yaşayış yeri və nekropolunun olduğu müəyyən edildi [2].

Göynük kəndi Culfa rayonu ərazisində, dəniz səviyyəsindən 1500 metr hündürlükdə yerləşir. Kənddə 52 təsərrüfat mövcuddur. Əhalinin əsas məşğuliyyəti arıçılıq və maldarlıqdır. Kəndin ərazisində boyalı qabların (orta və son tunc dövrü) olması haqqında da məlumat var.

Arxeoloji abidələr başlıca olaraq Göynük kəndi ətrafında və yaxınlıqdan keçən Xornu çayı vadisində yerləşir. Xornu çayı vadisində ən qiymətli abidə Xornu yaşayış yeridir. Yaşayış yeri çay vadisindən solda, dağın yamacında yerləşir. Erkən tunc dövrünə aid qəbirlər abidənin şərqində, dağın yamacındadır. Keramika məmulatından ibarət olan qəbir avadanlığı küpə, kasa, qədəh tipli qab parçalarından ibarətdir.

Bu tip arxeoloji material Kür-Araz mədəniyyətinin son mərhələsi üçün xarakterikdir [3, s.143]. Belə keramika məmulatı I Kültəpə və II Kültəpə yaşayış yerlərinin erkən tunc dövrü təbəqəsindən [4; 5], Dağlıq Qarabağın həmdövr abidələrindən məlumdur [6, s.16-27]. Bu tapıntılar erkən tunc dövrünün son mərhələsində əhalinin köçmə yaylaq maldarlığı ilə məşğul olduğunu göstərir.

Xornu vadisində Antik dövrə aid yaşayış yerləri və daş qutu qəbirlərdən ibarət üç nekropol vardır. Nekropollar dərin dərə ilə bir-birindən ayrılır.

I Xornu nekropolundakı daş qutu tipli qəbirlər düzbucaqlı, kvadrat, bəzən isə oval formalıdır. Yanları yastı sal daşlarla qurulmuş, üzəri isə eyni formalı daşlarla örtülmüş qəbirlər müxtəlif istiqamətlərə yönəlmiş vəziyyətdədir. Əhalinin məlumatına görə, burada küp qəbirlər də olmuşdur.

I Xornu nekropolunda tədqiq etdiyimiz qəbirin uzunluğu 1,40 m, eni baş tərəfdə 67 sm, ortada 80 sm idi. Qəbir təmizlənərkən çəhrayı və boz rəngli gil qab parçalarına rast gəlindi. Aşkar olunmuş keramika məmulatı küpə tipli qab qırıqlarından ibarətdir. Onların gilinə narın qum qatılaraq yaxşı bişirilmişdir.

II Xornu nekropolu birincidən cənubda yerləşir. Qəbirlər dağın yamacında yerləşdiyindən, torpağın aşınması nəticəsində

üzə çıxaraq dağıntıya məruz qalmışdır. Onların bir neçəsinin qəbir kamerası dağıdılmışdır. Salamat qalan qəbir kameraları düzbucaqlı, kvadrat, bəzən isə küncləri dəyirmi düzbucaqlı formada idi. Qəbirlərin qurulmasında və istiqamətində standartlıq yoxdur. Dəfn adətini müəyyən etmək məqsədilə apardığımız qazıntı işləri zamanı pis vəziyyətdə qalmış skelet qalıqlarına rast gəldik. Sel sularının məzarın içərisinə dolması nəticəsində kəllənin ilkin vəziyyəti dəyişmiş, kəllə qalıqları və çənə sümükləri qəbirin müxtəlif hissələrinə səpələnmişdi. Dəfn olunan adam sağ böyrü üstə, başı şimala olmuşdu. Qəbirin şimal hissəsindən dəmir ox ucluğu; bıçaq tiyəsinin qırıqları, silindrik formalı şüşə muncuq, obsidian alət aşkar olundu. Qəbirdə kiçik həcmli keramika parçalarına rast gəlinsə də, bütöv qablar yox idi. Dəmir ox ucluğu üç pərlidir. Onun qısa, kəsikdə dairəvi olan saplağı uca doğru ensizləşir. Uzunluğu 6,1 sm-dir.

III Xornu nekropolu çayın sağ sahilində, birinci və ikinci nekropollardan təqribən 150 m aralıda yerləşir. Buradakı daş qutu tipli qəbirlər dağıdılmış, qəbir daşları ətrafa səpələnmişdi. Xornu çayının yuxarısında, «Gərməşovluq» adlanan ərazidə də daş qutu tipli qəbirlərə rast gəlinir.

Xornu nekropollarından aşkar olunmuş tapıntılar Antik dövrün son mərhələsi üçün xarakterikdir. Onların tarixləndirilməsi üçün üç pərli ox ucluğunun böyük əhəmiyyəti vardır. Bu tip ox ucluqlarından eramızın əvvəllərində yerli tayfalar istifadə etmişlər [7, s.32-65]. Belə ox ucluqlarına Azərbaycanın digər bölgələrində də rast gəlinir.

Nekropolların tarixləndirilməsi üçün digər əhəmiyyətli tapıntı şüşə qabların parçalarıdır. Onlar yalnız forma verməyən parçalarla təmsil olunur. Tapıntılara əsasən, nekropolları eramızın I-II əsrlərinə aid edirik.

Göynük kəndi ərazisində orta əsrlərə aid yaşayış yerlərinin olmasını da müəyyən etdik. Onlardan biri kəndin şimal-qərbində, Xornu çayının sağ sahilində yerləşir. Bura yerli əhali arasında «Kənd yeri» adı ilə tanınır. Əhalinin məlumatına görə, vaxtilə burada şəhər olmuşdur. Altı hektara yaxın sahəsi olan yaşayış yerində uçub-tökülmüş daş tikinti qalıqları var idi. Yerüstü materiallar şirli və şirsiz saxsı məmulatından ibarətdir. Yaşayış

yerinin əksər hissəsi dağıntıya məruz qalsa da, müəyyən hissəsində həyat davam etmişdir. Son orta əsrlərə aid bina qalıqları hal-hazırda qalır. Dördkünc və dairəvi formalı bina qalıqları etnoqrafik cəhətdən olduqca maraqlıdır. Küncləri dəyirmi dördkünc formalı evlərin bəzisinin mərkəzi hissəsində daşdan qurulmuş ocaqlara, bəzilərində isə kiçik həcmli təndirlərə rast gəlinir.

Orta əsrlərə aid ikinci yaşayış yeri Göynük kəndinin tikintiləri altındadır. Kəndin şimalında xalq arasında «Gilənarlıq» adlanan ərazidə orta əsrlərə aid şirli və şirsiz saxsı məmulatına, habelə mis sikkəyə rast gəldik. Tapıntılar XI-XIII əsrlərə aid edilə bilər.

Ekspedisiyanın Göynük kəndi yaxınlığında apardığı araşdırmalar zamanı ərazidə mövcud olan yer adları (toponimlər) qeydə alındı. Onlar aşağıdakılardan ibarətdir: «Yurd yeri», «Xaraba Kültəpə», «Qancıqölən», «Allı təpə», «Xırmanlar», «Xırmantəpə», «Tuluqyonbalan», «Quş qayası», «Cığalıq», «Sarı dağ», «Səkkizlər yurdu», «Yeddi təndir», «Xaraba kənd yeri», «Gərməşovluq», «Qaragüney» və s.

Hələlik əldə etdiyimiz arxeoloji materialların və tədqiq etdiyimiz abidələrin ən qədiminin yaşı 4-5 min ildir. Culfa rayonunun ərazisi arxeoloji abidələrlə çox zəngindir. Bu ərazidə arxeoloji tədqiqatları davam etdirmək isə olduqca vacibdir. Güman edirik ki, builki və sonrakı illərdə aparılacaq tədqiqat işlərinin böyük elmi əhəmiyyəti olacaqdır.

i.e.n., dos.Hacı Paşa Murad Kəngərli
b.m. F.B.Həsənova

# NAXÇIVAN MR-DƏ KƏND TƏSƏRRÜFATININ MİKROZONALAR ÜZRƏ İNKİŞAF PERSPEKTİVLƏRİ

Naxçıvan MR-in təbii-iqtisadi şəraitinin geniş və hərtərəfli təhlili göstərmişdir ki, bu və ya digər kənd təsərrüfatı sahəsini, bu vaxta qədər olduğu kimi, ancaq geomorfoloji göstəricilərə görə 3 zona (dağ, dağətəyi və düzənlik) daxilində yerləşdirmək özünü doğrultmur. Bəzi alimlərin göstərdiyi kimi düzənlik zonanın texniki bitkilər, dağətəyi zonasının meyvəçilik-üzümçülük və dağ zonasının heyvandarlıq üzrə ixtisaslaşdırılması həyata keçirilirdi. Göstərilən zonalar içərisində hələ torpaq-iqlim və başqa təbii-iqtisadi amillərə görə fərqlənən bir sıra yarımzonalara rast gəlmək olur. Buna görə də həmin xüsusiyyətləri nəzərə almadan fermer təsərrüfatlar arasında əlaqə faydalı nəticə vermir.

Bu fərqi eyni zamanda rayonlar haqqında söyləmək olar. Məsələn, Ordubad və Culfa rayonları dağlıq, dağətəyi və qismən düzənlik yarımzonalardan, Şahbuz rayonu dağlıq və dağətəyi, Şərur və Kəngərli, Babək rayonları isə düzənlik və dəğətəyi yarımzonalardan ibarətdir. Buna görə də biz göstərilən 3 zona daxilində torpaq-iqlim şəraiti bir-birini tamamlayan yarımzonaların şərti olaraq birləşdirilməsi hesabına respublika ərazisinin 5 mikrozona əsasında ixtisaslaşdırılmasını daha məqsədə uyğun hesab edirik. Bu zonaların üstünlüklərini əhaliyə aşılamaq lazımdır.

Şübhəsiz, bu cür bölgü, təkcə geomorfoloji göstəriciləri deyil, eyni zamanda bu və ya digər sahənin inkişafı üçün zəruri olan başqa təbii-iqtisadi amillər kompleksini də nəzərdə tutur. Bu mikrozonalar aşağıdakılardır.

## I. Kişmiş üzümü istehsalı, çəltiklik, tərəvəzçilik və südlük heyvandarlıq mikrozonası

Bu mikrozona Babək, Şərur və Kəngərli rayonları ərazisinin Arazboyu düzənliyini, əhatə edir. Burada Babək rayonunun 16, Şərur 36 və Kəngərlinin 12 kəndləri fəaliyyət göstərir. Ərazidə 50839 hektar kənd təsərrüfatına yararlı torpağın 31035 hektarını əkin yeri, xam və dincə qoyulmuş torpaqlar, 9928 hektarını kəndyanı otlaq və biçənəklər, 932 hektarını çoxillik əkmələr, 8944 hektarını dövlət tərəfindən əhaliyə təhkim edilən yaylaq və qışlaq otlaqları təşkil edir. Mikrozonada həyata keçirilməsi nəzərdə tutulan bir sıra su təsərrüfat tədbirlərinin həll olunması ilə əlaqədar olaraq, təsərrüfat dövriyyəsinə cəlb edilməsi mümkün olan torpaqların sahəsi xeyli artırılacaq və torpaq transformasiyası xeyli dəyişəcəkdir.

Bizim fikrimizə görə, birinci mikrozonanın kişmiş üzümü, çəltik, tərəvəz və süd istehsalına görə ixtisaslaşdırılması məqsədəuyğundur. Bu zəruriyyət ondan irəli gəlir ki, göstərilən mikrozonada il ərzində havanın isti keçməsi burada yetişdirilən üzümün şəkərlik dərəcəsinin artmasına çox müsbət təsir göstərir. Kişmiş sortlu üzümlər burada suvarma əsasında sahə vahidinə görə daha çox və yüksək keyfiyyətli məhsul verir. Əhalinin kişmiş üzümü yetişdirməkdə zəngin təcrübəyə malik olmaları da əsas götürülür. Apardığımız hesablamaya görə həmin mikrozonada üzüm bağlarının sahəsini hazırkı 920 hektara qarşı 2010-cu ildə 8820 hektara çatdırmaq mümkündür. Nəzərdə tutulan üzüm bağları barvermə zamanı 114820 ton üzüm verəcəkdir. Bundan təqribən 22964 tonu kişmiş istehsalı üçün nəzərdə tutulur[1]. Gözlənilən məhsulun bir hissəsi yerli ehtiyaca, çox hissəsi isə Bakıya və xarici ölkələrə göndərilə bilər. Gələcəkdə isə kişmiş istehsalını ən azı 4 dəfə artırmaq mümkün olacaqdır. Bu da öz növbəsində xaricdən kişmiş alınmasını xeyli məhdudlaşdıra bilər. Lakin bir

---

[1] 5 kq üzümdən bir kilo kişmiş istehsalı nəzərdə tutulur.

məsələni də nəzərə almaq lazımdır ki, kişmişin sənaye üsulunda hazırlanması üçün müvafiq kişmiş qurutmaxanalarının yaradılması dövlətin perspektiv planlarında nəzərdə tutulmalıdır.

Birinci mikrozonada istehlak və sənaye əhəmiyyətli tərəvəzçiliyin inkişafına da çox böyük üstünlük verilməlidir. Burada bostan və tərəvəz sahəsinin gələcəkdə 2500 hektar olması gözlənilir. İstehsal olunan bostan-tərəvəz məhsullarının 70-80%-i konserv sənayesinə verilməlidir.

Çəltik başlıca olaraq, mikrozonanın Şərur rayonu ərazisində Araz vadisi və Arpaçayı sahilində yetişdirilməlidir. Çəltikliyin inkişafında həm Muxtar Respublika əhalisinin düyüyə olan tələbatının ödənilməsi, həm də Bakı şəhəri və başqa şəhərlərin əhalisinə düyü satılması nəzərdə tutulur. Çəltik plantasiyası sahəsinin orta hesabla son 3 ildəki 19 hektar əvəzinə gələcəkdə 2560 hektar olması nəzərdə tutulmuşdu.

Salınması nəzərdə tutulan üzüm bağları isə 4 ildən sonra məhsul verəcəkdir. Bunu nəzərə alaraq, üzüm bağları və əkilməsi nəzərdə tutulan başqa kənd təsərrüfatı bitkiləri məhsuldarlığını son həddə çatdırana qədər; həmin sahələrdə eyni zamanda müvafiq miqdarda tütün becərilməsi də məqsədəuyğundur. Şübhəsiz ki, tütün kimi çox gəlirli bitkinin zərər gətirməmək şərti ilə əlavə sahə kimi inkişafı daha çox pul gəliri götürülməsinə səbəb ola bilər. Beləliklə, mikrozonada əsas sahəni bitkiçilikdə kişmiş, çəltik və tərəvəz istehsalı, əlavə köməkçi sahəni isə müvəqqəti olaraq tütünçülük təşkil edə bilər.

Burada iribuynuzlu maldarlığın tövlə şəraitində südçülük istiqamətində inkişaf etdirilməsi məqsədəuyğundur. Bu birinci növbədə onunla əlaqədardır ki, Naxçıvan şəhəri əhalisinin artması ilə birlikdə eyni zamanda onun təzə süd məhsullarına olan tələbatı da artır. Digər tərəfdən isə indi heyvan otarılması üçün istifadə olunan kəndyanı otlaqlar perspektiv dövrdə tamamilə təsərrüfat dövriyyəsinə cəlb edildiyi üçün iribuynuzlu mal-qaranın otlaq şəraitində saxlanması imkanları aradan qaldırılır. Buna görə də heyvanların quruluşunun göstərilən təmayülə uyğun olması

çox vacib məsələlərdəndir. Bu məqsədlə göstərilən mikrozonada inəklərin xüsusi çəkisinin 2004-cü ildə ümumi naxırın 45 faizini, 2005-ci ildə 50%-ni və gələcəkdə 55-60%-ni təşkil etməsi nəzərə alınmışdır.

Otlaq sahələrinin əkin yerinə çevrilməsi eyni zamanda öyrəndiyimiz mikrozonada otlaq şəraitində qoyunçuluğun inkişafını çətinləşdirir. Təcrübə göstərir ki, əlverişli otlaq şəraiti olan təsərrüfatlarda qoyunçuluq iqtisadi cəhətcə özünü daha yaxşı doğrulda bilər, məhsul istehsalına çəkilən xərcləri tez bərpa edər, digər tərəfdən isə xeyli miqdarda təmiz gəlir götürülməsini təmin edər.

## II. Tütünçülük, sənaye əhəmiyyətli üzümçülük, taxılçılıq və südlük-ətlik, heyvandarlıq və qoyunçuluq mikrozonası

Göstərilən mikrozona Şərur və Kəngərli rayonları dağətəyi ərazisini əhatə edir. Burada kənd təsərrüfatına yararlı torpaqların sahəsi 14019 hektar, o cümlədən əkin yeri, xam və dincə qoyulmuş torpaqlar 7350, otlaq yeri və biçənəklər 5080, dövlət tərəfindən müvəqqəti istifadə edilməsi üçün təhkim edilən otlaqlar 1424 və çoxillik əkmələr 165 hektar təşkil edir.

İkinci mikrozonaya təhkim olunmamış, lakin onların tərəfindən otarılan dövlət fondu torpaqları da örüş kimi istifadə olunmalıdır, buraya Xok kəndi ətrafındakı bütün dövlət fondundakı otlaqları da daxil etmək lazımdır. Bu respublikanın əsas tütünçülük və taxılçılıq mikrozonasıdır. Eyni zamanda torpaq-iqlim şəraiti burada sənaye əhəmiyyətli üzümçülüyün inkişafına əlverişli şərait yaradır. Buna görə də böyük sahələrdə üzümlüklər salınması kəndlərin daha çox və ucuz məhsul istehsal etməsinə və çoxlu gəlir götürməsinə səbəb ola bilər.

Bu mikrozonada iribuynuzlu mal-qara südlük-ətlik istiqamətində inkişaf etdirilməlidir. Bu halda naxırda inəklərin xüsusi çəkisi artırılmalıdır.

Mikrozonada taxılçılığın artırılması ilə əlaqədar olaraq Qarabağlar kəndində 50 min quş yetişdirən quşçuluq fabriki

yaradılması da diqqət mərkəzində durmalıdır. Bu da işsizliyin aradan qaldırılmasına kömək edər.

### III. Şərab istiqamətli üzümçülük, sənaye əhəmiyyətli tütünçülük, taxılçılıq, südçülük-ətlilik qaramal, yunluq-ətlik və südlük qoyunçuluq mikrozonası

Üçüncü mikrozona Babək, Şahbuz və Culfa rayonlarının dağətəyi ərazisini birləşdirir. Burada Babək, Şahbuz rayonlarının 15 və Culfa rayonunun çoxlu kəndləri vardır. Göstərilən mikrozonada kənd təsərrüfatına yararlı torpaqlar 43408, o cümlədən əkin yeri, xam və dincə qoyulmuş torpaqlar 18681, biçənəklər 182, kəndətrafı otlaqları 17754, çoxillik əkmələr 1062 və yaylaq və qışlaq otlaq 3120 hektarı təşkil edir. Bundan başqa, otlaq kimi istifadə olunan, lakin əhaliyə təhkim olunmayan dövlət torpaqları da vardır ki, kəndlilər onlardan istifadə edir və gələcəkdə də istifadə edəcəklər. Şübhəsiz ki, bu imkanlar göstərilən zonanın adına uyğun inkişaf üçün zəmin yaradır.

Böyük sahələrdə dənli və paxlalı bitkilər əkilir. Əlverişli torpaq şəraiti göstərilən təsərrüfat sahələrindən daha artıq gəlir götürülməsinə zəmin yaradır. Babək rayonunun ərazisindən yay sularına tələbkar olan tütünçülüyün inkişafını təmin edir. Göstərilən bitkiçilik sahələri öz əhəmiyyətini, eyni zamanda perspektiv inkişaf üçün saxlayır.

Ərazi daxilində iribuynuzlu mal-qaranın südlük-ətlik və qoyunçuluğun yunluq-ətlik və südlük istiqaməti daşıması daha məqsədəuyğun sayılır. Naxırda inəklərin xüsusi çəkisinin gələcəkdə 50-60 faizi təşkili etməsi məqsədəuyğundur. Bu mikrozonada donuzçuluğun və quşçuluğun inkişafı məqsədəuyğun deyildir.

## IV. Meyvəçilik-ipəkçilik və südlük heyvandarlıq mikrozonası

Ordubad rayonunun dağətəyi zonasının kənd təsərrüfatına yararlı torpaqlar, 9867 hektarı, o cümlədən əkin yeri, xam və dincə qoyulmuş torpaqlar 3183, biçənəklər 289, kəndətrafı otlaqlar 3707, çoxillik əkmələr 1218, o cümlədən meyvə bağları 707, üzümlüklər 176, tut plantasiyası 335 hektarı təşkil edir. Dövlət tərəfindən kəndlərə təhkim edilmiş yaylaq otlaqlarının sahəsi 1470 hektara qədərdir. Buradan aydın olur ki, göstərilən mikrozona çox qədim zamanlardan bəri sənaye əhəmiyyətli meyvə və ipək istehsalına görə ixtisaslaşmışdır. Burada fəaliyyət göstərən ipək və konserv kombinatları başlıca olaraq yerli xammala əsaslanır. Təbii-iqlim şəraiti burada göstərilən sahələrin perspektiv inkişaf dövründə daha çox artırılmasını təmin edir. Lakin mikrozona ərazisində sulu torpaqların çox hissəsinin dənli bitkilər altında istifadə olunması meyvə bağları və tut plantasiyaları sahələrinin artırılmasına imkan vermir. Bunu nəzərə alaraq, perspektiv inkişafda həmin mikrozonanın sulu torpaqlarında yetişdirilən və yerli şəraitə görə rentabelli olmayan taxılçılığın inkişafını dayandırmaq və onun əvəzində meyvə bağı, bostan-tərəvəz və tut plantasiyalarını inkişaf etdirmək iqtisadi cəhətcə daha əlverişlidir. Meyvəçiliyin inkişafında çeşidlər üzrə meyvə istehsalına xüsusi əhəmiyyət verilməlidir.

Bunları nəzərə alaraq, perspektiv inkişaf dövründə qoyunçuluğun göstərilən mikrozonada rayon ərazisi daxilində dağlıq zonada inkişafı iqtisadi cəhətcə daha çox əlverişlidir. Otlaq şəraitinin çətinliyi və yem bitkiləri əkininin məhdudlaşmış miqdarda inkişafı burada iribuynuzlu heyvandarlığın ancaq südlük təmayülündə inkişafını təmin edir.

Burada bütün kəndlərə səpələnmiş az miqdarda saxlanan quşçuluğun iqtisadi cəhətcə faydalı olmasını nəzərə alaraq, göstərilən ərazidə dövlətin köməkliyi ilə fermerlərin birləşib 50 min baş quş yetişdirən quş fabrikinin tikilməsini daha

məqsədəuyğun hesab edərək, sənaye üsulunda quş əti və yumurta istehsal etməyə nail olmaları daha çox faydalı ola bilər.

Meyvə bağlarının sürətli inkişafı və burada mövcud olan təbii yem ehtiyatlarının çoxluğu arıçılığın genişləndirilməsi üçün əlverişli şərait yaradır. Arıçılığın inkişafı isə öz növbəsində bir tərəfdən bal və mum istehsalının artmasına, digər tərəfdən isə meyvə bağlarının və sair bitkilərin tozlandırılmasını yaxşılaşdırmağa səbəb olar.

## V. Ətlik-südlük istiqamətində qaramal, yunluq-ətlik və südlük təmayülündə qoyunçuluq və kartof istehsalı mikrozonası

Bu mikrozona əsasən dağlıqdır. Buraya Şahbuz rayonu, Culfa və Ordubad rayonları daxildir. Mikrozonada kənd təsərrüfatına yararlı torpaqlar 32625 hektarı, o cümlədən əkin yeri 5016, xam və dincə qoyulmuş torpaqlar 7168, biçənəklər 852, kəndətrafı otlaqları 13389, çoxillik əkmələr 304, dövlət tərəfindən təhkim edilən yaylaq və qışlaq otlaqları 5896 hektarı təşkil edir.

Beşinci mikrozona ərazisində dövlət fondundakı torpaqlar da mal-qaranın inkişafı üçün istifadə oluna bilər. Mikrozonanın otlaq şəraiti burada qoyunçuluğun və iribuynuzlu mal-qaranın inkişafına əlverişli şərait yaradır. Təsərrüfatın perspektiv inkişafı qoyunçuluğun yunluq, ətlik və südlük, iribuynuzlu mal-qaranın ətlik-südlük istiqamətində inkişafına əsaslanmalıdır.

Ərazinin iqlim-torpaq şəraiti burada əmtəəlik xarakteri daşıyan kartof istehsalının artırılmasına çox böyük zəmin yaradır. Dənli bitkilərin inkişafı və taxıl istehsalı məhdudlaşmış vəziyyətdə, ancaq istehlak xarakteri daşımalıdır. Başqa sözlə desək, ümumi istehsalda, ancaq ərazidə yaşayan əhalinin yerli istehsalı hesabına çörək və heyvandarlığın qüvvəli yemə olan tələbatının ödənilməsi nəzərdə tutulmalıdır.

Respublikanın ərazisinin 5 mikrozonaya bölünməsi və hər mikrozonanın öz yerli təsərrüfat şəraitinə görə inkişafı gə-

ləcəkdə kənd təsərrüfatı sahələrinin daha gəlirli olmasına xidmət edəcəkdir.

Ümumi məhsul istehsalını artırmaq indi olduğu kimi gələcəkdə də diqqət mərkəzində durur. Apardığımız hesablamalara görə son 3 ildə (2000-2003-cü illər) orta hesabla Naxçıvan MR-da istehsal olunan bütün kənd təsərrüfatı məhsullarının ümumi dəyərinin 73,2%-ni bitkiçilik, 26,8%-ni heyvandarlıq məhsulları verir. Perspektiv dövrdə kənd təsərrüfatının bütün sahələri üzrə nəzərdə tutulan yüksəliş və buna yönəldilmiş bütün tədbirlər eyni zamanda istehsal olunan məhsulun artımını nəzərdə tutur. Hesablamalar göstərir ki, istehsal olunan məhsulların və sahələr üzrə istehsal olunan məhsulların dəyərində yenə də üstünlüyü bitkiçilik saxlayacaqdır.

Heyvandarlığın sayca artımı və məhsul istehsalı səviyyəsinin yüksəlməsinə görə bu sahədən əldə edilən məhsulların dəyəri artmışdır.

Yuxarıdakılardan aydın görünür ki, kənd təsərrüfatının başlıca sahələr üzrə ümumi gəliri xeyli artırılacaq ki, bu da öz növbəsində kəndin iqtisadiyyatının möhkəmlənməsini və əhalinin güzəranının yaxşılaşmasını təmin edəcəkdir.

Ümumi məhsul istehsalının artırılması ilə yanaşı, satışa ayrılan əmtəəlik məhsulların miqdarı da təqribən 5 dəfədən çox artacaqdır. Bu kəndlər də daha çox pul gəlir götürməsinə səbəb olacaqdır. Pul gəlirinin eyni nisbətdə artması birinci növbədə əhalinin güzaranının yaxşılaşdırılmasına yönəldiləcəkdir.

Buna görə də bütün tədbirlər istehsalın əlaqəli və məqsədəuyğun təşkilinə yönəldilməlidir. Birinci növbədə çoxgəlirli sahələr inkişaf etdirilməlidir.

Təsərrüfatın rentabellik səviyyəsi eyni zamanda onun idarə olunma keyfiyyətinin yaxşı olduğunu göstərir. Təsərrüfatın rentabelliyi, hər şeydən əvvəl, məhsul satışından əldə edilən mənfəətlə xarakterizə olunur. Mənfəət əmtəəlik məhsulun satılması nəticəsində əhaliyə daxil olan məbləğlə həmin məhsulun maya dəyəri arasındakı fərqi təşkil edir. Başqa sözlə, mənfəətin çoxluğu məhsulun maya dəyərinin aşağı sa-

lınması, istehsal həcminin artması məhsulun keyfiyyətinin yaxşılaşması hesabına əldə edilir. Buna görə də inkişafı nəzərdə tutulan sahələr nəinki rentabelli olmalı, hətta çoxlu xalis gəlir götürməlidir.

Məlumdur ki, satılan məhsulların satınalma qiymətləri məhsulun keyfiyyətindən asılı olaraq müəyyən edilir. Buna görə də perspektiv dövrdə çalışmaq lazımdır ki, satışa ayrılan ət, süd, barama, yumurta, yun, tütün və başqa kənd təsərrüfatı məhsulları yüksək keyfiyyətli olsun. Yüksək keyfiyyətli məhsul baha qiymətə satılır.

Təsərrüfatın gəlirliyini artırmaq üçün məhsulların ən əlverişli müddətlərdə dövlətə və ya əhaliyə satılmasının da böyük əhəmiyyəti vardır. Çünki mövsüm qiymətləri arasında xeyli fərq vardır, bu isə məhsul istehsalının və ən əlverişli vaxtlarda satışının düzgün təşkil edilməsi hesabına gəlirliyini artırmaq üçün böyük imkan yaradacaqdır. Göstərilən tədbirləri səmərəli şəkildə həyata keçirmək üçün əhalinin və fermer təsərrüfatları rəhbərlərinin daimi mütəxəssislər tərəfindən maariflənd irilməsi, vaxtaşırı yerlərdə kənd təsərrüfatı müşavirələri keçirilməsi və qabaqcıl təcrübənin yayılmasına geniş yer ayrılmasına fikir verilməsi əsas məsələ hesab edilir.

Perspektiv dövr üçün layihələndirilmiş təsərrüfat sahələrinin inkişafı eyni zamanda istehsalı təmin edən başqa amillərin olmasından çox asılıdır. Birinci növbədə kəndlərdə maddi-texniki bazanı möhkəmləndirmək və istehsal üsulunu təkmilləşdirmək lazımdır. Kəndlərdə aparılacaq işin həcminə görə müvafiq texnikanın və ixtisaslı kadrların hazırlanması məsələsi çox vacib, təxirəsalınmaz məsələdir.

Perspektiv dövrdə fermerlərin maddi-texniki bazasının möhkəmləndirilməsi bizim fikrimizə görə, iki məsələnin birlikdə həllini: 1) fermerlərin öz qüvvəsinə görə müvafiq texnikanın saxlanmasını və vaxtaşırı təkmilləşdirilməsini; 2) əsas maşınları bir yerə cəmləşdirən və fermerlərin bağladığı müvafiq müqavilə əsasında onların işini görən dövlət tabeçiliyində xüsusi maşın-traktor parkı yaradılmasını həll etməlidir. Tarixən özünü doğrultmuş və kəndlərin təşkilat-

təsərrüfat cəhətcə möhkəmləndirilməsində çox böyük rol oynamış belə bir təşkilatın yaradılması vaxtı gəlib çatmışdır. Nəzərə almaq lazımdır ki, hazırda fermerlərin malik olduqları texnikadan dolğun istifadə olunmur. Lakin təcrübə göstərmişdir ki, dövlət nəzarəti altında işlədilən maşınlar daha çox iş görür və gec sıradan çıxır. Bizim fikrimizə görə, sıradan çıxan bu cür maşınlar fermerlərdən metal qiymətinə deyil, daha yüksək qiymətə alınmalıdır ki, onlar öz vəsaitlərindən cüzi əlavə etməklə yeni maşın ala bilsinlər. Burada sahibkarlara dövlətin köməyi çox lazımdır.

Avtomobil parkı ildən-ilə genişlənir və gələcəkdə daha geniş miqyas alacaqdır. Bu da kənd təsərrüfatı yüklərinin və başqa yüklərin xeyli hissəsini daşıyacaqdır. Şübhəsiz ki, kənd təsərrüfatı məhsullarının artırılması ilə yanaşı eyni zamanda Bakı-Yerevan dəmir yolundan və respublikada çox güclü maşın parkına əsaslanan avtomobil nəqliyyatından geniş istifadə olunacaqdır. Bu, istehsalı nəzərdə tutulan məhsulların başqa şəhərlərə və xarici ölkələrə göndərilməsinə əlverişli şərait yaradacaqdır.

Lakin perspektiv dövrdə qarşıda duran əsas məsələlərdən biri kəndarası yolların genişlənib qaydaya salınması və bir sıra çaylar (Şahbuz rayonunda Naxçıvançay və Culfa rayonunda Əlincəçay) üzərində dövlət hesabına körpülər tikilməsi indidən müvafiq təşkilatlar tərəfindən planlaşdırılmalıdır.

i.e.n., dos. Hacı Paşa Murad Kəngərli

# QƏDİM NAXÇIVANIN İQTİSADİ İNKİŞAF TARİXİ

Azərbaycan Respublikasının ayrılmaz hissəsi olan qədim Naxçıvan Kiçik Qafqazın cənub-qərb hissəsində yerləşir. Muxtar Respublika şimaldan və şimali-şərqdən Ermənistan Respublikası ilə, cənubdan və şimali-qərbdən 163 km məsafədə İranla, az bir məsafədə isə 11 km Türkiyə ölkəsi ilə həmsərhəddir. Ermənistan Respublikası ilə Naxçıvan MR arasında sərhəd 189 km-dir.

Orta əsrlərdə Şərqin iri elmi, mədəniyyət, ticarət və sənətkarlıq mərkəzlərindən biri kimi şöhrət qazanmış Naxçıvan dünyaya dəyərli töhfələr vermişdir. Azərbaycan Atabəyləri-Eldəgizlər dövlətinin paytaxtı olmuş Naxçıvan şəhəri əsası Əcəmi Naxçivani tərəfindən qoyulmuş memarlıq mərkəzi ilə bütün Şərqdə məşhurlaşmışdır. Naxçıvan uzun illər gərgin siyasi mübarizə meydanı olmuşdur. 1747-ci ildə İranda Naxçıvan dövlətinin süqutundan sonra Naxçıvan Kəngərli tayfasının başçısı Heydərqulu xan özünü Naxçıvan xalqının müstəqil hakimi elan etdi.

XVII əsrin sonları XIX əsrin əvvəllərində Naxçıvan ərazisi Rusiya və İran arasında toqquşmalar meydanına çevrildi. Nəticədə bağlanmış Gülüstan (1813 -cü il) və Türkmənçay (1828-ci il) müqavilələri əsasında Naxçıvanın və Azərbaycanın tarixi torpaqları parçalanaraq Rusiya və İran arasında bölüşdürüldü.

1922-ci ilin dekabrında I Zaqafqaziya Sovetlər qurultayı Naxçıvan məsələsi üzrə qəbul etdiyi xüsusi qərarında Naxçıvanın muxtariyyət statusunda Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olmaqla Naxçıvan Muxtar Respublikasına çevrilməsi 09 fevral 1924-cü il tarixli fərmanla təsdiq olunmuşdur.

Naxçıvan MR Kiçik Qafqazın cənub-qərb hissəsində Araz çayının sol sahilində $38^{0}$ $51^{1}$ şimal en dairəsi ilə $44^{0}46^{1}$-$46^{0}10^{1}$ cənub uzunluğu arasında yerləşir.

Naxçıvan MR şimal və şimal-şərqdən Zəngəzur silsiləsi və onun əsas qollarından biri olan Dərələyəz sıra dağları vasitəsilə Ermənistandan ayrılır. 174 km uzunluqda Araz çayı axır, bu çay Naxçıvan MR-i qərbdə Türkiyə və İran dövlətləri ərazisindən ayırır.

Naxçıvan MR-in müasir ərazisi keçmiş Naxçıvan qəzası və Şərur-Dərələyəz qəzasının Şərur hissəsi sahəsindən əmələ gəlmişdir. Ümumi ərazisi 5,3 min $km^2$ olub. Azərbaycan Respublikası ərazisinin 7 faizini təşkil edir. İnzibati bölgüsünə görə Ordubad, Culfa, Babək, Şahbuz, Şərur və Kəngərli rayonlarına ayrılır.

Naxçıvan MR-in paytaxtı Naxçıvan (Araz üstə) şəhəridir. Muxtar Respublika Azərbaycanın başqa rayonları, habelə qonşu Zaqafqaziya respublikaları ilə buradan keçən dəmir yolu və magistral şose yolları vasitəsilə əlaqələnir.

Respublikanın ərazisi çox böyük olmasa da, ümumi səthi quruluşu çox mürəkkəb və müxtəlifdir. Başqa respublikalardan fərqli olaraq, burada çox kiçik məsafədə müxtəlif relyef formalarına rast gəlmək olur. Dağlıq əraziyə xas olan uzun və dərin dərələr, dəniz səthindən müxtəlif hündürlükdə olan düzənliklər, çox uca dağ silsilələri, əbədi qarla örtülü zirvələr və sair Naxçıvan MR-in relyefinin əsas xüsusiyyətlərindəndir. Buna görə də bir çox coğrafiyaşünaslar haqlı olaraq Naxçıvan MR-i dağlıq ölkə adlandırmışlar. Bunun başlıca səbəbi odur ki, Muxtar Respublikanın ərazisində ən alçaq Arazboyu düzənliyi belə dəniz səthindən 600-700 metrdən çox hündürlükdədir.

Muxtar Respublikanın geoloji tarixi göstərir ki, mezazoy dövründə burada Tetis adlanan böyük bir dənizin suları dalğalanırmış. Dəniz suları çəkildikdən sonra bu günə kimi kontinental dövr başlanmışdır. Relyefin əmələ gəlməsinə, oroqrafiyasına və səth quruluşuna görə Naxçıvan MR-in ərazisi təbii olaraq bir-birindən artıq dərəcədə fərqlənən iki hissəyə: sahəcə böyük şimal-şərq yüksəkliyinə, cənub və cənub-qərbdə Arazboyu düzənliyə ayrılır.

Şimal-şərq yüksəklik hissəsinin kəskin relyefi tipik dağlıq ölkəni xatırladır. Burada sıra dağlar nisbətən çox yüksəlir. Bazarçay, Miqriçay və Şərqi Arpaçay hövzələri arasında olan su Əyrıca sıra dağlarının mütləq hündürlüyü 3900 metrdən artıqdır.

Şimal-şərq dağlıq hissəsinin relyefinin başqa bir xüsusiyyəti də onun çox mürəkkəb və müxtəlif olmasıdır. Relyefin çox girintili-çıxıntılı olması dağ qurşaqlarını əmələ gətirən rəngarəng süxurlarla əlaqədardır.

Şimal-şərq dağlıq hissə Kiçik Qafqazın, habelə bütün Zaqafqaziyada ən hündür dağ sistemindən biri hesab olunan Zəngəzur silsiləsinin cənub-qərb hissəsindən ibarətdir ki, bunların da istiqaməti ümumi Qafqaz qırışıqları istiqaməti ilə düz gəlir. Zəngəzur dağları öz su ayrıcı ilə Ermənistan ilə Naxçıvan MR sərhədləri böyunca uzanır. Zəngəzur öz hündürlüyü ilə bütün Kiçik Qafqaz sistemində birinci yeri tutur. Bu sistemdə yüksək dağlardan biri Qapıcıq 3917 metrə qədər yüksəklikdə olub, əbədi qarla örtülüdür. Qapıcıq dağı Zaqafqaziyada Dərələyəzdən sonra birinci hündür zirvədir.

Zəngəzur sıra dağları yüksək olduğu üçün ondan çox çətin keçmək olur. Belə ki, ən alçaq dağ aşırımları 3000 metr hündürlükdədir. Zəngəzur sisteminin bir çox mühüm qolları burada Naxçıvan MR ərazisinə daxil olub, onun şimal-şərq hissəsini əhatə edir. Bunlardan Bərşat dağlarını göstərmək olar ki, əsasən Naxçıvan Respublikasından kənar Ermənistan daxilində Oxçuçay və Miğriçay arasında uzanır. Nəhayət, Zəngəzur sisteminin daha mühüm bir qolu olan Cənubi Dərələyəz sıra dağları qərb tərəfə uzanaraq şimaldan Naxçıvan MR-nı Ermənistandan ayırır. Cənubi Dərələyəz sıra dağları Ermənistan daxilinə Şərqi Arpaçay, Naxçıvan MR daxilində isə Naxçıvan çayları arasında su ayrıcıdır. Qaraquş zirvəsinə kimi Dərələyəz dağları hündür olub, 2300-2500 metrə qədər ucalır. Halbuki başqa dağ aşırımlarının heç biri 2000 metrdən artıq deyildir. Dərələyəz sistemində dəniz səthindən ən uca nöqtələr Kükü dağı (3133 m) və Keçəl dağ (3146 m) göstərmək olar. Dərələyəz sıra dağları qərbə getdikcə alçalır. Sədə-

rək kəndindən şimala Naxçıvan MR sərhədləri boyunca uzanaraq respublikanı Ermənistandan ayırır.

Arazboyu düzənliyi Kiçik Qafqazda ən böyük çökəkliklərdən biri olub, şimal-şərqdən Zəngəzur, cənub-qərbdən Bayazit-Xoy sıra dağları ilə əhatə olunur. Bu düzənlik şimalda Ələyəz torpaqlarından başlayıb, cənub-şərqə tərəf Zəngəzur sıra dağlarına qədər uzanır. Lakin bu düzənliyin ancaq Arazdəyən stansiyası və Ordubad arasındakı Araz çayının sol sahili Naxçıvan MR-na məxsusdur. Arazboyu düzənliyi əsasən bərk süxurlardan ibarət olub, üsdən allüvial çöküntüləri ilə örtülüdür. Respublika daxilində bu düzənliyin orta uzunluğu 150 və enliyi 15-25 km-dir. Orta mailliyi 0,0042 m-ə qədərdir. Dəniz səthinə nisbətən hündürlüyü 700-dən 1000 metrə çatır.

Arazboyu düzənliyi Zəngəzur dağ sistemi ilə bir-birindən artıq dərəcədə fərqli olan müxtəlif ovalıqlardan ibarətdir. Bunlardan ən şimaldakı Sədərək düzənliyidir. Sədərək düzənliyi Araz çayı, Cəhənnəm dərəsi və Bağırsaqdərə çaylarının gətirdiyi çöküntülərdən əmələ gəlmişdir. Bu düzənlik cənub-şərqdə «Qurdlar qapısı» və Şərur ovalığı ilə qovuşur. Hər iki düzənliyi bir-birindən ayıran Cənubi Qonça və onun arxasını təşkil edən Vəli dağ (1263 m) və Dəhnə (1173 m) yüksəklikdədir.

Şərur ovalığı Ararat düzənliyinin davamı olub Muxtar Respublika daxilində ən geniş düzənlikdir. O, Şərqi Arpaçayın aşağı hissəsində yerləşir və başlıca olaraq bu çayın gətirdiyi çöküntülərlə örtülür. Buna görə də Şərur düzənliyi nisbətən məhsuldar torpaqlardan ibarət olub, respublika daxilində ən böyük və mühüm əkinçilik rayonu hesab olunur. Bu düzənlikdə iqlimin kontinental olması və burada keçən buludsuz, isti, uzun və günəşli yay düzənlikdə qiymətli texniki bitkilərin yetişdirilməsi üçün əlverişli şərait yaradır. Şərur düzənliyi cənub-şərqə getdikcə Qarabağlar yüksəkliyi və Araz çayı arasında olduqca daralır.

Arazboyu düzənliyinin Naxçıvan MR daxilində daha şərqdə olan ən böyük hissəsi Naxçıvan çayının aşağı hissəsində yerləşən Naxçıvan düzənliyidir. Şərur düzənliyi kimi Naxçıvan düzənliyi də çayların gətirdiyi çöküntülərlə

örtülmüşdür. Bu düzənliyin əsası bərk süxurlardan ibarətdir. Əkinçilik əhəmiyyətinə görə bu düzənlik Muxtar Respublikada Şərur düzənliyindən sonra ikinci yeri tutur.

Naxçıvan şəhərinin şimal-qərb tərəfindən Qarabağlar yüksəkliyi ilə Duz dağının qolları arasında Böyükduz düzənliyi yerləşir. Qeyd etdiyimiz düzənliklərdən fərqli olaraq, Böyükduz düzənliyi sahəsinin çoxu hər yerdə, xüsusən şimalda təpəliklərlə örtülüdür. Böyükduz quru iqlimə və məhsulsuz torpağa malik olduğu üçün yarımsəhra və səhra qurşağına məxsus olan təbiəti xatırladır.

Nəhayət, Darı-dağ sıra dağlarından cənub-şərqdə Əlincə çayının aşağı hissəsində Gülüstan və ya Culfa düzənliyi yerləşir. Şərq tərəfdən isə Zəngəzur sıra dağlarının hissələri Araza yaxınlaşır. Beləliklə, Arazboyu düzənliyi ilə Zəngəzur sistemi arasında Araz çayı vadisində daha çox birləşmə əmələ gəlir. Ancaq bu hal Vənənd və Ordubad çayları ağızlarında nisbətən genişlənir. Ordubad stansiyasından bir az şərqdə Arazboyu düzənliyi Zəngəzur və İran dağları arasında qurtarır. Araz isə bu iki dağın arasından özü üçün çox dar bir yol açmışdır ki, buradan indi eyni zamanda Culfa-Bakı dəmir yolu xətti keçir.

Naxçıvan MR-in Araz çayı boyunca uzanıb gedən aşağı zonasının orta hündürlüyü təqribən 800 metrə bərabərdir. Respublika ərazisinin 1/3 hissəsi bu zonanın payına düşür. Ərazinin qalan 2/3 hissəsi 1000 m-dən artıq hündürlükdə və bunun da 20%-i, hətta 2000 m-dən yuxarı hündürlükdə yerləşir. Hər tərəfdən uca dağlarla əhatə olunmuş, dənizlərdən uzaq və geniş quru yaylalarda yerləşən Muxtar Respublikanın yer səthinin dağ-çökək quruluşu, onun kontinental iqlimə malik olması, relyefin dağlıq xüsusiyyətləri və burada çox aydın nəzəri cəlb edən yüksək pillələr ərazinin çox mürəkkəbliyini göstərir.

Naxçıvan MR-in iqlimi başlıca olaraq özünün quraqlığı və kəskin kontinentallığı ilə xarakterizə olunur.

İqlimin əmələ gəlməsinə təsir edən amillərlə (günəş radiasiyası, atmosferin dövranı və s.) yanaşı ərazinin iqliminə respublikanın mürəkkəb relyef şəraiti, onun okean və dəniz-

lərdən uzaqda yerləşməsi də çox böyük təsir etmişdir, çünki ərazinin qapalı vəziyyətdə olması şimaldan soyuq və cənubdan isti hava kütlələrinin respublika ərazisinə keçməsinə mane olur. Bununla birlikdə yüksək silsilələr Qara dəniz və Xəzər dənizi tərəfindən gələn rütubətli hava kütlələrinin sərbəst surətdə buraya daxil olmasını çətinləşdirir. Muxtar Respublikanın kontinental iqliminə onun qonşuluğunda yerləşən quru iqlimli Ermənistan və İran ölkələrinin də çox böyük təsiri vardır.

Naxçıvan MR-in iqlimi ayrı-ayrı şaquli zonalar üzrə belə xarakterizə olunur.

1. Dəniz səthindən 600-1100 m-dək yüksəklikdə yerləşən Arazyanı zonası yayı isti, qışı isə çox soyuq keçən və illik orta temperaturu 15$^0$-dək olan quru səhra iqliminə malikdir.

Naxçıvan MR-in Arazyanı düzənliyi Azərbaycanın ən isti yerlərindən biri kimi xarakterizə olunur. Ən isti yay (iyul-avqust) aylarında buranın orta temperaturu 30$^0$-40$^0$ arasında dəyişilir. Ərazinin bəzi yerlərində isə (Culfa) maksimum temperatur bir çox hallarda 45$^0$-yə çatır. Yuxarıdakı amillərin təsiri altında respublikanın Arazyanı qurşağında yaz tez gəlir və bir qayda olaraq bu zaman temperatur kəskin surətdə yuxarı qalxır. Çox uzun sürən payızda isə temperatur kəskin surətdə aşağı düşür və burada şaxtalar oktyabrın axırlarında başlayır.

Lakin göstərmək lazımdır ki, yazın tez gəlməsi yayın uzunmüddətli və isti keçməsi, habelə payızın soyuq olması burada kənd təsərrüfatının və xüsusilə əkinçiliyin inkişaf etdirilməsinə əlverişli şərait yaradır. Burada orta aylıq temperaturu 20$^0$-dən yüksək olan dörd isti ayın, 210-220 günlük vegetasiya dövrünün, habelə orta hesabla 220 gündən artıq sürən şaxtasız dövrün olması bu zonada istilik sevən texniki bitkilərin, üzüm və meyvə bağlarının suvarma şəraitində inkişafını təmin edir. İsti və uzun sürən yay dövründə bu zonada illik orta yağıntının miqdarı 250-300 mm arasında olur. Həm də maksimum yağıntının birinci dövründə yazda (martdan mayadək) bu miqdar 100-200 mm, ikinci dövründə-payızda (başlıca olaraq noyabrda) isə 45-55 mm olur, yayda isə cəmi 25-30 mm-ə

enir. İyul və avqust aylarında burada yağıntının miqdarı xüsusilə az (orta hesabla 10-15 mm) olur. Beləliklə, orta aylıq temperaturun həddindən artıq yüksəkliyə qalxdığı və kənd təsərrüfatı bitkilərinin rütubətə daha çox ehtiyacı olduğu bir zamanda buraya olduqca az yağıntı düşür.

2. Dəniz səthindən 1100-1600 m yüksəklikdə yerləşən geniş dağətəyi zonanın iqlimi Arazyanı zonanın iqlimindən illik yağıntıların çox (450 mm-dək) olması ilə fərqlənir ki, bunun da sayəsində burada yarım dəmyə əkinçilik mümkün olur. Nisbətən yüksəklikdə yerləşdiyindən bu zonanın həm yay və həm də qış temperaturu (orta illik $12^0$-dək) birinci zonanın temperaturuna nisbətən çox aşağıdır. İkinci zonanın temperatur rejimi istər tarlaçılıq, istərsə də çoxillik bitkilər əkilməsi üçün əlverişlidir.

3. Dəniz səthindən 1600 m-dən 2600 m-dək yüksəklikdə yerləşən dağ zonanın iqlimi birinci iki zonanın iqlimindən yay fəslinin sərin keçməsi və həm də rütubətli olması ilə fərqlənir. Bu zonanın orta illik temperaturu $10^0$ olur. Burada iqlim mülayim keçir. Yağıntıların orta illik miqdarı 500-650 mm olduğu halda, ən isti yayın orta aylıq temperaturu $22^0$-yə çatır. Qalınlığı bir metrə çatan qar örtüyü burada orta hesabla 100-120 gün qalır. Dağ iqlimi əsasən yazlıq taxıl və kartof əkinləri üçün əlverişlidir.

4. Dəniz səthindən 2000 m-dən 3200 m-dək yüksəklikdə olan Ordubad rayonunun şimal və şimal-şərq hissəsində kiçik bir ərazini tutan yüksək dağ zonası yerləşir. Bu zonanın iqlimi yayın sərin və qısamüddətli olması ilə xarakterizə edilir. Zonanın temperaturu aparılan hesablamalara görə 1 aydan 3 aya qədər $10^0$ ilə $15^0$ arasında dəyişir. Burada yay mülayim və quru keçir.İllik atmosfer yağıntılarının miqdarı 500-550 mm-ə bərabərdir.

5. Dağ tundra iqlimi 3200 m-dən artıq yüksəklikdə olub, Qapıcaq dağı zirvəsini və onun ətrafındakı ərazini əhatə edir. Bu iqlim tipinə xas olan amillər özünün uzun və quru qışı, qısa və soyuq yayı ilə səciyyələnir. Dağ və yüksək dağ zonasında iqlimin nisbətən soyuq keçməsi burada əkinçiliyin inki-

şaf etdirilməsi üçün az əlverişlidir. Bu səbəbə görə də həmin zonadan respublikanın heyvandarlığı üçün otlaq kimi istifadə olunur.

Respublikanın iqlim şəraitini ümumiyyətlə götürdükdə demək olar ki, kənd təsərrüfatı bitkilərinin vegetasiyası dövründə (aprel-oktyabr) günəşli havalar çox olur. Müşahidələr göstərmişdir ki, aprel ayında sutkalıq temperatur 10-16$^0$, mayda isə 12-20$^0$ dairəsindədir. Bu aylarda əraziyə düşən 85 mm yağıntı cəmi illik yağıntının təqribən 34%-ni təşkil edir. Bu isə kənd təsərrüfatı bitkilərinin normal inkişafını təmin edir. İyun ayının əksər günlərinin orta sutkalıq temperaturu 22$^0$-dən yuxarı qalxır. Bu ay ərzində cəmi 12 mm-ə qədər yağıntı düşür ki, bu da illik yağıntının 5%-ə qədərini təşkil edir.

Naxçıvan MR-də ilin ən soyuq dövrü (noyabr-mart) Azərbaycanın digər rayonlarından özünün şaxtalı olması ilə fərqlənir. Burada havanın temperaturu noyabr ayından başlayaraq 0$^0$-dən aşağı düşür. Noyabrda temperaturu 0$^0$-dən aşağı düşən günlərin sayı cəmi günlərin təqribən 15%-ni təşkil edir. Qalan günlərin orta sutkalıq temperaturu 5-12$^0$ olmaqla, az buludlu havalar yenə də üstünlük təşkil edir. Dekabr ayında ümumi günlərin 50%-ə qədərini soyuq havalar təşkil edir. Yanvar ayı respublikada çox soyuq keçir. Beləliklə, respublikanın düzənlik hissəsində Azərbaycanın digər düzənlik ərazilərindən fərqli olaraq, yanvar ayında ən güclü şaxtalar müşahidə edilir. Bu ayda mütləq minimum temperatur bəzən 30$^0$ şaxtaya çatır. Fevral ayı da nisbətən soyuq keçir. Lakin güclü şaxtalı günlərin sayı nisbətən azalır. Mart ayında hava kəskin surətdə dəyişilərək istiləşir. Martın axırında soyuq hava müşahidə edilmir. Naxçıvan şəraitində mart ən çox yağışlı aydır. Mart ayında müsbət temperaturun çoxalması tarla işlərinin başlanmasına imkan verir, lakin sirkulyasiya şəraitinin dəyişməsi ilə əlaqədar olaraq bəzən hava ayrı-ayrı dövrlərdə adətən müşahidə edilən havadan xeyli fərqli olur.

Bütün deyilənlərə yekun vuraraq belə bir nəticəyə gəlmək olar ki, o qədər də böyük olmayan bu ərazidə quru səhra

iqlimindən tutmuş dağ iqlimi şəraitinədək çox müxtəlif iqlim növlərinə rast gəlmək olar.

Naxçıvan MR-nın olduqca qədim tarixi vardır. Artıq neolit dövründə respublikanın müasir ərazisində bir neçə qəbilə yaşayırdı. Naxçıvan MR ərazisinin müxtəlif hissələrində aparılan arxeoloji qazıntılar göstərir ki, tunc dövründə buranın sakinləri əkinçilik və heyvandarlıqla məşğul olmuşdur. Ayrı-ayrı tarixi dövrlərdə əkinçilik və heyvandarlıqla birlikdə, ölkənin iqtisadiyyatında ticarət və sənətkarlığın müxtəlif sahələri də əhəmiyyətli rol oynamışdır. Burada ticarətin geniş inkişafı, hər şeydən əvvəl, Naxçıvanın uzun müddət Avropa və Asiyanın bir çox dövlətlərini birləşdirən Karvan ipək yolu üzərində yerləşməsi ilə izah olunur. Bu yol eyni zamanda Naxçıvan, Ordubad və Culfa şəhərlərinin ticarət-sənətkarlıq mərkəzləri kimi geniş inkişaf etməsinə əlverişli şərait yaratmışdır. Qeyd etmək lazımdır ki, Naxçıvanın iqtisadi və mədəni inkişafı ayrı-ayrı dövrlərdə müxtəlif yadelli işğalçıların tez-tez təkrar olunan basqınları nəticəsində ləngiyirdi. Belə daşqınlar zamanı yaşayış məntəqələri, suvarma kanalları dağıdılır, əhalinin xeyli hissəsi yad ölkələrə əsir aparılırdı. VII əsrin əvvəllərində ərəblər bütün Azərbaycanı və o cümlədən, Naxçıvanı işğal edirlər. IX əsrin ortalarında ərəblərin ağır zülmündən azad olmaqla Naxçıvanın təsərrüfatında az-çox dincəlmə başlanır. Həmin dövrdə Naxçıvan şəhərində əhalinin sayı on minlərlə əhaliyə bərabər olmaqla o, Azərbaycanın başqa şəhərləri arasında görkəmli yer tutur[1].

Kənd təsərrüfatının inkişaf tarixi insanların cəmiyyət halında təşəkkül tapıb formalaşması və oturaq həyat tərzinə keçməsi ilə bir vaxta düşür. Elə bu vaxtdan da əkinçilik və heyvandarlıq məhsullarına olan ehtiyac həmin sahələrin yaradılmasına və inkişafına səbəb olur. Əmək alətlərinin təkmilləşdirilməsi, habelə heyvan qüvvəsindən təsərrüfat işlərində istifadə edilməsi cəmiyyətin ilk inkişaf dövrünə nisbətən əmək məhsuldarlığının artmasına səbəb olur.

---

[1] История Азербайджана. Т.И. Азерб. ССР. Баку, Издательство АН, 1958.

İnsanların şüuru, əmək vərdişləri və istehsal təcrübələri artdıqca onlar yalnız şəxsi yaşayışı üçün zəruri olan məhsulları deyil, eyni zamanda izafi məhsul da hazırlayırlar. Beləliklə, işçinin əməyinin bir hissəsini mənimsəmək imkanı, yəni insanın insan tərəfindən istismar edilməsi üçün iqtisadi şərait yaranır. Bu şəraitdə istehsal alət və vasitələri üzərində xüsusi mülkiyyət meydana gəlir, ibtidai icma quruluşu dağılır, köhnə istehsal münasibətləri dəyişir və sinifli cəmiyyət yaranır.

Geniş torpaq sahələrindən istifadə olunması prosesi yaranır, məhsul istehsalı artmağa başlayır.

Ölkəmizi gəzmiş xarici səyyahların «Albaniya bol məhsullu, zəngin ölkədir» yazılarına tez-tez rast gəlirik. Yunan coğrafiyaşünası Strabonun alban torpağının son dərəcə münbit və məhsuldar olması haqqında yazdığı: «çox vaxt bir dəfə əkilmiş torpaq iki və hətta üç dəfə məhsul verir, birinci dəfə, hətta dincə qoyulmadan və sadə xışla becərilən torpaq birə-əlli məhsul verir»[1] sözlər daha səciyyəvidir.

Şübhəsiz ki, Strabonun albanların eyni sahədən bir neçə dəfə məhsul götürmələri fikri bir tərəfdən torpaqların münbitliyi və digər tərəfdən xora məhsulu ilə əlaqədar olmuşdur. Bu haqda T.Bünyadov yazır: «Adətən bir il əkilən sahə məhsulu götürüldükdən sonra o biri il dincə qoyulur. Lakin həmin sahədə keçən ilin məhsulunun müəyyən hissəsi taxılın quruması və gec biçilməsi üzündən torpağa tökülür.Buna görə bəzən dincə qoyulan fakta əsaslanaraq ehtimal etmək olar ki, Strabonun albanların zəmilərə o qədər də qulluq etməmələri və eyni sahədən bir neçə dəfə məhsul götürmələri fikri həm torpağın münbitliyi və həm də xora məhsul götürməklə əlaqədar olmuşdur»[2].

---

[1] Страбон. География (перевод В.В.Латышева); Известия древних писателей о Скифии и Кавказе. ВДИ, №4, 1947, стр. 220

[2] T.Bünyadov. Azərbaycanda əkinçiliyin inkişafı tarixinə dair. Bakı, 1964, səh. 8.

Görünür ki, Nizami Gəncəvinin:
«Bu ölkə cənnət tək gözəl bir yerdi
Torpağı əkinsiz məhsul verirdi»[1].

beyti də həm xora, həm də torpağın münbit olmasına işarədir. Strabonun «birə-əlli məhsul almaq» fikrini tarixçi S.M.Qazıyev aydınlaşdıraraq göstərir ki, «kəndlilər bir çanaq taxıl əkərək, bir tağar (60 çanaq) məhsul götürürdülər»[2].

Ərəb səyyahı Yaqut Həməvi XIII əsrin birinci rübündə özünün Azərbaycanda, o cümlədən Naxçıvanda olmasından bəhs edərək yazmışdı: «Mən heç yerdə oradakı qədər çoxlu bağ, çoxlu su və bulaq görməmişəm»[3]. Bunlar bir daha sübut edirki, hələ çox qədim zamanlarda belə Azəri ölkəsinin şöhrəti öz hüdudlarından çox uzaqlarda yayılmışdı.

Tarixi məxəzlərdən görünür ki, Naxçıvan ərazisində dəmir və cüt əkinçiliyi forması orta əsrdə daha geniş yayılmışdı. Dəmirin tapılması ondan əvvəlcə bəsit və zaman keçdikcə mükəmməl alətlərin hazırlanmasına səbəb olmuşdu.

Dəmirdən hazırlanan bəsit kotanlar başlıca olaraq varlı təbəqəyə aid kəndlilərin əkinçiliyində istifadə edilirdi. Bunun əsas səbəblərindən biri kotanın baha qiymətə satılması və ikincisi, kotana 6-8 öküz və ya kal qoşulması zəruriyyəti idi. Çünki kəndlilərin çoxunun bir və ya iki başdan artıq iş malı yox idi. Buna görə də qoşa iş heyvanı olmayan kəndlilərdən «bir neçə qonşu öz iş heyvanlarını toplayıb müvəqqəti şirkət təşkil edib, torpaqlarını növbə ilə şumlayıb əkirdilər»[4].

---

[1] Nizami Gəncəvi. İsgəndərnamə, II hissə (İqbalnamə), Bakı, 1941, səh. 114.

[2] S.M.Qazıyev. Qəbələ mahalının qədim tarixindən. Qafqaz Albaniyası tarixi məsələləri. Bakı, 1962, səh. 92

[3] Якут Хамави. Географический словарь (перевод П.К.Жузе). Azərb. SSR EA Tarix İnstitutunun elmi arxivi, IV, 504, səh. 74.

[4] К.Т.Каракашлы. О пережитках древнего института взаимопомощи в Азербайджане. Изв. АН. Азерб. ССР, 1958, №2 стр. 51.

Şumlamada kotanın, sahələrin sahmana salınmasında malanın, biçində orağın, çinin, dəryazın işlədilməsi dövrünə görə çox mütərəqqi hal idi. Taxılın döyülməsi əvvəlcə əl əməyinə əsaslandığı halda, sonra heyvanların təsərrüfat işində istifadə olunması ilə əlaqədar olaraq vəl və carcardan da istifadə olunurdu. İnsanların şüuru və həyat təcrübəsi artdıqca taxıl istehsalının artırılması ilə yanaşı eyni zamanda dənin dəyirmanlarda üyüdülməsi zəruriyyəti də meydana gəldi. K.Marks göstərir ki, «maşının bütün inkişaf tarixini un dəyirmanının inkişaf tarixində görmək olar»[1]. Deməli, əhalinin taxıldan un hazırlanmasında dəyirmanların böyük əhəmiyyəti olmuşdur. O vaxt buğda və arpa əkinçilikdə əsas yeri tuturdu. Lakin darı, çəltik, paxlalılar və başqa dənli bitkilər də becərilirdi. Buna görə də heç təsadüfi deyildir ki, Qafqaz ərazisi əksər buğda növlərinin vətəni sayılır.[2] Eramızın I əsrində yaşamış Roma yazıçısı Böyük Pliniy yazır ki, "buğdadan məhsuldar bitki yoxdur"[3].

Buğda çox artımlı bir bitki olub insanların tələbatını ödəməkdə mühüm rol oynayır. Taxıl növləri içərisində ən çox yayılanı yumşaq və bərk buğda olmuşdur.

İran tarixçisi Həmdullah Qəzvini «Nuhzətul-Qlub» əsərində Azərbaycanın müxtəlif ərazisində taxılın yalnız XIV əsrdə deyil, ondan çox-çox qabaqkı dövrlərdə də becərildiyini qeyd edir. Bu əsərdə Naxçıvanda və Ordubadda taxılın geniş sahələrdə becərildiyi göstərilir. Nizami Gəncəvinin əsərlərində isə arpa, buğda, darı, çəltik və başqa dənli bitkilərin də adı çəkilir. O zaman torpaq xışla becərilir və sahələrə çox nadir hallarda peyin verilirdi. Şərur çəltiyinin düyüsü təkcə ölkə daxilindəki bazarlarda deyil, eyni zamanda İran və Türkiyə bazarlarında da şöhrət qazanmışdır. Şərur-Dərələyəz qəzasının

---

[1] K.Marks. Kapital, I-ci cild, Bakı, 1949, səh. 284.

[2] Катон, Варрон, Калумелла, Плиний. О сельском хозяйстве. М., 1957, стр. 282.

[3] Həmdullah Qəzvini. «Nuhzətul-Qlub» (tərcüməsi A.Qasımzadənindir). Azərb. EA Tarix İnstitutunun elmi arxivi № 1700, səh. 122.

Araz və Arpaçayı, Ordubad məntəqəsinin Aza və Əylis çayları ətrafındakı torpaqlarında çəltik əkilirdi. Paxlalı bitkilər başlıca olaraq dağ və dağətəyi kəndlərində yetişdirilirdi. 1904-1912-ci illərin məlumatına görə əkilmiş sahələrdən 7-8 sentner taxıl məhsulu götürülmüşdü. Bu, dənli bitkilərin bəsit kənd təsərrüfatı alətləri ilə becərilməsi, sort olmayan toxumların əkilməsi, biçin dövrünün uzanması, vaxtaşırı baş verən quraqlığın nəticəsində zəmilərin məhsul verməməsi, çəyirtkə və sair zərərvericilərlə zəif mübarizə aparılması ilə izah olunurdu. Buna baxmayaraq, Naxçıvanın taxılı həm əhalinin tələbatını ödəyir, həm də əmtəə məhsulu kimi bazara çıxarılırdı.

Bütün Azərbaycanda olduğu kimi, Naxçıvan əyalətində də aztorpaqlı kəndlilər hər il eyni sahədə taxıl əkməyə məcbur olurdular. Belə torpaqlar həmişə əkin altında olurdu. Tədricələ təbii münbitlik azalırdı. Torpağın şumlanması düzənlik yerlərdə 2-4 öküz və ya kəl qoşulan cüt və ya 6-8 öküz qoşulan bəsit kotanlarla aparılırdı, lakin mülkədar təsərrüfatlarında təkmilləşdirilmiş kənd təsərrüfatı alətlərindən istifadə olunduğundan əkinlərin becərilməsi nisbətən intensiv aparılırdı. Bir çox kəndlərin bazarlardan uzaqda olmasına və nəqliyyat xərclərinin çoxluğuna görə kəndlilər istehsal etdikləri məhsulları dəyər-dəyməzinə kənd alverçilərinə və ya onların agentlərinə satmağa məcbur olurdular. Möhtəkirlər taxıl istehsalçılarını sıxışdırıb hədsiz dərəcədə istismar edir və bir çox hallarda onları borca salırdılar.

Naxçıvanda ixrac olunan taxıl içərisində çəltik görkəmli yer tuturdu. Noraşen stansiyasından 1911-ci ildə 8820 pud, 1912-ci ildə 24383 pud və 1913-cü ildə 15080 pud xaricə düyü aparılmışdı[1].

XVIII əsrin axırlarında Naxçıvan xanlığı yenidən İran dövlətinin təsiri altına düşür. İran işğalçılarının ağır zülmü Naxçıvanın təsərrüfat və mədəni həyatında özünün ən dərin mənfi təsirini buraxmışdır. İran qəsbkarları Naxçıvana özlərinin bir gəlir mənbəyi kimi baxırdılar. Yerli əhali ağır feodal mülkiyyətlərini yerinə yetirərək, son dərəcə istismar olunurdu. Yadelli işğalçıların zorla tabe edilən xalqa qarşı münasibəti

---

[1] Краткий обзор коммерческой деятельности Закавказской железной дороги, 1914, стр. 209.

Naxçıvan xanlığı üzrə hakim olan sərdarların birinin sözlərində olduqca aydın ifadə edilmişdir: «Mən onları o vəziyyətə gətirəcəyəm ki, yeddi ailənin bir yırtıq qazanı qalsın»[1]. Buna görə heç də təsadüfi deyil ki, Naxçıvan xanlığı İran-Rusiya müharibəsində bölüşdürülür: Cənubi Azərbaycan İrana, Şimali Azərbaycan Rusiya imperiyasına verilir. Bu ərəfədə ölkənin iqtisadiyyatında tam bir gerilik hökm sürürdü.

XIX əsrin birinci yarısında, yəni Naxçıvan xanlığı Rusiyaya verildiyi dövrdə vilayətin xalq təsərrüfatının əsasını başlıca olaraq əkinçilik və heyvandarlıq təşkil edirdi. Əkinçilikdə əsas yeri taxılçılıq tuturdu. Ən çox geniş yayılan taxıl bitkilərindən buğda və düyü Arazboyu düzənlikdə geniş yayılmışdı. Pambıq o zaman əkinçilikdə çox da böyük olmayan sahələri tutaraq, Şərqi Arpaçay və Naxçıvan çayının hövzəsində yayılmışdı.

Rusiyada sənayenin inkişafı və xammala olan ehtiyacın artması ölkə daxilində bir sıra yeni təsərrüfat sahələrinin yaradılmasına təsir göstərmişdi. Bunlardan birincisi pambıqçılıq idi.

Çox qədim zamanlardan bəri Naxçıvanda inkişaf etdirilən təsərrüfat sahələrindən biri pambıqçılıq idi. Tarixçilər göstərirlər ki, pambığın inkişaf tarixi çox qədim olub, III geoloji dövrün başlanğıcına aiddir.[2] Mövcud ədəbiyyatda isə pambığın eramızdan əvvəl Hindistandan İrana və İrandan Naxçıvana və onun vasitəsilə Zaqafqaziyaya yayılması göstərilir.[3] Alban tarixçisi Moisey Kaqankavatsi özünün "Ağvan tarixi" əsərində Naxçıvan əyaləti ərazisində taxıl, şərab, neft, duz, ipək və başqa şeylərlə bərabər pambığın da adını çəkir[4]. Tarixi mənbələrdən götürülən məlumatlar sübut edir ki, era-

---

[1] И.Шопен. Хозяйственные очерки части Аракской долины, вошедшей в состав Грузино-Имеретинской губернии. СПб, 1843.

[2] Д.В.Тер-Аванесян. К история хлопководства в СССР, М-Л., 1956, том 11, стр. 561.

[3] Yenə orada, səh. 562

[4] Моисей Каранкатватси. История Агван. СПб, 1861, стр. 5-6.

mızın VII əsrlərindən sonrakı dövrlərdə Azərbaycanda, o cümlədən Naxçıvanda pambıqçılıq daha sürətlə artmışdı. X əsrdə yazılmış "Hüdudul-aləm" adlı coğrafi əsərdə göstərilir ki, Azərbaycan əyalətlərindən başqa şeylərlə bərabər pambıq da ixrac olunurdu və o, ticarətdə mühüm yer tuturdu[1].

Bu haqda tamamlanmış fikri XII əsrin görkəmli şairi Xaqani Şirvaninin əsərlərində də tapmaq mümkündür. O yazır:

Gecələr səmaya baxılsa əgər,
Pambıq tarlası tək görünər göylər[2].

Böyük şairin pambıq tarlasını göylərlə müqayisə etməsi Azərbaycanda pambığın nəinki mövcud olmasını, hətta geniş sahələrdə əkilməsini göstərir. O zaman Azərbaycan kəndlərinin çoxunda becərilən pambığın məhsulundan orta əsrlər dövrünün görkəmli şəhərlərində-Bərdə, Beyləqan, Gəncə, Naxçıvan və başqalarında müxtəlif pambıq parçalar toxunurdu.[3]

Eramızın XIV əsrində yaşamış İran tarixçisi Həmdullah Qəzvini özünün "Nuhzətul-Qlub" əsərində Naxçıvan və Ordubad şəhərlərinin ətrafında pambıq yetişdirildiyini xəbər verir.[4]

XII əsr türk səyyahı Övliyyə Çələbi özünün "Səyahətnamə" əsərində təkcə Naxçıvan ərazisində Zəki, Manlayı, Zəfərani, Lali, Bəyazi, Xass və başqa növ pambıq becərildiyini qeyd edir[5].

Pambıqçılığın ilk inkişaf dövründə istehsal olunan məhsul yalnız yerli xarakter daşıyaraq əhalinin ehtiyacı üçün

---

[1] «Hüdudul-aləm». Azərbaycan SSR EA Tarix İnstitutunun elmi arxivi, №256, səh. 3.

[2] Xaqani Şirvani. Seçilmiş əsərləri, Bakı, 1956, səh. 24.

[3] T.Bünyadov. Azərbaycanda əkinçiliyin inkişaf tarixinə dair. Bakı, 1964, səh. 88.

[4] Həmdullah Qəzvini. Göstərilən əsəri, səh. 122-137.

[5] R.J.Qəhrəmanov. Naxçıvanda k/t-nın inkişafı tarixindən. Azərb. SSR EA xəbərləri, №1, 1960.

(geyim paltarı, palaz, cecim toxumaqda) istifadə olunurdu. Naxçıvan vilayətində 1845-ci ildə 300 desyatin və 1850-ci ildə isə 330 desyatin sahədə pambıq əkilirdi. Lakin 1894-cü ildə Rusiyaya xaricdən gətirilən pambığın üzərinə qoyulmuş gömrüyün 3 manat 15 qəpikdən 1900-cü ildən 4 manat 15 qəpiyə qaldırılması ölkədə pambığın qiymətinin artmasına səbəb oldu. 1872-ci ilin əvvəllərində pambığın pudu Naxçıvanda 3 manata satılırdısa, bundan sonra onun qiyməti 22-33 manata qalxmışdı ki, bu da xeyli təkamülə səbəb oldu[1]. Əmtəə-pul münasibətlərinin genişləndirilməsi və pambığın yüksək qiymətə satılması onun sahəsini genişləndirir və məhsuldarlığını artırırdı. İlk dövrlərdə pambıq Azərbaycanın ancaq Naxçıvan, Şamaxı və Cavanşir qəzalarında becərildiyi halda, sonralar Bakı və Yelizavetpol quberniyasının başqa qəzalarında da yayıldı.

1866-cı ildə toxuculuq sənayesi sahibkarları ölkə daxilində pambıq istehsalını artırmaq üçün bir sıra tədbirlər işləyib hazırladılar. "Qafqaz sənaye cəmiyyəti" yeni suvarma sistemlərini işə salmağa və əlverişli torpaqları pambıq üçün istifadə etməyə ciddi səy göstərdi.

Pambıqçılıqda muzdlu əməyin tətbiqi onun kapitalist əmtəə xarakterini göstərirdi. O zaman pambığın məhsuldarlığı çox aşağı idi. Bu, kənd təsərrüfatı texnikasının geriliyi, torpağın düzgün becərilməməsi və əkinlərə lazımi aqrotexniki xidmətin olmaması, suvarma suyunun çatışmaması və s. ilə izah olunurdu.

İstehsal toxuculuq sənayesinin tələbatını ödəyə bilmirdi. Məhz buna görə də toxucu fabrik sahibləri XIX əsrin son rübündə Orta Asiya və Zaqafqaziyada pambıqçılığı inkişaf etdirməyə çox səy göstərirdilər.

1890-cı ildə Rusiyanın ucqarlarında istehsal edilən məhsul Rusiya fabriklərində işlədilən bütün pambığın 23,8%-ni təşkil edirdisə, 1900-cü ildə 32,2%-ni, 1910-cu ildə isə artıq 50,9%-ni təşkil edirdi[2]. Vaxtı ilə əhalinin ancaq öz ehtiyacını

---

[1] П.Петрович. «Хлопководство в Закавказьи» Тбилиси, 1912. стр. 32.
[2] П.А.Хромов. Экономическое развитие России в XIX - XX веках. Госполизлат. 1950, стр. 303-304.

təmin edən pambıqçılıq bundan sonra əmtəə xarakteri daşıyır, sahəsi genişləndirilir və məhsuldarlığı artırılırdı. Təkcə onu göstərmək kifayətdir ki, 1890-1914-cü illər arasında pambığın ümumi sahəsi 61,5% və məhsuldarlığı 40%-dən çox artmışdı.

Pambıq əkini sahəsi 1890-cı ildə Naxçıvanda 5880 desyatin olduğu halda 1910-cu ildə 9700 desyatin, 1911-ci ildə 11800 desyatin, 1912-ci ildə 9800 desyatin və 1914-cü ildə 9500 desyatin olmuşdu. Pambıqçılıq Naxçıvan və Şərur-Dərələyəz qəzalarının Araz vadisi düzənliyində becərilirdi. Aqronom P.Petroviç yazır: "1912-ci ildə Şərur-Dərələyəz qəzasında hər desyatin pambıq əkini sahəsindən 40-120 puda qədər, Naxçıvan qəzasında isə 54 pud pambıq istehsal edilmişdir"[1].

O zaman aparılan hesablamalara görə bir desyatin yerli "qara-qoza" növ pambığın becərilməsinə 53 manat 35 qəpik və bir desyatin "Amerika" növlü pambığa 49 manat 25 qəpik xərc çəkilirdi. Bir desyatin pambıqdan alınan ümumi gəlir "qara-qoza" növündən 102 manatı və "Amerika" növündən 131 manatı təşkil edirdi. Beləliklə, hər desyatindən 66 manat 55 qəpik xalis gəlir götürülürdü.[2]

1866-cı ildə Şərur-Dərələyəz qəzasının Yenicə kəndində B.Yaroslavelski qardaşlarının manufakturasının kontoru təşkil edilir[3]. Bu kontor pambıq almaqla bərabər eyni zamanda "Amerika" növlü çiyidin toxumunu yaymaq və hazır pambığı çiyiddən təmizləmək üçün çin və tay bağlayan preslər hazırlamaqla məşğul idi. Kontorun özünün pambığın çiyidini çıxaran zavodları da var idi. Bundan başqa, 1912-ci ildə Naxçıvanda 44 və Şərur-Dərələyəz qəzasında 49 kiçik, az istehsal gücünə malik pambığın çiyidini çıxaran müəssisələr də geniş fəaliyyət göstərirdi.

Beləliklə, pambıqçılığın inkişafı üçün yaranan obyektiv şərait bu sahənin daha çox tərəqqisini tələb edirdi. Lakin pambıq üçün yarayan torpaqların hamısının bu məqsəd üçün

---

[1] И.В.Авалишвили. Площадь, сбор и урожайность хлопчатника Закавказья в 1909-1941 гг. и 1924-1928 гг., Тбилиси, 1928, стр. 12-18

[2] Ереванский сборник, вып. 1, Еревань, 1892.

[3] Yenə orada.

istifadə edilməsini birinci növbədə suvarma suyunun çatışmaması məhdudlaşdırırdı. Çünki burada kənd təsərrüfati bitkilərinin, birinci növbədə pambıqçılığın inkişafı normal suvarma aparılmasından asılı idi. Su ehtiyatlarını artırmaq üçün bir sıra baş kanalların çəkilməsi, su anbarlarının tikilməsi, kəhrizlərin artırılması və sair tələb olunurdu. Şübhəsiz ki, bu tədbirlərin görülməsi çar mütləqiyyəti şəraitində mümkün deyildi. Mövcud suvarma mənbələri bəylərə, xanlara və mülkədarlara məxsus idi. Adətən, onların əkinləri suvarma mənbələrinin yaxınlığında olduğu üçün suvarma suyundan kifayət qədər istifadə etdiklərinə görə əlavə xərc qoyub, su ehtiyatı yaratmağa maraqlı deyildilər. Kəndlilərin əkinləri isə bu mənbələrdən çox uzaqlarda yerləşirdi. Onlar müvafiq su mənbələrinə sahib olmadıqlarına görə həmişə mülkədarlardan asılı vəziyyətdə idilər. Buna görə də kəndlilər həmişə bu acınacaqlı vəziyyətdən şikayətlənərək deyirdilər:

Yuxarıda yer suvarırlar,
Aşağıda qan ağlayırlar.

Pambıq və digər kənd təsərrüfatı bitkiləri inqilaba qədər əsasən ibtidai üsullarla, bəsit alətlərlə becərilirdi. Lakin Rusiyada toxuculuq sənayesinin inkişafı ilə əlaqədar olaraq, Zaqafqaziyada və Türküstanda pambıqçılığa daha çox əhəmiyyət verilirdi. Pambıqçılığı genişləndirmək üçün təşkil olunan "Qafqaz kənd təsərrüfatı cəmiyyəti" pambıqçılar arasında təcrübə mübadiləsi, pambıqçıların qurultayını və müşavirələrini keçirirdi.

Qafqaz pambıqçılarının birinci qurultayı 1904-cü ildə və ikinci qurultayı 1912-ci ilin noyabrında Tiflisdə olmuşdur. Qurultayda pambıqçılıqla məşğul olan bütün qəzaların nümayəndələri, o cümlədən Naxçıvan pambıqçıları iştirak etmişdilər[1]. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, pambıqçılıq

[1] Памятная книжка Эраванской губернии, 1913, стр. 7-8.

müşavirələri və qurultayları pambıqçılığın inkişafına çox müsbət təsir göstərirdi.

Zaman keçdikcə pambıq alış-verişi ticarət firmalarının və onların yerlərdəki müvəkkillərinin əlinə keçmişdi. Qeyd etmək lazımdır ki, Naxçıvanın xalq təsərrüfatının bir çox sahələrinin məhsulu nəinki onun yaxınlığında yerləşən rayonlara, eyni zamanda daha uzaq ölkələrə satılmağa aparılırdı. Lakin bununla belə ixrac olunan məhsul vilayət daxilində istehsal olunan məhsulun cüzi bir hissəsini təşkil edirdi. Bu da Naxçıvanın iqtisadiyyatında natural təsərrüfat formalarının hakim rol oynadığını göstərirdi. Bu zaman Bayazid, Qars, Tiflis pambıq; İran, Moskva və Nijni Novqoroda ipək; Tiflis və İrana müxtəlif quru meyvələr; Yerevana bez və s. ixrac edilirdi. Naxçıvanlılar yerli, xüsusilə Əylis tacirlərinin vasitəsilə, əsas etibarilə Rusiyaya və İrandan gətirilən hər cür növ mallarla (mahud, müxtəlif çeşidli pambıq, ipək parça, qənd, çay, müxtəlif boyalar, mis və dəmir məmulatları və s.) təmin olunurdular.

Rusiyanın İran dövləti üzərində qələbəsini təsdiq edən məşhur Türkmənçay sülh müqaviləsinə görə (10 fevral 1828-ci il) o zamana qədər İranın təsiri altında olan Naxçıvan xanlığı Rusiya imperiyası tərəfindən işğal edildi.

XIX əsrin 60-cı illərinin başlanğıcında Amerikada Vətəndaş müharibəsi ilə əlaqədar olaraq, toxuculuq sənayesi üçün lazım olan xammalın əsas hissəsini bu ölkədən gətirən Rusiyada «pambıq aclığı» başlayır. Bu hadisə rus toxucu fabrikantlarını Zaqafqaziyada, Türküstanda pambıqçılığı inkişaf etdirmək üçün imkanlar axtarmağa məcbur edir. Həmin illərdə Naxçıvan qəzasının daxil olduğu İrəvan quberniyasına Moskvanın, Lodzun, İvanovo-Voznesenskinin və Rusiyanın bir çox başqa toxucu fabriklərinin nümayəndələri gəlirlər. Onlar indiki Yenkicə kəndində (Şərur rayonu) Azərbaycanda ən böyük xidmət məntəqələrindən birini açaraq, əhalini amerikan növlü pambıq toxumu ilə pulsuz təmin edir, bir çox yerlərdə o zaman üçün mükəmməlləşdirilən dəzgahlarla silahlandırılmış bir neçə pambıqtəmizləyən zavodlar tikir və

pambıqbağlayan məngənə dəzgahları qururlar. Pambıqçılığın inkişafında burada az məhsuldar, qaba və azdavamlı lifə malik olan yerli "qara qoza" növlü pambığın aradan çıxarılmasının və onun əvəzində amerikan pambıq növünün yayılmasının böyük əhəmiyyəti olur. Az müddət keçməmiş pambıqçılıq vilayətin Arazboyu düzənlik hissəsində böyük sahələr tutaraq, burada kənd təsərrüfatının əsas sahəsinə çevrilir və get-gedə daha geniş vüsət tapır.

Qeyd etmək lazımdır ki, 1914-cü ildə bütün Naxçıvan vilayətində 7 min hektara yaxın pambıq əkilirdi. 1890-cı ildə Naxçıvanda 200 min pud pambıq yığıldığı halda[1], 1910-cu ilin məlumatına görə Naxçıvanda 400 min puda (6,4 min ton) qədər pambıq istehsal edilmişdir ki, bu da Zaqafqaziyada istehsal olunan pambığın 17 faizini, Azərbaycanda yığılan pambığın isə 30 faizini təşkil edirdi[2].

Naxçıvanda bu müddət ərzində pambıqçılığın inkişafı boş torpaqlardan istifadəni tələb edir ki, bu da birinci növbədə suvarma şəbəkəsini genişləndirməyi irəli sürür. 1863-1864-cü illərdə qəza rəisi Naxçıvan şəhəri ilə Şıxmahmud kəndi arasında Naxçıvan çayının yaz suları ilə doldurulan 5 hektarlıq bir ərazisində süni bir göl saldırır. Bu gölün vasitəsilə ətraf sahələrdə xeyli xam torpaq istifadəyə verilir. Lakin çox keçmədən gölün dibinə çoxlu lil yığılır və bunu təmizləmək üçün vəsait olmadığından göl tezliklə öz əhəmiyyətini itirir. Şərur dairəsinin şimal-şərq hissəsindəki boş torpaqlardan istifadə etmək məqsədilə o zaman Zaqafqaziyada mövcud olmayan bir suvarma üsulu tətbiq edir. Yayda gərgin suvarma dövründə Arpaçayın suyu son dərəcə azalırdı. Ermənistandan axan Bazarçayın suyundan müəyyən miqdarda Arpaçaya axı-

---

[1] Присоединения Азербайджана к России и его прогрессивные последствия в области экономики и культуры ( XIX и нач. XX в.). Баку, Издательство АН Азербайджанской ССР. 1955.
[2] Сборник статистико-экономических сведений по сельскому хозяйству России и иностранных государств . Петроград. 1916.

daraq, o, bu çaydan Şərur dairəsi daxilində iki suvarma kanalı ilə (indiki aşağı və yuxarı sovxoz kanalları) eyni miqdarda su aparıb iki min desyatinə qədər torpaqdan istifadə edir.

Naxçıvanın düzənlik yerlərinin iqtisadiyyatında bu dövrdə pambıqçılıqdan başqa tütünçülük, taxılçılıq, xüsusilə düyü istehsalı əhəmiyyətli yer tutur.

Texniki bitkilər içərisində tütün ikinci yeri tuturdu. Lakin burada inkişaf etdirilən "güləsər" tütün növü əsasən yerli təmbəki növündən ibarət olub, sənaye emalından keçmədən istifadə olunurdu. Tütünün ümumi sahəsi bütün əyalətdə 80-100 hektarı təşkil edib, kiçik həyətyanı sahələrdə yerləşirdi. Əldə olan məlumata görə Naxçıvan qəzasında 1901-ci ildə 598 pud[1],1903-cü ildə 327 pud[2], 1904-cü ildə isə 313 pud[3] tütün istehsal olunmuşdu. Aparılan hesablamalara görə, bir desyatin tütünün yetişdirilməsinə 50-75 manat sərf edilirdi. Ümumi gəlir hər desyatindən orta hesabla 180-250 manata çatırdı ki, bu da tütünün keyfiyyətindən və onun bazar qiymətindən asılı idi.

Azərbaycanda tütünçülük əmtəə xarakteri daşıdığı halda Naxçıvanda yerli əhəmiyyət kəsb edirdi.

Naxçıvanda çoxdan inkişaf etdirilən və iqtisadi əhəmiyyətinə görə yüksək gəlir verən təsərrüfat sahələrindən biri də bağçılıq idi. Bir çox müəlliflər tarixi məxəzlərə əsaslanaraq göstərirlər ki, Naxçıvanda bağçılığın inkişafı təqribən üç min beş yüz illik tarixə malikdir. Bunu ərazidə aparılan arxeoloji qazıntılar zamanı aşkar edilən müxtəlif meyvə və üzüm saxsı qablar da sübut edir.

Bu haqda məşhur sovet alimi N.İ.Vavilov yazır: "Zaqafqaziya dünyada bir sıra bitkilər, xüsusilə meyvələrin (üzüm, armud, alça, nar, heyva və s.) mədəniləşməsinin ilk vətənidir". .

---

[1] Сборник статистических данных о землевладениях и способах хозяйства в пяти губерниях Закавказского края, 1897, стр. 30.

[2] Кавказский календарь, 1903, 111 şöbə, səh. 68-69.

[3] Yenə orada.

Buna, eyni zamanda Naxçıvanın dağətəyi və dağlıq zonasında yabanı halda bitən armud və badam ağaclarının bu vaxta qalmış nümunələri də misal ola bilər.

Məşhur səyyah Yaqut Həməvi Naxçıvanın təsərrüfat həyatından bəhs edərək yazır: "Bunun yaxınlığından Araz çayı axır. Oradakı gözəl narların bərabərini mən hələ heç bir şəhərdə görməmişəm, burada həm də yaxşı əncir bitir".[1]

Başqa bir məxəzdə göstərilir ki, vaxtı ilə nar ağacı bir sıra xalqlar arasında, o cümlədən Azərbaycanda müqəddəs hesab edilirdi. Nar suyundan narşərab hazırlandığı kimi, onun qabığından da boyaqçılıqda geniş istifadə etmişlər. K.V.Trever göstərir ki, bu ağac (nar) qədim şərq xalqları arasında məhsuldarlıq rəmzi hesab edilirdi[2].

Meyvəçilik haqqında Azərbaycan tarixində göstərilir ki, Azərbaycanın təsərrüfat həyatında üzüm, meyvə və başqa bitkiləri becərmək, şərabçılıq və meyvə qurutmaq görkəmli yer tuturdu.

Həmdullah Qəzvini Naxçıvanın təsərrüfat məşğuliyyəti haqqında daha dolğun məlumat verərək göstərmişdir ki, "Ordubad bir qəsəbədir, çoxlu bağları var, yaxşı üzümü, taxılı, pambığı var"[3]. Bu fikir bir daha onunla sübut edilir ki, hələ çox qədimdən Yaxın Şərq ölkələri ilə sıx iqtisadi əlaqədə olan Naxçıvan ölkəsində bağ və bostançılıq xüsusilə inkişaf etmişdir. Buna görə də meyvə bağlarının gözəlliyindən və məhsuldarlığından bəhs edən Nizami Gəncəvi çox həvəslə yazır:

---

[1] Якут Хамави. Географический словаръ (перевод П.К.Жузе).Azərb.SSR EA Tarix İnstitutunun elmi arxivi, IV,504, səh.74.

2 К.В.Тревер. Очерки по истории и культуре Кавказской Албании, м-л. 1956. стр. 316.

[3] Həmdullah Qəzvini. «Nuhzətul-Qlub» (tərcüməsi A.Qasımzadənindir). Azərb. EA Tarix İnstitutunun elmi arxivi № 1700, (tərcüməsi A.Q.Qasımzadənindir).

Elə ki, yetirir baxçalar barı,
Kəndlilər unudur onda talvarı,
Meyvələr çoxalır, bağlar varlanır,
Belə bir bolluqdan yer vüqarlanır[1].

Meyvəçilik XIX əsrin əvvəllərindən etibarən daha geniş əmtəə xarakteri daşımağa başlamışdır. İstehsal olunan meyvə qurudulmuş halda bir çox bazarlara çıxarılmışdır. Meyvə istehsalına görə ixtisaslaşmış Ordubadın müxtəlif çeşidli məhsulları, xüsusilə meyvə qurusu ticarətdə mühüm yer tuturdu.

Həyat sübut etmişdir ki, Ordubadın aztorpaqlı kəndliləri öz kiçik torpaq sahələrini meyvə və tut bağları üçün istifadə etməkdə çox ağıllı hərəkət etmişlər. Meyvəçiliyə görə ixtisaslaşmış təsərrüfatlar o zaman özlərini taxıla və başqa məhsullara olan ehtiyacını iki yolla: a)natural halda-meyvə məhsullarını başqa məhsullarla mübadilə etməklə; b)meyvəni satıb lazım olan məhsulları almaqla təmin edirdilər.

Vaxtilə istehlak məqsədi daşıyan meyvəçilik sonralar cinsi halda mübadiləyə və getdikcə bilavasitə əmtəə xarakteri daşımağa başlamışdır. Burada yetişdirilən ərik, şaftalı, alma, armud, gilənar, gilas, albuxara, alça, badam, qoz, əncir, heyva, nar, üzüm və başqa meyvələr çox qədim zamanlardan bəri xalqımızın süfrəsini bəzəyən gözəl nemətlər idi. Bundan başqa, Naxçıvandan meyvə, üzüm təzə və qurudulmuş halda bir çox daxili və xarici bazarlara çıxarılmışdır. Meyvə ticarətinin genişlənməsində əvvəlcə Zaqafqaziya dəmir yolunun çəkilməsi və sonralar Tiflis, Yerevan, Culfa və Təbriz dəmir yolu xəttinin əlaqələndirilməsi çox böyük rol oynamışdır. 1913-cü ilin məlumatına görə Culfa dəmir yolu stansiyasından Peterburqa 33672 pud, Odessaya 72556 pud, Taqanroqa 20930 pud, Nikolayevə 41221 pud, Rostova 78020 pud, Novorossiyskə 32676 pud və Həştərxana 68397 pud qurudulmuş meyvə və üzüm göndərilmişdir.

Beləliklə, əyalətdən ixrac olunan meyvə və üzüm qurusu 447472 pudu və ya 735,5 tonu təşkil edirdi. Başqa bir məxəzdə göstərilir ki, kənara göndərilən meyvə və üzüm məh-

---

[1] Nizami Gəncəvi. İsgəndərnamə, səh. 172-173.

sullarının miqdarı bir çox hallarda 0,8-1,2 milyon pudu və ya 12800-19200 tonu təşkil edirdi[1].

Bağçılığın inkişafına və əmtəəlik məhsulun artırılmasına birinci növbədə Naxçıvanın böyük karvan yolu üzərində yerləşməsi və Naxçıvan xanlığının İran işğalından qurtarıb Rusiya tərkibinə daxil olması təsir göstərmişdir. Bu, Rusiyanın ucqarlarında, o cümlədən Naxçıvanda yetişdirilən cənub meyvələrinin şimala aparılmasına və şimalla cənub arasında qarşılıqlı ticarət əlaqəsinin yaradılmasına səbəb olmuşdur. Naxçıvan əyalətindəki meyvə bağlarının sahəsi 1910-cu ildə 970 desyatin, üzümlüklər isə 1465 desyatin təşkil edirdi. Beləliklə, cəmi meyvə və üzüm bağlarının 2441 desyatini və ya 81,4%-i Naxçıvan və 18,6%-i Şərur-Dərələyəz qəzalarında becərilirdi.

Bu bağların təqribən 500 desyatini təkcə Ordubad mahalında idi. Lakin mövcud bağlar çox bəsit alətlərlə becərilirdi. Görülən işlər əl əməyinə əsaslanırdı. Çox nadir hallarda bağlara gübrə verilirdi. Çox zaman bağların meyvəsini çəyirtkə və başqa zərərvericilər tələf edirdi.

1904-cü illə 1910-cu il arasında hər desyatin meyvə bağından götürülən məhsul ən azı 24 sentneri (1905) və ən çoxu 50 sentneri (1909) təşkil etmişdir. Ümumi istehsal həmin illərdə ən azı 494,2 tonla ən çoxu 816,0 ton arasında dəyişmişdir. Başqa sözlə, son 7 ildə orta hesabla hər il 583,3 ton meyvə istehsal olunmuşdur.

Bəzi illərdə istehsalın azalması burada bir tərəfdən meyvəçiliyə xas olan vaxtaşırı məhsul verməmək kimi «təbii qanunauyğunluq», digər tərəfdən isə meyvənin yetişdirilməsi zamanı baş verən fəlakətlərə qarşı mübarizənin zəif aparılması ilə izah olunurdu.

XIX əsrin ikinci yarısından başlayaraq Ordubadda və Naxçıvanda əmtəəlik bağçılıq daha geniş sahələrdə inkişaf et-

---

[1] Prof. M.Ə.İsmayılov. XX əsrin əvvəllərində Azərbaycanın kənd təsərrüfatı. Bakı, 1960, səh. 85.

miş və Ordubad meyvələrinin şöhrəti Naxçıvan qəzasından xeyli uzaqlara yayılmışdı.

Bunu göstərmək kifayətdir ki, 90-cı illərin ortalarında Ordubaddan Yerevan şəhərinə hər il 15 min puda qədər təkcə ərik qaxı aparılırdı. Bu əyalətdən Rusiya bazarlarına başqa meyvələr, xüsusilə çoxlu tut qurusu da göndərilirdi. Çünki Ordubad kəndlərində əyalətin başqa məntəqələrinə nisbətən daha çox miqdarda tut qurudulurdu[1].

Ordubadın quru tut meyvəsi yüksək keyfiyyətinə görə Zaqafqaziyanın başqa mahallarında hazırlanan məhsullardan fərqlənir və baha qiymətə satılırdı. Meyvə əvvəllər dəvə karvanları, sonralar isə Culfa dəmir yolu vasitəsilə daxili və xarici bazarlara göndərilirdi. Əldə olan məlumatlara görə 1912-ci ildə Culfa stansiyasından 773718 pud (12379,5 ton), 1913-cü ildə isə 1452480 pud (23239,7 ton) meyvə və qurusu ixrac olunmuşdu[2].

Prof. Ə.Rəcəblinin məlumatlarına görə Ordubadda yetişdirilən «Abtalıbı» əriyi 1898-ci ildə Amerikanın Kaliforniya ştatında təşkil olunmuş dünya meyvəçilik sərgisində birinci mükafata layiq görülmüşdür.

Bağçılığın inkişafına baxmayaraq, Naxçıvan əyalətində meyvəçilik məhsullarını emal edən sənaye müəssisəsi yox idi. Meyvə emalı, demək olar ki, əhalinin özü tərəfindən sadə formada, daxili istehlak üçün aparılırdı.

Əlverişli torpaq-iqlim şəraiti, ərazinin İran və Türkiyə ilə həmsərhəd olması, müxtəlif dövrlərdə bu ölkələrlə yaranan qarşılıqlı iqtisadi və mədəni əlaqələr üzümçülüyün inkişafına və bir çox qiymətli üzüm növlərinin yaranmasına səbəb olmuşdur.

---

[1] Академик А.С.Сумбат-заде. Сельское хозяйство Азербайджана в XIX веке, стр. 232.

[2] Краткий обзор коммерческой деятельности Закавказской железной дороги, 1914, стр. 226.

Vaxtı ilə Albaniyada əkinçilik və maldarlığın inkişafı ilə yanaşı eyni zamanda üzümçülüyün inkişafına çox böyük əhəmiyyət verilmişdi. Buna görə də üzümçülük yerli əhalinin məşğuliyyətində əhəmiyyətli yer tutmuşdu. Strabon özünün «Coğrafiya» əsərində Alban ərazisində üzümçülüyün geniş sahələrdə yayıldığını göstərmişdi. O yazır: «Burada üzüm tənəklərini basdırmırlar, tənəklərin başı 5 ildən bir dəfə budanır, yeni salınmış tənəklər üçüncü ildən başlayaraq bar verir. Köhnə tənəklər o qədər məhsul yetişdirir ki, üzümün müəyyən hissəsi tənəklərdə dərilməmiş qalır»[1].

XIII əsrdə yazılmış «Əcaibəd-dünya» adlı coğrafi əsərdə Naxçıvan şəhərindən bəhs edilərək göstərilir ki, buranın meyvələri çox ləzzətlidir. Üzümdən yaxşı və cana xeyirlisi yoxdur. Bu fikri T.Bünyadov belə aydınlaşdırır: «Ordubadın bəzi kəndlərində şəfehi növlü üzümdən xəstəlik zamanı geniş istifadə edilir. Şəfehi yəqin ai şəfa sözündən olub, xəstələrə şəfa vermək mənasını daşıyır. Bu üzüm zəifdüşmə, ürək xəstəliyi, qan azlığı və bir sıra başqa xəstəliklərin dərmanıdır. Buna görə də heç təsadüfi deyildir ki, yerli camaat deyir ki, şəfehi qüvvətdir. Görünür bu növ üzüm orta əsrlərdə Naxçıvanda yetişən və geniş yayılan üzüm növlərindən biri olmuşdur»[2].

Beləliklə, tarixi sənədlər sübut edir ki, üzümçülük orta əsrlərdən başlayaraq daha geniş sahələrə yayılmışdı. Buna görə də o zamanın müəlliflərinin əsərlərində bir sıra qiymətli üzüm növlərinin: «şəfehi», «kişmişi», «sahibi», «əsgəri», «gəlin barmağı», «şanı», «mələki», «misgəri», «xəlili» və başqalarının adları çəkilir[3].

Tarixi məxəzlərdə üzümdən qoraba, abqora, doşab, riçal və sair hazırlanması üsulu haqqında da ətraflı məlumatlara rast gəlmək olur. Son vaxtlara qədər üzümdən ən çox hazırlanan məhsullardan biri də kişmişdir. Kişmişin Zaqafqazi-

---

[1] Страбон. География, кн. IX гл. IV (перевод В.В.Латышева). Известия древних писателей о Скифии и Кавказе. СПб, 1893, стр. 276.

[2] T.Bünyadov. Azərbaycanda əkinçiliyin inkişaf tarixinə dair. Bakı, 1964, səh. 132.

[3] Путешественники об Азербайджане, т. 1, Баку, 1961, стр.37.

yada (xüsusilə Naxçıvanda) hələ eramızdan əvvəl XII əsrdə hazırlanmasını təsdiq edən sübutlar vardır. Kişmişin hazırlanması zəruriyyəti tarixən ondan əmələ gəlmişdir ki, əvvəla, üzümü təzə halda əlverişli olmayan nəqliyyatla uzaq məsafəyə aparmaq çətin idi, kişmişi isə hər yerə daşımaq və saxlayıb əlverişli şəraitdə satmaq daha faydalı olurdu. İkincisi, kişmişi ilin bütün fəsillərində çərəz kimi yemək və plovda ədviyyat şəklində istifadə etmək daha əlverişli idi.

Naxçıvanın Rusiya daxilindəki və xarici bazarlar ilə yaranan ticarət əlaqəsi tədriclə kişmiş istehsalının artırılmasına çox böyük təkan vermişdi. Burada qiymətli kişmiş sortlarının (ağ kişmiş, qırmızı kişmiş və mövüc) istehsalı xeyli artmışdı.

1900-cü ildə Naxçıvan əyaləti üzrə 4522 bağ sahibinin 1232,7 desyatin üzüm bağı var idi. Bundan hər sahibkara təqribən 0,27 desyatin sahə düşürdü. Cəmi üzüm istehsalı 253435 pudu və ya 40549,6 sentneri təşkil edirdi. Bir desyatindən 205,5 pud və ya 32,8 sentner məhsul götürülmüşdü. 1913-cü ilə qədər (hesabat aparılan) son 20 illik statistik məlumatlara əsasən orta hesabla hər il Naxçıvan qəzasında 166365 pud və ya 28000 sentner, Şərur-Dərələyəz qəzasında isə 12717 pud və ya 2119 sentner üzüm istehsal olunmuşdur ki, bu da əyalət üzrə 227323 pudu və ya 37887 sentneri təşkil etmişdir[1].

Rusiyada kapitalizmin inkişafı və Naxçıvanın Rusiya tərkibində daxili və xarici bazarlarla yaranan əlaqəsi əhalinin üzümçülüyə daha çox meyl göstərməsinə, çeşidlər üzrə üzüm növlərinin və əmtəəlik məhsulun artmasına təkan vermişdi. Üzüm ticarətinin genişlənməsi, öz növbəsində, üzüm bağlarının artırılmasına və məhsul istehsalının çoxalmasına və tədriclə bağların kənd burjuaziyası əlində təmərküzləşməsinə səbəb olurdu. Təkcə onu göstərmək kifayət edər ki, bağ sahiblərinin 10,7%-ni təşkil edən varlı kəndlilər bütün üzümlüklərin 43,3%-ni öz əllərinə toplamışdılar. Varlıların əlində olan bu

[1] Rəqəmlər müvafiq illər üzrə Yerevanda nəşr edilən quberniya icmalarından götürülmüşdür.

bağlar başlıca olaraq əmtəə xarakteri daşıyırdı. Burada istehsal olunan üzümün bir hissəsi təzə və digər hissəsi qurudulmuş halda bazara çıxarılır, qalan hissəsi isə şərab emalına verilirdi.

Bəzi təsərrüfatlarda üzümlüklər şpalerə qaldırılırdı, belə üzümlüklər orta hesabla 450-600 pud (72-96 sentner), əlverişli illərdə isə 2000 pud (320 sentner) məhsul verirdi. Buna görə də Ordubad bağları yüksək məhsuldarlığına görə fərqlənirdi.

Naxçıvan əyalətində istehsal olunan üzümün 1/5 hissəsi şərab istehsalı üçün, qalanı isə mövüc, kişmiş, bəhməz, riçal və s. hazırlanmasına sərf olunurdu. Göstərilən dövrdə əyalət üzrə 48795 vedrə şərab istehsal olunmuşdu. Burada əla kişmiş və süfrə üzüm növləri ilə birlikdə eyni zamanda şərab növləri də inkişaf etdirilirdi.

Əsas əmtəə üzümçülüyü Naxçıvan qəzası ərazisində və başlıca olaraq Ordubad mahalında idi. Məhsuldarlıq birinci növbədə üzüm bağlarının yaxşı becərilməsi, suvarılması və məhsulun itkisiz toplanmasından asılı idi. Bir desyatin üzüm bağının becərilməsi o zaman Naxçıvan qəzasında 116,6 manata və Şərur-Dərələyəz qəzalarında 104,5 manata başa gəlirdi. Bir desyatin meyvə və üzüm bağını becərməyə 245 fəhlə günü tələb olunurdu. Bundan üzümlüklərin qazılmasına 10, tənəklərin kəsilməsinə 50, alaq otlarının təmizlənməsinə 30, başqa xırda işlərə 25 və tənəklərin basdırılmasına 100 fəhlə günü sərf olunurdu.

Sərt keçən qışların şaxtalarından qorumaq üçün üzüm tənəklərinin üstü örtülürdü. Üzümlüklərin payızda örtülməsi və yazda açılması bağların bir desyatin sahəsinə düşən xərci xeyli artırırdı. Lakin tarixən sübut edilmişdir ki, Ordubad və Şahbuz məntəqəsi kəndlərində üzümlüklər qışı örtüksüz keçirir. Burada şaxtalar tənəklərə zərər yetirə bilmir. Lakin Araz vadisi və Əlincə çayı ətrafındakı üzümlüklərin qışda örtülməsi hələ indi də davam edir.

Becərmə işinin baha başa gəlməsinə təsir göstərən əsas səbəblərdən biri də xüsusi təsərrüfat şəraitində bağların kiçik sahələrdə yerləşməsi idi. Bağların satmaq üçün qiymətləndiril-

məsində onun dəmir və karvan yolu xəttindən uzaq və yaxında olmasının da çox əhəmiyyəti var idi. Çünki üzüm və meyvəni istehsal yerindən bazara çatdırmaq birinci növbədə bazarla kənd arasındakı yol və nəqliyyat vasitələrindən asılı idi. Bağların qiymətləndirilməsində onların məhsuldarlığı və yetişdirilən üzümlərin növləri, suvarma suyu ilə təmin olunması və sair amillər də nəzərə alınırdı.

Qədim zamanlardan başlayaraq üzümü taxta və saxsı qablarda əl ilə sıxaraq şərab hazırlamışlar. Bundan başqa, xalq arasında geniş yayılmış sadə üsullardan biri də iri diametrli ağac novlarda üzümün ayaqla əzilməsi idi. Bu haqda geniş məlumata X əsr Vizantiya kənd təsərrüfatı ensiklopediyasında da rast gəlirik. Başqa bir məlumatda isə üzümdən şərab almaq üçün onu təxminən 2-3 gün saxlayıb sonra içərisi yonulmuş iri diametrli ağac novda ayaqla əzib şirəsinin küplərə doldurulması göstərilir. Bunu Nizami Gəncəvi daha aydın təsvir etmişdir:

Daşınır şərabçın dolu səbətlər,
Axır işçilərin üz-gözündən tər
Salxımlar sıxılır bütün başa—baş
Axır şirələri küplərə birbaş[1].

Başqa bir məxəzdə üzümün şərab üçün əzilməsində daşdan da istifadə edildiyi göstərilir. Belə bir üzüm əzən daş Naxçıvan MR-ın Şərur rayonunun Qıvraq kəndində ekskavatorla yer qazılan zaman təsadüfən aşkar edilmişdir. Bu daş həqiqətən üzüm şirəsi çəkməyə uyğunlaşdırılmışdı[2]. Şərab istehsalı ehtimalını təsdiq edən qədim nişanələrdən biri də süzgəcli qabların əsasən meyvə şirəsi üçün hazırlanmış olduğunun güman edilməsidir.

---

[1] Nizami Gəncəvi. İsgəndərnamə, Bakı, 1941, səh. 173.
[2] T.Bunyadov. Göstərilən əsəri, səh. 116.

Eramızın VII əsrinin ortalarından ərəblərin Azərbaycana hücumu nəticəsində, ərazinin bir sıra rayonlarında zərdüşt və xristianlıq dininin qüvvədə olmasına baxmayaraq, İslam dini zorla yayılırdı[1]. İslam dininə görə şərabın hazırlanması və içilməsi qəti qadağan edilmişdi. Buna görə də heç də təsadüfi deyildir ki, orta əsr ərəb müəlliflərinin əsərlərində Azərbaycanda şərabçılığın inkişafına dair məlumata az rast gəlirik. Əlbəttə, şərabçılıq böyük tənəzzülə uğrasa da, onun tamamilə məhvini güman etmək doğru deyildi. Dinə görə şərab içmək qadağan olsa da, təbabətdə bir müalicə vasitəsi kimi istifadə edilirdi. X əsr fars təbibi Əbu-Mənsur özünün «Kitabəl-Əbniyəvi Xakik Əl Ədviyyə» əsərində yazır ki, şərab lazımi qaydada içildikdə o bədənin sağlamlığı üçün çox faydalı olur. Şərab bədəni möhkəmləndirir, insanda cəsarət, şənlik və fərəh doğurur[2].

Böyük səyyah və alim Həmdullah Qəzvini qeyd edir ki, Azərbaycanın bir sıra yerlərində hazırlanan şərablar öz keyfiyyəti ilə məşhur idi.

Zaman keçdikcə bir sıra kəndlərdə şərabçılığı yeni kapitalist əsasları üzrə təşkil edən iri sahibkarların meydana gəlməsi də nəzəri cəlb edirdi.

Şərur-Dərələyəz qəzasının Xanlıqlar və Ələkli kəndlərində böyük üzüm bağlarının sahibkarı mülkədar Yegizarov xeyli fəhlə işləyən şərab zavodu tikib istifadəyə verdi. Dövrünə görə təkmilləşdirilmiş avadanlıqla (üzüməzən maşınlar, dəyirmanlar və sair) təchiz olunmuş bu zavodda istehsal olunan şərab Naxçıvan, Yerevan, Tiflis və Təbriz şəhərlərində geniş şöhrət qazanmışdı. Kiçik zavodlar isə Naxçıvan qəzasının Cəhri, Yarımca, Təzəkənd, Yemxana, Arınc, Əzniəburt, Əbrəkunis və s. kəndlərində fəaliyyət göstərirdi.

---

[1] Azərbaycanın tarixi. 1-ci cild, Bakı, 1958, səh. 122.

[2] И.П.Петрушевский. Виноградарство и виноделие в Иране в {XIII-XV вв. «Византийский временник», XI, 1956, стр. 173.

80-ci illərin ikinci yarısından etibarən şərabçılıq daha sürətlə inkişaf etməyə başlamışdı. Üzümçülüklə məşğul olan kəndlərin iqtisadiyyatında cecədən spirt çəkmək də əhəmiyyətli yer tuturdu. Bundan başqa, Ordubadda tutdan spirt və araq çəkilirdi. Şərab istehsalı isə, demək olar ki, bütün Azərbaycanda sürətlə artırdı. Təkcə onu göstərmək kifayətdir ki, 1901-ci ildə Naxçıvan qəzası da daxil olmaqla, Azərbaycanda 1,7 milyon vedrə, 1903-cü ildə isə 3,7 milyon vedrə şərab istehsal edilmişdi. Bu, Zaqafqaziyada istehsal olunan bütün şərabın 30%-ə qədərini təşkil edirdi. 1901-ci ildə Azərbaycanda istehsal olunan şərabın 611 min vedrəsi (35,9%-i) Naxçıvan qəzasında istehsal olunmuşdu.

Şərabçıların əksəriyyəti kiçik istehsalçılardan ibarət idi. Onların şərab çəkməyə lazımi şəraiti və müvafiq avadanlıqları olmadığından hazırladıqları yarımfabrikatı iri sahibkarlar alıb müvafiq mərhələlərdən keçirdikdən sonra baha qiymətə satırdılar.

Naxçıvan ölkəsində üzümçülük və şərabçılıq təsərrüfatında əmtəə və əmtəə-kapitalist istehsalı xeyli inkişaf etmişdi. Aparılan hesablamalara görə inqilaba qədər Naxçıvanda hər il təqribən 50-60 min vedrə şərab istehsal edilmişdir.

1894-1898-ci illərdə illik şərab istehsalı 50 vedrəyə qədər olan zavodların sayı (orta hesabla 5 ildə) 81 olduğu halda, 50 vedrədən 100 vedrəyə qədər olan 43; 100 vedrədən 300 vedrəyə qədər olan 20; 300 vedrədən 500 vedrəyə qədər olan 5 və 500 vedrədən artıq olan zavodlar isə bir idi[1].

Üzümün sənaye emalının artması eyni zamanda muzdlu əməkdən istifadə olunmasına, başqa sözlə, istismara səbəb olurdu. Müqayisə illəri içərisində şərab zavodlarında təqribən hər il orta hesabla 595 nəfər fəhlə işləmişdi.

Üzümçülərin əsas kütləsini ağır vəziyyətdə yaşayan xırda bağ sahibləri təşkil edirdi. Onların əlində olan bağlar 1/4 və 1/2 desyatindən artıq deyildi. Xırda bağ sahibləri başlıca

[1] Сборник статистических сведений по Закавказскому краю. Тифлис, 1902, стр. 198.

olaraq sələmçilərdən və möhtəkirlərdən asılı idilər. Onlar vergiləri ödəmək və borclarını vermək üçün öz məhsullarını və heyvanlarını möhtəkirlərə dəyər-dəyməzinə satmağa məcbur olurdular... «Sələmçilərin yoxsul kəndlilərdən hər il aldıqları borc üstəliyi bir çox təvanəsiz bağ sahibləri məcbur olurdular ki, qolçomaqlara və sələmçilərə işləsinlər, öz üzüm məhsullarını ucuz qiymətə onlara satsınlar. Bir çox hallarda isə borcunu ödəmək iqtidarında olmayan kəndlinin bağı sələmçinin əlinə keçir, kəndlinin özü isə muzdura çevrilirdi. Buna görə də xırda istehsalçılar, demək olar ki, bütün üzüm məhsulunu öz əllərində cəmləşdirmiş iri sahibkarlardan asılı vəziyyətdə idilər[1].

Möhtəkirlər kəndlilərin müflisləşməsi hesabına varlanan qəddar istismarçılar idi. Onlar əsas istehsalçı olan kəndlilərin çox hissəsini bazardan sıxışdırıb çıxartmaqla, onları özlərindən asılı vəziyyətə salırdılar. Möhtəkirlərin meydana çıxması üzümçülükdə əmtəə istehsalının artması ilə əlaqədar idi. Beləliklə, XIX əsrin sonunda və XX əsrin əvvəllərində üzümçülük məhsulları satışında və eləcə də üzüm istehsalında kapitalist münasibətlərinin inkişafı özünü daha aydın formada göstərməkdə idi.

Dağlıq rayonlarda əhalinin əsas məşğuliyyəti ekstensiv heyvandarlıq olaraq qalırdı. Vilayətin cənub-şərq hissəsində əhali başlıca olaraq bağçılıqla məşğul olurdu. XIX əsrdə, 30-cu illərin əvvəllərində ən böyük bağçılıq mərkəzi olan Ordubad dairəsində meyvə bağlarının sahəsi 300 desyatinə (327 hektar) çatırdı[1].

O zaman Ordubad özünün əla keyfiyyətli meyvələri ilə bütün Yaxın Şərqdə və Zaqafqaziyada məşhur idi.

Üzümçülük bu dövrdə vilayətin kənd təsərrüfatının ən zəif inkişaf etmiş sahələrindən biri idi. V. Qriqoryevin yazdığına görə 45 desyatinə (49 hektar) qədər üzüm bağı olmuşdur.

Məlum olduğu kimi, 1828-ci il Türkmənçay müqaviləsinə görə İrandan Rusiyaya 40 min nəfərə qədər erməni əhalisi

---

[1] M.Ə.İsmayılov. Göstərilən əsəri, 1960. səh. 83.

köçürülmüşdü ki, bunun da əsas hissəsi Naxçıvan ərazisində yerləşdirilmişdi. Naxçıvanın dağətəyi qurşağında yerləşən ermənilər burada ən çox məhsul verən üzümçülük təsərrüfatı ilə məşğul olurdular.

XX əsrin əvvəllərində Naxçıvanda 1200 hektardan artıq üzüm bağı var idi. Lakin buna baxmayaraq üzümçülük təsərrüfatı pambıqçılıq kimi geniş əmtəə xarakteri daşıya bilmədiyindən, mövcud imkanlara nisbətən o zaman az inkişaf etmişdir. Bu, əsas etibarilə onunla izah olunur ki, əvvəla, Naxçıvanı başqa uzaq rayonlarla birləşdirən əlverişli nəqliyyat vasitələri yox idi. Bunun nəticəsində tez xarab olan üzümü və ondan emal edilən məhsulları, xüsusilə şərabı Mərkəzi Rusiya və başqa bu kimi geniş istehlak bazarlarına ixrac etmək çətin idi. İkincisi, yerli əhalinin təqribən 90 faizini təşkil edən azərbaycanlıların əksəriyyəti, özlərinin dini baxışlarına görə şərabdan istifadə etmirdilər. Bu da Naxçıvanın öz daxilində üzümçülük təsərrüfatının məhsulu üçün məhdud bazarın yaranmasına səbəb olurdu. Çünki üzümçülüyə geniş əmtəə xarakteri verən onun əsas etibarilə şərabçılıq üçün istifadə edilməsidir. İnqilabdan əvvəl Naxçıvan qəzasının üzümçülük təsərrüfatı aşağıdakı göstəricilərə səciyyələnirdi.

Cədvəl 1.

**Naxçıvan qəzasında 1898-1902-ci illərdə üzümçülüyün dinamikası**

| Göstəricilər | İllər | | | | |
|---|---|---|---|---|---|
| | 1898 | 1899 | 1900 | 1901 | 1902 |
| Yığılmış üzüm (tonla) | 1905,5 | 2277,7 | 3575 | 1757 | 1688,8 |
| Orta məhsuldarlıq (sentnerlə) | 18 | 22 | 35 | 16 | 16 |
| İstehsal edilmiş şərab (dkl) | 39,600 | 45,200 | 121,200 | 43,200 | 42,200 |

Naxçıvanın kənd təsərrüfatının ən köhnə sahələrindən biri olan bağçılıq da xeyli inkişaf edir. Bağların ümumi sahəsi 1914-cü ildə burada 800-850 hektara çatırdı. Bu bağların əsas hissəsi Ordubad rayonunda yayılmışdı. Burada bağçılıq tamamilə əmtəə xarakteri daşımaqla, onun meyvələri Naxçıvandan xeyli uzaqlarda özünə böyük şöhrət qazandırmışdır. Yerli se-

leksiyaçılar Ordubadda "Şərəlli", "Salamı", Abtalıbı" kimi qiymətli çəyirdəkli meyvə növləri, məşhur "Kağızı" qoz növlərini yetişdirmişdilər.

90-cı illərin ortalarından Ordubaddan Yerevana hər il 15 min puda qədər ancaq quru ərik göndərilirdi[1].

Tərəvəz və bostan bitkiləri kiçik sahələrdə əkilərək, istehlak məqsədi daşıyırdı. Əyalətdə yetişdirilən Şaxtaxtı və Əylis qovunları öz ətri, dadı və saxlamağa davamlı olmasına görə təkcə Zaqafqaziyada deyil, İran və Türkiyə bazarlarında da şöhrət qazanmışdı. Becərilməsi xüsusi aqrotexnikaya əsaslanan Əylis və Şaxtaxtı qovunlarının ölkə daxilində və qismən xarici bazarlara ixracı qovun satışından xeyli gəlir götürülməsinə səbəb olurdu. Bir çox təcrübəli bostançılar hər desyatindən 300-350 sentner məhsul götürürdülər. İnqilaba qədər ölkədə hər il 900-1000 hektar bostan və 700 hektar kartof əkilirdi. İstehsal olunan kartof böyüklüyü və yüksək keyfiyyəti ilə fərqlənirdi. O zaman kartof indiki Ordubad rayonunun Xurs, Ələhi, Nəsrivaz, Tivi, Bist, Paraqa, Çənənəb, Bilöv, Culfa rayonunun Ərəfsə, Başkənd, Ortakənd, Milax, Bənəyar və Kirna kəndlərində əkilərək ondan xeyli məhsul götürülürdü.

İnsanların oturaq hala keçib, təsərrüfat fəaliyyətinə başladığı vaxtdan əkinçiliklə yanaşı inkişaf edən və maddi nemətlər istehsalında mühüm yer tutan təsərrüfat sahələrindən biri maldarlıq olmuşdur. Buna görə də insanların yaşayış uğrunda apardıqları mübarizə və onların təbiətə göstərdikləri təsir heyvan növlərinin inkişafı və keyfiyyətcə yaxşılaşması sahəsində də təkamülə səbəb olmuşdur.

Qədim yunan coğrafiyaşünası və tarixçisi Strabon öz əsərlərində Qafqaz Albaniyasının təbii sərvətləri və əhalinin təsərrüfat məşğuliyyətindən bəhs edərək göstərmişdir ki, "Alban xalqının bu dövrdəki maldarlığına dair çox az məlu-

---

[1]Присоединение Азербайджана к России и его прогрессивные последствия в области экономики и культуры. Азербайджанская ССР. Баку, Издательство АН. 1955

mat qalmışdır, lakin bu az məlumat kənd təsərrüfatının bu sahəsinin böyük rolunu göstərir. Bərəkətli torpaq otlaqlarda bol ot yetirir, saysız-hesabsız dağ çayları dağ ətəklərindəki alp çəmənlərini suvarır. Maldarlıqla həm oturaq əkinçi qəbilələri, "həm də köçəri və yarımköçəri qəbilələr məşğul olurdular"[1]. Strabon albanları köçəri və yarımköçəri qəbilələrə aid edib, göstərir ki, "onlar çoban həyat tərzinə meylli olub, köçərilər tipinə yaxındırlar"[2]. Beləliklə görünür ki, albanların təsərrüfatlarında maldarlıq çox böyük rol oynamışdır.

Rəsmi məlumata görə XIX əsrin 80-90-cı illərində Zaqafqaziya əhalisinin 40%-ə qədərinin əsas təsərrüfat məşğuliyyəti heyvandarlıq olmuşdur. Naxçıvan əyalətində heyvandarlığın əsas iki növü: iribuynuzlu mal-qara və qoyunçuluq daha geniş inkişaf etmişdir. Burada quşçuluğun, arıçılığın, əsas nəqliyyat və qoşqu qüvvəsi olan atçılığın inkişafı da çox uzaq tarixə aid edilir. Burada təsərrüfat işlərində geniş istifadə olunan dəvə, qatır və ulaq da saxlanılırdı.

Naxçıvanda heyvan saxlayan əhalini o zaman şərti olaraq 3 qrupa bölmək olardı: a) əkinçiliklə məşğul olub, heyvandarlıq məhsullarına olan tələbatını öz istehsalı hesabına ödəyən təsərrüfatlar; bu təsərrüfatlar az heyvan saxlayaraq, demək olar ki, bütün istehsal olunan heyvandarlıq məhsulunu özləri istehlak edirdilər, b) əkinçiliklə yanaşı eyni zamanda maldarlıqla məşğul olan təsərrüfatlar öz ehtiyaclarını ödədikdən sonra artıq qalan əmtəəlik məhsullarını bazara çıxarıb satırdılar. Təsərrüfat sahələrini əlaqəli inkişaf etdirən bu cür sahibkarlar, təsərrüfatın bir sahəsində fəlakət baş verdiyi zaman digər sahənin gəliri ilə bu ziyanı örtür, təsərrüfatın bərpa və inkişafını təmin edirdilər; v) əsas məşğuliyyəti heyvandarlıq olub, köçəri və yarımköçəri həyat keçirən elatlar; köçəri həyata vərdiş edən qəbilələrin əhalisi yaşayış üçün zəruri ərzaq məhsullarını ya bilavasitə heyvandarlıq məhsulları ilə müba-

---

[1] Страбон. География, т. XI, л. изд. «Наука», 1964.
[2]. Yenə orada.

dilə edir və ya onu satdıqları məhsulların pulu ilə alırdılar. Sayca azlığı təşkil edən bəy, xan və mülkədarlar daha çox iribuynuzlu mal-qara, davar sürüsü və at ilxısı saxlayırdılar. Kəndlilərin çoxunun isə bir başdan artıq inəyi, 2-3 başdan artıq qoyunu yox idi. Heyvanı olmayan kənd yoxsullarının sayı isə daha çox idi.

Ekstensiv formada inkişaf etdirilən heyvandarlıqdan alınan məhsullar sənaye emalı ilə əlaqəsi olmayan cinsi (natural) formada olub, başlıca olaraq, istehlak xarakteri daşıyırdı. Maldarlar qaramalın gönündən çarıq, qoyunun dərisindən papaq hazırlayır, yunundan paltar, gəbə, cecim, palaz və s. toxuyurdular. İstehsal etdikləri süddən yağ və pendir hazırlayıb başqa məhsullarla mübadilə edirdilər.

İribuynuzlu mal-qara başlıca olaraq Naxçıvan və Şərur-Dərələyəz qəzalarının Araz vadisi və dağətəyi zonasında inkişaf etdirilirdi. İribuynuzlu mal-qara az diri çəkili, yerli kiçik Qafqaz cinsindən ibarət olub, laktasiya dövründə olduqca az süd verirdi. O zaman mal-qaranın cinsinin yaxşılaşdırılması haqqında heç bir tədbir həyata keçirilmirdi. Sərbəst üsulla aparılan cütləşmə bir çox hallarda inəklərin qısır qalmasına səbəb olurdu. Heyvanların saxlanması şəraiti də çox pis idi. Qışda yeraltı qazmalarda saxlanan heyvanlar lazımi qədər işıq və hava almadıqları üçün bir çox xəstəliklərə tutulurdu. Heyvanların başlıca yemi saman və küləş idi, az miqdarda qüvvəli yem ancaq iş heyvanlarına verilirdi. Buna görə də inəklərdən sağılan süd laktasiya dövründə 400-500 litrdən yuxarı olmurdu. İstehsal edilən az miqdarda süd təkinəkli təsərrüfatlarda hətta ailənin ehtiyacını belə ödəmirdi. Rusiyadan gətirilmiş cins mal-qaraya ancaq mülkədarların təsərrüfatlarında təsadüf edilirdi.

İribuynuzlu mal-qaranın sayı hər iki qəzada 1907-ci ildə 55 min baş, 1910-cu ildə 62,4 min baş və 1913-cü ildə 67,7 min baş olmuşdur. İribuynuzlu mal-qaranın tərkibində camış 35-40%-i, hər iki növ iş heyvan-larının (öküz, kəl) xüsusi çəkisi 46-48%-i təşkil edirdi. Dövrünə görə iş heyvanlarının artırılmasına daha çox üstünlük verilirdi.

Naxçıvan vilayətinin hər iki qəzasında camışçılığın inkişafına çox böyük fikir verilirdi. Südlük mal-qaranın tərkibində camışlar 35%-dən artıq idi. Camışların yemə az tələbkar olması, onların çox zaman qaramalın sevmədiyi otlar ilə qidalanması inəyə nisbətən camış saxlanmasını daha asanlaşdırırdı. Camış südü laktasiya dövründə 1000-1200 litrə və südün tərkibindəki yağ 8%-ə qədəri təşkil edirdi. Buna görə də varlı kəndlilər camış saxlamağa daha çox səy göstərirdilər. Bundan başqa, təsərrüfat işlərində və nəqliyyatda kəldən geniş istifadə olunurdu. Camışın suda yatmağa tələbkar olması xüsusiyyəti onların əsasən çay kənarı kəndlərində Arazyanı düzənliyi və dağətəyi zonasında inkişafına şərait yaradırdı.

İribuynuzlu mal-qaranın saxlanmasında, başlıca olaraq, iki məqsəd: a) istehlak və satış üçün ət, süd məhsulu istehlak etmək; b) təsərrüfat üçün qoşqu və nəqliyyat vasitəsi (öküz və kəl) yetişdirmək nəzərdə tutulurdu. İş heyvanı olmayan kəndlilərin vəziyyəti çox ağır keçirdi. Tək öküzü və ya kəli olan kəndlilər başqaları ilə şərikləşib cüt təşkil edirdilər. İş heyvanı olmayan kəndlilər isə ya mülkədarın iş heyvanları və iş alətlərindən icarə qaydasında istifadə edirdilər və ya müflisləşib öz torpaqlarını itirdikdən sonra kənd təsərrüfatı fəhləsinə çevrilirdilər.

Göstərilən vəziyyətə baxmayaraq Zaqafqaziya vilayətləri, o cümlədən Naxçıvan əyaləti Rusiyanın maldarlıq təsərrüfatında görkəmli yer tuturdu. Əgər Rusiyanın Avropa hissəsində hər 100 nəfərə 33 baş iri mal düşürdüsə, Zaqafqaziyada 43 baş düşürdü[1].

Heyvandarlığın inkişafına müsbət təsir göstərən başlıca amillərdən biri də Rusiyada kapitalizmin inkişafı ilə əlaqədar olaraq, quberniyalarda və qəzalarda vaxtaşırı keçirilən sərgi və müşavirələr idi. 1914-cü ildə "Qafqaz kənd təsərrüfatı cəmiyyətinin" maldarlıq bürosu sağmal mal-qaranın sərgisini təşkil etmiş və burada çox süd verən cins inəkləri sərgi iştirak-

---

[1] M.Ə.İsmayılov. XX əsrin əvvəllərində Azərbaycanın kənd təsərrüfatı, Bakı, 1960. səh.61.

çılarına göstərmişdi. Sərginin məqsəd və əhəmiyyətindən bəhs edən bir çox tarixi məxəzlərdə göstərilir ki, belə sərgilər bütün ətraf kəndlərin diqqətini cəlb edirdi. Yaxşı cins heyvan yetişdirmiş sahibkarlar mükafatlandırılırdı. Bu tədbirlərin çox cüzi və maldarlıqla məşğul olan əhalinin çox az hissəsini əhatə etməsinə baxmayaraq, zaman keçdikcə heyvandarlığa daha artıq fikir verilməsinə təsir göstərirdi.

Lakin vaxtaşırı baş verən yoluxucu xəstəliklər mal-qaranın inkişafı yolunda ən böyük maneələrdən biri idi. Heyvanların qışlaqlardan yaylaqlara aparılması dövründə bu xəstəliklər daha çox yayılırdı. Hər qəzada bir və ya iki baytarın olması burada kütləvi xarakter daşıyan keçici xəstəliklərlə mübarizə aparmağa imkan vermirdi. Normal olmayan bu hal hər il Naxçıvan və Şərur-Dərələyəz qəzalarında çoxlu miqdarda heyvan tələfatına səbəb olurdu.

Əyalətdə geniş inkişaf etdirilən gəlirli təsərrüfat sahələrindən biri qoyunçuluq idi. O, başqa heyvanlara nisbətən çoxlu bitki növlərini yeməyə uyğunlaşmış heyvandır. Qoyunçuluq az məhsuldar otlaqlardan yaxşı istifadə edir. Qoyunçuluq kənd təsərrüfatının mühüm sahələrindən biri olub əkinçiliyin tarixi ilə əlaqədardır. Qoyun insan tərəfindən əhliləşdirilmiş ilk heyvan növüdür. Bütün dünyada 200-ə yaxın qoyun cinsi vardır.

Naxçıvanda qoyunçuluq başlıca olaraq əlverişli şəraiti olan dağ və dağətəyi kəndlərində saxlanırdı. Bu zəruriyyət ondan irəli gəlirdi ki, Arazyanı zonasında əkinçilik geniş sahələrdə aparıldığına görə otlaq yerinin miqdarı azalır və böyük qoyun sürüləri saxlamaq imkanı məhdudlaşırdı. Dağ və dağətəyi zonasında isə əkinçiliyin zəif mövqe tutması xeyli torpaqların istifadəsiz qalmasına səbəb olmuşdu ki, bu da qoyunçuluq üçün əlverişli idi.

Azərbaycanın müxtəlif zonalarının şəraitinə uyğunlaşmış qabayunlu qoyun cinsləri bir tərəfdən əsrlər boyu davam edən sistemsiz süni seçmə və taylaşdırma nəticəsində əldə edilmişdir.

Naxçıvanda qoyunçuluq ətlik-südlük-yunluq istiqamətində inkişaf etdirilirdi. İstehsal olunan məhsulların (ət, yağ,

pendir və yun) bir hissəsi əhalinin ehtiyacını təmin edir, artıq qalan əmtəəlik hissəsi bazara çıxarılırdı. O zaman əyalətdə saxlanılan qoyunların 65%-i sayca çox azlığı təşkil edən varlı kəndlilərin əlində idi. Kənddə əksəriyyəti təşkil edən yoxsulların güc-bəla ilə saxladıqları az miqdarda qoyun və keçi yay və qış otlaqları ilə təmin olunmurdu. Dövlət məmurları xəzinəyə mənsub olan otlaqları kəndlilərə çox baha qiymətə icarəyə verirdilər. Təyin edilən ağır icarə rüsumları kiçik qoyunçuluq təsərrüfatlarının müflisləşməsinə səbəb olurdu.

Qoyunların bəslənməsi üsulları da çox bəsit idi. Davarlar, demək olar ki, bütün il uzunu ancaq örüş otları ilə qidalanırdı. Vaxtaşırı baş verən uzun sürən qarlı, şaxtalı qış aylarında isti qoyun damları ilə təmin olunmayan və epizodik xəstəliklərə tutulan heyvanlar tələf olurdu.

Naxçıvanda qabayunlu Qafqaz qoyunlarının bütün növləri saxlanılırdı. Lakin başlıca növləri mazex, bozax, balbas və qismən Qarabağ qoyunları təşkil edirdi.

İnqilabdan əvvəl yerli əhali mazex cinsini qalan cinslərdən, o cümlədən balbasdan daha çox xoşlayırdı, çünki əhali, xüsusən kişilər əldə toxunmuş yun parçadan üst paltarları (çuxa, arxalıq, şalvar və s.) geyirdi. Mazex qoyunun yunu qəhvəyi yaxud qara olduğu üçün baha boyalarla boyamağa ehtiyac qalmırdı. Mazex qoyununun dərisindən papaq da tikilirdi. Mazex cinsi süd istehsalına görə qabayunlu qoyun cinsləri içərisində birinci yeri tuturdu. Mazex cinsi Azərbaycanın yalnız Naxçıvan əyalətində, başlıca olaraq, dağ və dağətəyi zonasında inkişaf etdirilirdi. Bu cinsin yunu qızılı və qəhvəyi rəngdə olduğu üçün yerli əhali onu "qızıl qoyun" adlandırırdı.

Rusiyada kapitalizmin inkişafı ilə əlaqədar olaraq yun parça sənayesinin yuna olan tələbatı artırdı. Yun və dəri alveri ilə məşğul olan tacirlərin və onların müvəkkillərinin Naxçıvan kəndlərinə nüfuz etməsi bazara daha çox heyvandarlıq məhsulları çıxarılmasına səbəb olurdu.

Naxçıvanda istehsal olunan yun bir tərəfdən Rusiya bazarlarına, digər tərəfdən isə xarici bazarlara ixrac olunurdu.

O zaman heyvandarlığın əsas ticarət məhsulu yun idi. S.Qulişambarov Zaqafqaziyada, o cümlədən Azərbaycanda yun ticarətinin vəziyyəti haqqında yazmışdır: "Bizim yun ticarətimizin inkişaf səviyyəsi hələ çox aşağıdır. Qoyunçularla fabrik sahibləri arasında yunu bir-birinə satan çoxlu alverçilər vardır. Payız və yay qırxımında sələmçilər qoyunçuların başlarının üstünü alıb, verilmiş borcun və onun artan müamiləsinin əvəzinə yun götürürdülər. Çox vaxt yuna qiyməti sələmçilərin özləri qoyurdular. Yun alveri ilə əksərən yerli qolçomaqlar məşğul idilər. Onlar kiçik sahibkarların ağır vəziyyətindən istifadə edərək, yunu ucuz qiymətə alıb, baha satırdılar. Təkcə yunu deyil, ümumiyyətlə kəndin və zəif kəndli təsərrüfatının verə biləcəyi hər cür başqa malları alan bu cür tacirlər ölkədə çoxdur"[1].

Ölkənin iqtisadiyyatının bütün sahələrinə soxulmuş saysız-hesabsız sələmçilər və alverçilər ancaq iki vəzifə yerinə yetirirdilər: ya onlar xırda istehsalçı kəndlilərdən mal alır, ya da kəndliləri pul ilə məngənəyə salırdılar, sonra bu pulun əvəzinə onlardan, bir qayda olaraq, ucuz qiymətlə mal alırdılar.

Heyvandarlıqda mal-qara satışı, ət-süd, gön, yun və sair məhsullar geniş ticarət əhəmiyyətinə malik idi. Heyvandarlıq məhsulları başlıca olaraq yerli bazarlarda satılırdı, başqa məhsullardan fərqli olaraq yun məhsulu daha uzaqlara-xarici bazarlara çıxarılırdı.

Zaman keçdikcə heyvandarlıq məhsulları satışında kənd burjuaziyası daha artıq fəaliyyətə başlayıb, bu işi öz əllərinə toplamışdı.

Naxçıvan əyalətində gəbə toxumaq sənəti də inkişaf etmişdi. Gəbəçiliklə Naxçıvan qəzasında 79 və Şərur-Dərələyəz qəzasında 82 kəndin əhalisi məşğul idi. Əyalətdə toxunub satılan gəbələrin ümumi dəyəri təqribən hər il Naxçıvanda 16698 manatı və Şərur-Dərələyəz qəzasında 24662 manatı təşkil edirdi.

---

[1] С.Гулишамбаров. Обзор фабрик и заводов Закавказского края. Тифлис, 1894, стр. 241.

Bütün Azərbaycanda olduğu kimi, Naxçıvan əyalətində də yaylaq və qışlaq otlaqları dövlətə ya da ayrı-ayrı varlı şəxslərə: bəylərə, xanlara və mülkədarlara məxsus idi.

Naxçıvan əyalətində çox qədim zamanlardan bəri inkişaf etdirilən təsərrüfat sahələrindən biri ipəkçilik idi. Tarixi məxəzlər sübut edir ki, müstəqil Naxçıvan xanlığı ərazisində yaşayan əhali hələ V-VI əsrlərdə barama qurdu bəsləyib, ipəkçiliklə məşğul olmuşdur. Ərəb səyyahları da orta əsr Naxçıvanında ipək parça toxunması haqqında bir sıra maraqlı məlumatlar verirlər. Lakin bəzi yoxlanmış dəlillər sübut edir ki, ipəkçiliyin əsas təsərrüfat sahələrindən birinə çevrilməsinə başlıca olaraq VII-XI əsrlərdə, yəni Ərəb işğalından sonra başlanmışdır.

Tarixdən məlumdur ki, ipəkçiliyin ilk vətəni Çin olmuş və xeyli vaxt onun istehsal üsulu sirli saxlanılmış, sirrin açılması ölüm cəzası ilə hədələnmişdir. Lakin xeyli vaxt keçdikdən sonra ipəkçilik tədriclə Koreyaya, Yaponiyaya, Hindistana, Orta Asiya ölkələrinə, İrana, Azərbaycana və o cümlədən Naxçıvan xanlığı ərazisinə yayılmışdır.

İlk dövrlərdə ipək ancaq yerli tələbatın ödənilməsinə sərf olunurdu. Natural təsərrüfat şəraitində həm yundan, pambıqdan və həm də ipəkdən geyim paltarı, yorğan-döşək üzü və sair toxunurdu. Lakin get-gedə ipəkçilik sənaye əhəmiyyəti daşımağa başladı. İpəkçiliyin inkişafına Naxçıvanın böyük karvan yolu üzərində yerləşməsi, bir çox bazarlarla əlaqədə olması və yerli təbii-iqlim şəraitinin tut plantasiyaları becərmək üçün əlverişli olması böyük təsir göstərmişdir. Naxçıvan xanlığı ərazisinin vaxtaşırı yadelli ordular tərəfindən işğala məruz qalması öz pis təsirini ipəkçiliyin inkişafında da göstərmişdir. Naxçıvan İran tərəfindən işğal edildikdən sonra Şah Abbas bu ipək ticarətini öz əlində toplamış və istehsalçıları tacirlərdən asılı vəziyyətdə saxlamışdı. O, ipək, ticarətində daha çox təcrübəsi olan Culfa, Cuğa və Əylis tacirlərindən istifadə edirdi. Ticarətdə yaxşı təcrübə qazanmış bu tacirlər şa-

hın bilavasitə göstərişi ilə bir çox Avropa ölkələri və Rusiya bazarları ilə ticarətdə böyük şöhrət qazanmışdılar[1].

Lakin kəndlilərin üzərinə qoyulan vergilər onların vəziyyətini ağırlaşdırmış və güzəranını xeyli pisləşdirmişdi. Odur ki, Naxçıvan xanlığı dövründə daha geniş inkişaf edən ipəkçilik, ölkənin İran işğalında olduğu dövrdə, demək olar ki, tamamilə tənəzzülə uğramışdı. İpəkçilikdə yaxşı təcrübə qazanmış yerli əhalinin bir hissəsi Şah Abbasın əmri ilə Naxçıvan xanlığı ərazisindən İranın Mazandaran, İsfahan, Qaradağ və başqa şəhərlərinə köçürülmüşdü ki, bu da Naxçıvan əyalətində bir çox təsərrüfat sahələrinin, o cümlədən ipəkçiliyin tənəzzülünə səbəb olmuşdu. Buna görə də tarixçilər Naxçıvan xanlığı əhalisinin İran arasında bağlanan Türkmənçay sazişi əsasında Naxçıvan xanlığının Rusiya tərkibinə daxil olması onun iqtisadi və mədəni həyatında dönüş nöqtəsi oldu. Naxçıvan əyaləti bundan sonra xarici ölkələrin vaxtaşırı basqınlarından və təcavüzkarlığından xilas oldu. Daxili və xarici bazarlarla əlaqə yarandı. İpək ticarəti genişlənməyə başladı. Rusiyada inkişafa başlayan sənaye öz nüfuzedici təsirini Rusiya tərkibinə daxil olmuş ucqarlara göstərməyə başladı. Beləliklə, ölkədə məhsuldar qüvvələrin inkişafı üçün nisbətən əlverişli şərait yarandı[2]. XIX əsrin sonunda ipəkçilik sahəsində xeyli irəliləyiş gözə çarpırdı. Ordubad dairəsinin 46 kəndindən 41 kəndi, demək olar ki, ancaq baramaçılıqla məşğul olurdu.

Dövrünə görə ipəkçilik kənd təsərrüfatının tipik xırda əmtəə xarakterli sahəsi idi. İşlər başlıca olaraq kəndli ailələrinin öz qüvvəsi ilə aparılırdı. Lakin bəylərin, xanların və varlı kəndlilərin təsərrüfatında tədriclə kapitalist münasibətlərinin meydana çıxması daha aydın formada müşahidə olunurdu. O zaman barama məhsulu üçün kənardan işçi qüvvəsinin cəlb olunması əksər hallarda yarıdarlıq qaydası ilə həyata keçiri-

---

[1] И.П.Петрушевский. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI-начала XIX вв. Ленинград. 1949, стр.35

[2] Сборник статистических данных о землевладении и способах хозяйства 5-ти губерний Закавказского края, 1899, стр.86.

lirdi. İpəkçiliyin kapitalistcəsinə inkişafının müsbət nəticələri xam ipək istehsalı mədəniyyətinin artması, onun növlərinin yaxşılaşması, ipək qurdu becərilməsində elmi üsulların tətbiq edilməsinin böyük əhəmiyyəti oldu.

«Qafqaz ipəkçilik stansiyası» əsas ipəkçilik rayonlarında, o cümlədən Naxçıvanda geniş fəaliyyətə başlamışdı. Stansiyanın yerlərdəki şöbələri qurdun yemlənməsi üsullarını nümayiş etdirir və ipəkçilərə faydalı məsləhətlər verirdi.

1899-cu il dekabrın 21-də Tiflisdə keçirilən ipəkçilik qurultayında Nuxa, Zaqatala, Naxçıvan və başqa rayonların ipəkçi nümayəndələri iştirak etmişdilər. Bu cür qurultaylarda və müşavirələrdə ipəkçiliyin inkişafı və yaxşılaşdırılması üçün bir sıra mütərəqqi tədbirlər müzakirə olunmuşdur[1]. Qurultayın qərarı ilə yaradılan təcrübə tarlaları ipəkçilikdə mütərəqqi üsulların əyani surətdə tətbiq edilməsinə, ipəkçiliyin inkişafına və barama istehsalının artmasına müsbət təsir göstərmişdir. İpəkçilərin barama qurdu toxumu ilə təmin edilməsi üçün bir sıra tədbirlər həyata keçirilirdi. İpəkçilər başlıca olaraq Kiçik Asiyadan (ağ cins), qismən Fransadan, İtaliyadan (sarı cins) və Xorasandan gətirilən ipəkqurdu toxumunu alırdılar.

Beləliklə, Rusiya bazarının təsiri altında Azərbaycanda, o cümlədən Naxçıvanda xam ipək istehsalı da artırdı. O zaman Naxçıvan qəzasının Ordubad məntəqəsi demək olar ki, əsas ipəkçilik mərkəzi idi. Ordubad ipəkçiləri Fransadan alınan və orada məşhur alim Lui Pasterin metodu ilə hazırlanan sellulyar ipək qurdu toxumu cinsini yetişdirməyə başladılar.

Aşağı Əylis kəndindəki ipək fabrikinin sahibkarları Nüsnüsov qardaşları, Yuxarı Əylis kəndindəki fabrik sahibi Şahnəzərov kompaniyası, Çənənəb kəndindəki fabrik sahibi Sarkisov qardaşları Fransadan gətirdikləri toxumu Naxçıvan əyalətində geniş yaymağa başladılar. Xəstəliklərə davamlı

---

[1] Академик А.С.Сумбатзаде. Сельское хозяйство Азербайджана в XIX веке. Баку, 1958, стр. 13.

olan bu yeni məhsullar barama qurdu toxumunun yayılması, ipəkçilik işinin canlanmasına səbəb oldu[1].

İpəkçiliyin inkişafı mənafeyi birinci növbədə yem bazasının artırılmasını tələb edirdi. Buna görə də əyalətin bir çox kəndlərində tut plantasiyaları salınır, meyvə bağları ilə qarışıq və ya bağların kənarında ucaboylu tut ağacları əkilirdi. Bir qutu barama qurdu toxumundan əlverişli şəraitdə orta hesabla 8-10 pud yaş və ya 3,5 pud quru barama alınırdı.

1910-cu il məlumatına əsasən barama istehsalı Azərbaycanda hər il 200-250 min puda çatırdı. Göstərilən məhsulun 20 min puddan artığını təkcə Naxçıvan əyaləti verirdi. 80-ci illərdə tacirlərin bir qismi tut plantasiyaları saldırıb barama istehsalı ilə məşğul oldular. Onlar əsasən muzdlu əməkdən istifadə edirdilər. Rusiya ipək sənayesinin xammala olan ehtiyacının getdikcə artması Azərbaycanda və Naxçıvanda əmtəə ipəkçiliyinin inkişafına nüfuzedici təsir göstərirdi.

İlk dövrlərdə xırda ipəkəyirmə müəssisələri kustar xarakter daşıyırdı; ipək başlıca olaraq əl cəhrəsi və çox az halda təkmilləşməmiş dəzgahlarda əyirilirdi. İpəkəyirən dəzgahların özü də iki növ idi: dörduclu cəhrəsi olan sadə tipli dəzgah və altıuclu cəhrəsi olan nisbətən mürəkkəb dəzgah. Yerli dəzgahlardan ən təkmilləşmişi mancılıq idi ki, bunun altıuclu cəhrəsi ayaq vasitəsilə hərəkətə gətirilirdi. Zaman keçdikcə əhali arasında ipək əyirmək texnikasını bacaran adamlar meydana çıxırdı.

Əyiricilik sənəti irsi olaraq nəsildən-nəslə keçirdi. Şübhəsiz, ibtidai üsulla əyirilmiş ipəyin keyfiyyəti aşağı idi. Əyrilən saplar möhkəm və düz olmayıb tez-tez qırılırdı. Beləliklə, fabriklərdə əyirilmiş ipəkdə qırıq və düyünlərin miqdarı 1,5-2%-i təşkil etdiyi halda, əl üsulu ilə əyirilmiş ipəkdə 25%-dən artığı təşkil edirdi. Buna görə də əl üsulu ilə əyirilən ipək həmişə ucuz satılırdı.

XIX əsrin sonunda barama açan kustar emalatxanalarla yanaşı, bir sıra təkmilləşmiş ipəkəyirən fabriklər də meydana çıxmışdı. Bu fabriklərin içərisində xalis kapitalist müəs-

---

[1] Академик А.С.Сумбатзаде. Сельское хозяйство Азербайджана в XIX веке. Баку, 1958, стр. 247.

sisələrinə də təsadüf edilirdi. Burada bütün iş fəhlələrin, başlıca olaraq, qadın və uşaqların muzdlu əməyinə əsaslanırdı. Fabrik sahibləri fəhlələri istismar edirdilər. 1880-1890-cı illərdə Naxçıvan əyalətində 14 baramaaçan fabrikdə 314 nəfər fəhlə işləyərək 57659 manatlıq ipək istehsal etmişdisə, ikinci 10 illikdə 25 kiçik həcmli fabrikdə 374 nəfər fəhlə işləyərək 101404 manatlıq məhsul istehsal edilmişdi. XX əsrin sonunda fabriklərin sayca artması ilə yanaşı, eyni zamanda onların müasir texnika ilə təchiz olunması da nəzərə çarpırdı. 1906-cı ildən sonra kiçik fabriklərin təmərküzləşməsi hesabına 4 böyük müəssisə yarandı və burada işləyən fəhlələrin sayı 478 nəfər oldu.

Lakin bu o demək deyil ki, bütün Azərbaycanda, o cümlədən Naxçıvanda ipək sənayesi kapitalist inkişafının yüksək səviyyəsinə qalxmışdı. Məsələni bu cür qoymaq doğru olmazdı. İri ipəkəyirən fabriklər xırda müəssisələrdən fərqli olaraq texnika ilə daha yaxşı təchiz edilmişdi. Əgər xırda müəssisələrdə dəzgahlar əl ilə işlədilirdisə, iri fabriklərdə buxarla hərəkətə gətirilirdi. Naxçıvan qəzasında ən iri müəssisə olan Çənənəb fabrikində buxarla işləyən 43 dəzgah var idi[1]. XX əsrin əvvəllərindən başlayaraq bir sıra fabriklər daha təkmilləşdirilmiş texnika ilə təchiz edilmişdi. İpəkçilik rayonlarında barama alıcılarına məxsus olan xüsusi baramaboğan aqreqatlar da var idi. Fabriklərdə nəinki kişi əməyi, hətta qadın, yeniyetmə və uşaq əməyi də istismar edilirdi.

XIX əsrin 70-ci illərində Qərbi Avropa baramaçılığında hökm sürən xəstəliyin şiddətlənməsi və bununla əlaqədar olaraq İtaliya, Fransa və başqa ölkələrin ipək fabriklərində xammalın çatışmaması, bu ölkələrdən Zaqafqaziyaya barama üçün nümayəndələr gəlməsinə səbəb olur. Lakin onların gətirdikləri barama qurdu toxumları arasında xəstə toxumlar olduğundan Zaqafqaziyanın bir çox rayonlarında, o cümlədən Naxçıvanın baramaçılıq təsərrüfatında da xəstəlik yayılır. 1893-cü ilin məlumatına görə Naxçıvan vilayətində

---

[1] «Кафказское сельское хозяйство» qəzeti, 1904, № 516, səh. 72.

barama istehsalı 2000 puda qədər azalır. Baramaçılıqda yayılan xəstəliyin qarşısı alındıqda isə ölkənin iqtisadiyyatında görkəmli rol oynayan kənd təsərrüfatının bu mühüm sahəsi sürətlə olmasa da, nisbətən inkişaf etməyə başlayır. 1895-ci ilin məlumatına görə Ordubad dairəsində olan 46 kənddən 41-də baramaçılıq geniş yayılmışdı. Bununla belə qeyd etmək lazımdır ki, baramaçılıq təsərrüfatı çox kəndlərin iqtisadiyyatında əsas yeri tuturdu. 1914-cü ildə barama istehsalı 6 min puda (96 ton) çatır ki, bunun da demək olar ki, hamısını Ordubad dairəsi verirdi.

Burada əməyin mövsümi xarakter daşıması fəhlələrin həmin müəssisədə ixtisaslaşıb qalmasına imkan vermirdi. İpək sənayesində çalışan fəhlələrin əmək şəraiti və həyatı olduqca ağır idi. Uşaqlar da böyüklər kimi 12-14 saat işləməyə məcbur olurdular[1].

Rus kapitalının ipəkçiliyə daxil olması bir tərəfdən ucqarlarda ipəkçilik sənayesinin inkişafına, digər tərəfdən isə yeni burjuaziya nümayəndələrinin meydana çıxmasına və ipək sənayesində fəhlə sinfinin əmələ gəlməsinə təsir göstərdi.

Şübhəsiz ki, çox sürətlə böyüyən iri fabriklər bazarın qabaqkı həcmi ilə kifayətlənə bilməzdi. Fabrik sahibləri Rusiya tərkibinə daxil olan ucqarlarda bazar axtarmağa, xammal bazası yaratmağa daha ciddi səy göstərirdilər. Naxçıvan şəhəri və onun ətrafı vilayətdə əsas üzümçülük rayonu idi. Lakin bu zaman ipəkçilik zəif inkişaf etmişdi. Bunun səbəbi İran hökumətinin ipəkçilərdən ağır vergi tələb etməsi idi. Buna görə də ipəkçilikdə əsas səriştəsi olan ordubadlılar öz yerlərində barama istehsalını genişləndirmək əvəzinə, Azərbaycanın başqa rayonlarından (Şəki, Qarabağ, Şirvan) hazır barama alıb, onu sarıntıdan açır, əyirir və müxtəlif rənglərə boyayaraq Rusiyanın və İranın bir çox toxuculuq mərkəzlərinə ixrac edirdilər.

---

[1] «Кафказское сельское хозяйство» qəzeti, 1904, № 254, səh. 266.

1912-ci ilin məlumatına görə ancaq Naxçıvan qəzasında (buraya indiki Şərur rayonu ərazisi daxil deyildir) 82 kənd xalçaçılıqla məşğul olurdu.

Naxçıvan xalçaları Qərbi Avropa ölkələrində, xüsusilə Marseldə olduqca qiymətləndirilirdi. Hər il yerli və Şuşa tacirləri Naxçıvandan orta hesabla 5 min manatlıq məbləğində 200 puda qədər xalça alıb, satmaq üçün xaricə, əsasən Marselə aparırdılar. Xalçaçılığın inkişafı qoyunçuluqla əlaqədar olduğundan, bu işlə əsas etibarilə dağ kəndlərinin əhalisi məşğul olurdu. Xalçadan başqa, burada ipək sapla qarışıq zəif palazlar, məfləclər, cecimlər və s. də toxunurdu.

Naxçıvan və Şərur-Dərələyəz qəzalarında yem bitkiləri içərisində yonca, şəmbəllə və xaşa nisbətən böyük sahələrdə əkilərək, sulu torpaqlarda yoncadan 4 biçimdə 80-100 sentnerə qədər quru ot yığılırdı. Yonca yem bitkisi olmaqla eyni zamanda becərildiyi torpağın münbitliyini artırırdı. Sulu torpaqların azlığı yoxsul kəndlilərin yonca əkmələrinə imkan vermirdi.

Belə təsərrüfatlarda saxlanılan heyvanlar başlıca olaraq örüş otu və ya samanla yemləndirilirdi. Yaxşı yonca sahələri xanların, bəylərin və mülkədarların su altında yerləşən torpaqlarında idi. Yemin çatışmaması Naxçıvanın ayrı-ayrı yerlərində heyvandarlıq təsərrüfatının birtərəfli inkişaf etməsinə ciddi təsir göstərmişdir. Belə ki, əkinçilik ən çox yayılan düzən rayonlarda zəif yem bazası nəzərə alınaraq, burada əsas etibarilə iribuynuzlu mal-qara, xüsusilə iş heyvanı daha çox inkişaf etdirilirdi. Bu, hər şeydən əvvəl düzən rayonlarda əkinçiliyin iş heyvanlarına olan tələbatı ilə izah olunurdu. Lakin bu heç də o demək deyil ki, inqilabdan əvvəl əkinçilik geniş inkişaf etmiş düzən kəndlərdə bütün kəndli təsərrüfatı iş heyvanı ilə təmin edilmişdi. Əksinə, 1887-ci ilin məlumatına görə Şərur dairəsində kəndli təsərrüfatının 53 faizi iş heyvanından məhrum idi. Cəmi 4 faiz varlı kəndli təsərrüfatı isə bütün iş heyvanlarının 53 faizini öz əlində toplamışdı. Əkinçilik geniş inkişaf etmiş düzən rayonlarda xırdabuynuzlu malqara olduqca az yayılmışdır. Məsələn, Şərur dairəsində kəndli

təsərrüfatının təxminən 14 faizi xırdabuynuzlu mal-qaraya malik idi ki, bunların da xeyli hissəsi köçəri kürdlərin əlində idi. Geniş yay otlaqlarına və kəndarası örüşlərinə malik olan dağ rayonlarında isə əsas etibarilə xırdabuynuzlu mal-qara inkişaf etdirilirdi.

Naxçıvanın sənayesi o zaman bəsit idi və son dərəcə geri qalmışdı. 40-cı ilin əvvəllərinə aid məlumata görə burada cəmi 98 min pud (1,5 ton) duz çıxarılırdı.

Duz istehsalının az olmasının əsas səbəbi onun mövsümi xarakter daşıması idi. Duz əsas etibarilə aprel ayından oktyabr ayına qədər olan dövrdə çıxarılırdı. Bu zaman Zəngəzur dağlarından keçən əsas karvan yolları qardan azad olur və duzun ən çox alıcıları (Qarabağ, Gəncə və b. yerlərin heyvandarları) Naxçıvan sərhədləri yaxınlığındakı yay otlaqlarına köçürdülər.

Qədim vaxtlardan duz çıxarılan "Duzdağ" mədənindən başqa, 1835-ci ildə onun şimal-qərbindən 3-4 kilometrlik məsafədə yerləşən Sust kəndi yaxınlığındakı mədəndə də ilk dəfə duz istehsalına başlanılır. 1911-ci ildə Naxçıvanın hər iki duz mədənində birlikdə 9 min ton, 1912-ci ildə 7,5 min ton, 1913-cü ildə 5,7 min ton, 1914-cü ildə 7,5 min ton, 1915-ci ildə isə 5,3 min ton duz istehsal edilmişdir[1].

Bundan başqa, Ordubad şəhərində əl ilə hərəkətə gətirilən iki bəsit baramaaçma müəssisəsi var idi.

Bu zaman ölkədə ən çox yayılan istehsal sahələrindən biri kustar toxuculuq idi. Qriqoryevin yazdığına görə təkcə Naxçıvan şəhərində 40-dan artıq bez toxucusu var idi. Ordubadın şəhər əhalisinin təxminən yarısı toxucu idi ki, bunlar da Zaqafqaziyanın bir çox rayonlarını parça ilə təmin edirdilər.

Pambıqçılığın inkişafı ilə əlaqədar olaraq Naxçıvanın ayrı-ayrı yerlərində müxtəlif güclü pambıqtəmizləyən zavodlar tikilir. 1912-ci ilin məlumatlarına görə Naxçıvan MR ərazi-

---

[1] М.Н.Джаксон и А.Н.Флеров. Сборник статистических сведений погорной и горно-заводской промышленности СССР, 1911-24-25 г.

sində təqribən 85 pambıqtəmizləyən zavod var idi[1]. Bunların 27-si neft və buxar mühərrikləri vasitəsilə hərəkətə gətirilirdi. Pambıqtəmizləyən zavodlar pambıqçılıq ən çox inkişaf etmiş Şərur dairəsində yerləşmişdi. Burada ən böyük pambıqtəmizləyən zavodlar Yengicə kəndində idi. 1912-ci ilin məlumatına görə bu kənddə neft mühərrikilə işləyən 5 pambıq zavodu təxminən 1770 ton pambıq təmizləmişdir. Bu da bütün Naxçıvanda təmizlənən pambığın 50 faizə qədərini təşkil edirdi. Həmin ilin məlumatına görə Şərur dairəsinin Xanlıqlar kəndində 3 zavod 400 ton, Baş Noraşen kəndində bir zavod 96 ton, İbadulla kəndində bir zavod 80 ton pambıq təmizləmişdi. Başqa zavodlar isə az güclü idi. Ordubad şəhərində 3 zavod birlikdə 96 ton, Cəhri kəndində 3 zavod 720 ton, Naxçıvan şəhərində 4 zavod 40 ton pambıq təmizləmişdi. Naxçıvanda təmizlənən pambıq, demək olar ki, bütünlüklə Mərkəzi Rusiyanın toxucu fabriklərinə ixrac edilirdi.

Baramaçılığın inkişafı öz növbəsində Naxçıvan qəzası daxilində ipək sənayesinin, xüsusən baramaaçma istehsalının bir sıra müəssisələrinin yaranmasına səbəb olur. 1870-ci ildə Avropa baramaaçma fabrikləri tipində Ordubad şəhərində ilk mükəmməlləşdirilmiş müəssisə tikilir və sonrakı illər bunların sayı getdikcə artır. 1912-ci ildə Naxçıvan MR-ın indiki ərazisində 25-ə qədər müxtəlif tipli baramaaçma və ipəksarıma fabrikləri var idi, lakin bunların çoxu bəsit formada idi. 16-dan artıq fəhləsi olan və maşınla işləyən, yəni fabrik-zavod istehsalı mərhələsində olan müəssisələrdən Naxçıvanda 7 ipək fabriki var idi. Bunlardan 5-i Ordubad şəhərində, biri Çənənəb kəndində, biri isə Əylis kəndində idi. Ordubad şəhərində olan fabriklər İranın sərhəd rayonu kəndlərindən də həmçinin xeyli miqdarda barama alıb emal edirdilər. İpək xammalı bütünlüklə Mərkəzi Rusiyanın ipəktoxuma fabriklərinə göndərilirdi.

Çar Rusiyası 1834-cü ildə, hər şeydən əvvəl, özünün hərbi-strateji məqsədlərini nəzərə alaraq, 272 kilometr uzun-

---

[1] Памятная книжка Эриванской губернии на 1914 г.

luğunda Tiflis-Ağstafa-Dilican-Yerevan-Culfa şose yolunun inşasına başladı ki, bunun da 120 kilometrə qədəri Naxçıvan ərazisi daxilindən keçirdi. Bu şose yolu tamamilə dövlət hesabına çəkilərək, onun başa gəlməsinə 2 milyon manata qədər, o cümlədən Şərur dairəsinin Dizə kəndi yaxınlığındakı Şərqi Arpaçay üzərindəki böyük körpüyə 78 min manata yaxın pul sərf edilmişdir: İkinci başqa bir yol, lakin özünün iqtisadi əhəmiyyətinə görə Ağstafa-Tiflis-Dilican-Yerevan-Naxçıvan-Culfa şose yolundan az əhəmiyyətli Naxçıvan-Biçənək yolu idi. 1899-cu ildən başlanmış və 1906-cı ildə başa çatdırılmış Tiflis-Yerevan-Culfa dəmir yolunun çəkilməsinin Naxçıvanın iqtisadiyyatına böyük təsiri olmuşdur.

İran sərhədində ən böyük gömrük mərkəzlərindən biri olan Culfa şəhəri çar Rusiyasının xarici ticarətində əhəmiyyətli rol oynamışdır. 1912-ci ilin məlumatına görə Naxçıvan ərazisində olan gömrük mərkəzlərindən (Culfa, Şahtaxtı, Ordubad, Alışar) 16,6 milyon manatlıq 2,3 milyon pud müxtəlif mallar (qənd, metal məmulatları, taxıl və s.) idxal edilmişdir. Həmin ildə bütün ixracın 15,7 milyon manatlıq 2,2 milyon pudu, idxalın isə 3,8 milyon manatlıq 814 min pudu Culfa gömrük məntəqəsinin payına düşürdü[1].

Naxçıvan MR-in əhalisi mütərəqqi surətdə artmağa başlayır.

**Cədvəl 2**

**Naxçıvan MR əhalisi**

| Göstəricilər | İLLƏR | | | |
|---|---|---|---|---|
| | 1829-32 | 1886 | 1897 | 1910 |
| Bütün Naxçıvan ərazisinin əhalisi o cümlədən: | 50,000 | 104,000 | 125,000 | 140,000 |
| Naxçıvan şəhəri | 5500 | 7000 | 8900 | 9500 |
| Ordubad şəhəri | 3500 | 4200 | 5000 | 5200 |

[1] А.Оганян. Безрельсовый транспорт до Советской Армении. Научные труды Ереванского гос. УН-та, 1954, № 1

Cədvəl 2-dən göründüyü kimi, Naxçıvan əhalisi, demək olar ki, uzun bir müddət az da olsa, lakin müntəzəm olaraq artmışdır. Bunun başlıca səbəbi Naxçıvanın 92 ilə yaxın Rusiyanın tərkibində olduğu müddətdə buraya xaricdən heç bir yadelli basqınların olmaması və buna görə də əvvəlki illərə nisbətən əhalinin kütləvi surətdə qırılmasının qarşısının alınması idi. Lakin bununla belə qeyd etmək lazımdır ki, əgər bir tərəfdən əhalinin xarici basqınlardan tam sakitliyi bərpa edilmişdisə də, digər tərəfdən isə onun ən geniş təbəqəsi içərisində hökm sürən ağır iqtisadi vəziyyət hər il Naxçıvandan xeyli miqdarda adamların başqa yerlərə iş dalınca getməsinə səbəb olurdu ki, bu da əhalinin yüksək artımının qarşısını alırdı. Məsələn, 1891-ci ildə müxtəlif yerlərdə iş axtarmaq üçün başqa yerə gedənlərə təkcə Naxçıvan qəzasında 3231 pasport, 1892-ci ildə 3434 pasport, 1893-cü ildə 4100 pasport[1], 1903-cü ildə 5000 pasport[2] 1914-cü ildə isə 7090 pasport[3] verilmişdir. Bununla belə qeyd etmək lazımdır ki, pasport verilməsindəki çətinliklər nəticəsində çox adam Naxçıvandan heç pasport almadan gedirdi.

Zəhmətkeş kütlələrin çətin iqtisadi vəziyyəti ilə yanaşı onun mədəni səviyyəsinin olduqca aşağı olması və lazımi səhiyyə xidmətlərinin olmaması əhalinin təbii artımının qarşısını ciddi surətdə alırdı. Məsələn, inqilabdan əvvəl 100 mindən artıq əhalisi olan Naxçıvan qəzası üzrə əhalinin bir neçə il ərzindəki təbii artımı buna ən parlaq misal ola bilər.

---

[1] Р.И.Данилович. Район Тифлисско-Карсско-Ереванской железной дороги в экономическом и коммерческом отношениях. Тифлис, 1897

[2] А.С.Амбарян. Развитие капиталистических отношений в армянской деревне (1870-1900). Дисс., л., 1953.

[3] Обзор Эриванской губернии на 1914 г.

Cədvəl 3

Naxçıvanda əhali artımı

| İllər | Mütləq rəqəmlər artım (nəfərlə) | Orta illik artım (faizlə) |
|---|---|---|
| 1902 | 1000 | 0,8 |
| 1904 | 316 | 0,3 |
| 1906 | 127 | 0,1 |
| 1908 | 148 | 0,1 |
| 1910 | 1000 | 0,8 |
| 1912 | 1400 | 1,2 |
| 1914 | 323 | 0,3 |

Əhalinin zəif artmasına həmçinin tez-tez baş verən yoluxucu xəstəliklər səbəb olurdu.

Çarizm və rus burjuaziyası özlərinin mürtəce milli müstəmləkə siyasətini həyata keçirərək, ölkə daxilində ayrı-ayrı xalqları bir-birinə qarşı qoymaqla, onlar arasında düşmənçilik toxumu səpirdilər. Naxçıvan vilayətinin inqilabdan əvvəlki keçmişi çar hökuməti və onun yerli nökərləri tərəfindən qızışdırılan milli qırğın kimi kədərli hadisələrlə bağlıdır. Birinci Dünya müharibəsi zamanı ingilis qoşunlarının işğalı nəticəsində Naxçıvan ölkəsinin təsərrüfatı, demək olar ki, tamamilə tənəzzülə uğramışdı. Əkin sahəsi təxminən 1920-ci ildə 15-20 min hektara enmişdi ki, bu da Birinci Dünya müharibəsindən əvvəlki dövrə nisbətən iki dəfədən çox az idi. Pambıqçılıq, demək olar ki, tamamilə inkişafdan dayanmışdı və bununla əlaqədar olaraq bütün pambıqtəmizləyən zavodlar bağlanmışdı, müəyyən hissəsi dağılmışdı. Meyvə bağları və xüsusilə üzümlüklərin sahəsi xeyli azalmışdı.

Naxçıvanın heyvandarlıq təsərrüfatına da ciddi zərər dəymişdi. Mal-qaranın sayı həm bilavasitə müharibə nəticəsində və həm də İran kürdləri tərəfindən Naxçıvandan böyük sürülərlə oğurlanıb Arazın o tayına aparılması nəticəsində xeyli azalmışdı. Ordubadda olan ipək fabriklərinin əksəriyyəti dağıdılmış və bununla əlaqədar olaraq baramaçılıq

xeyli sürətlə tənəzzül etmişdir. Naxçıvanın hər iki duz mədənində duz istehsalı, demək olar ki, tamamilə dayandırılmışdı. Qırılmaqdan əlavə çoxlu miqdarda əhali İrana və başqa yerlərə qaçmışdı. Öz böyüklüyü və şəhərə oxşarlığına görə əhali arasında «Bala stanbul» adlanan məşhur ticarət mərkəzi Əylis və başqa onlarla kənd dağıdılaraq yandırılmışdı.

Torpaq bölgüsü üzrə apardığımız hesablamalar göstərir ki, inqilaba qədər Naxçıvan və Şərur-Dərələyəz qəzalarındakı 17917 kəndli təsərrüfatının hərəsinə orta hesabla 2,24 desyatin (əkilməsi mümkün olmayan sahələr də daxil olmaqla) torpaq düşürdüsə, cəmi 294 xan, bəy və mülkədarın hərəsinə 931,6 desyatin tam əkinə yararlı torpaq düşürdü.

Klassiklər kapitalizm şəraitində zəhmətkeş kəndli kütlələrinin ağır vəziyyətini, xırda xüsusi mülkiyyətin onları nə yaşaya və nə də ölə bilmək vəziyyətində, yarımcan vəziyyətdə saxladığını göstərmişlər. K.Marks yazmışdır ki, «kəndlilərin istismar olunması ilə sənaye proletariatının istismar olunması arasında yalnız forma etibarilə fərq vardır. Bunların hər ikisinin istismarçısı yenə də kapitalın özüdür... yalnız kapitalın süqutu kəndlini yüksəldə bilər, yalnız antikapitalist proletar hökuməti kəndlinin iqtisadi səfalətinə və ictimai tənəzzülünə son qoya bilər»[1].

1914-cü ildə dünya müharibəsinin başlanması, bütün Rusiyada olduğu kimi, Naxçıvanda da kənd təsərrüfatının tənəzzülünə səbəb oldu. Rusiya bazarları ilə əlaqə kəsildi. Texniki bitkilərin əkini dayandırıldı. Gəlirli kənd təsərrüfat sahələrinin tənəzzülə uğraması kəndlilərin vəziyyətini ağırlaşdırdı. 1917-ci ildə mütləqiyyətin yıxılması və hakimiyyətin burjuaziya əlinə keçməsi ölkənin təsərrüfat həyatını daha da sarsıtdı. Ölkədə hərc-mərclik başlandı. Naxçıvan kəndlilərinin əsrlər boyu çəkdikləri əziyyətlərə ancaq 1920-ci ildə Azərbaycanda Sovet hakimiyyətinin qələbəsi son qoydu.

Kəndlərdə inqilabi kəndli komitələri fəaliyyətə başladı. İstismarçılardan müsadirə edilmiş torpaqlar kəndlilərə pay-

---

[1] K.Marks, F.Engels. Seçilmiş əsərləri, 1-ci cild, səh. 319.

landı: Su resurslarının istifadəsi yaxşılaşdı. Xalq təsərrüfatını qaydaya salıb bərpa etmək işlərinə başlandı. Quruculuq dövrü üçün hazırlanmış tədbirlər burada əsas iş proqramı oldu.

Naxçıvan MR-də ilk növbədə xalq təsərrüfatının əsas sahəsi olan kənd təsərrüfatının geniş inkişafı üçün müxtəlif tədbirlər həyata keçirilməyə başlandı. Dövlət vəsaiti və köməyi ilə müharibə nəticəsində dağılmış suvarma kanalları bərpa edildi. Bunun nəticəsində 1928-ci ildə ümumi əkin sahəsi 1913-cü il səviyyəsini ötüb keçdi.1932-ci ildə respublikada bütün kəndli təsərrüfatı pambıq əkini sahəsinin 47%, taxıl əkini sahəsinin 36,3 faizini əhatə edən 193 kolxoz (1928-ci ildə isə ilk 20 kolxoz təşkil edilmişdir) var idi.

Sovet hakimiyyəti illərində Naxçıvan MR-də sənayenin inkişafında da böyük müvəffəqiyyətlər əldə edilmişdir. Məlumdur ki, Naxçıvanın inqilabdan əvvəl onsuz da zəif inkişaf etmiş sənayesi birinci dünya və vətəndaş müharibələri nəticəsində tamamilə dağıdılmışdı. Ona görə də sovet hakimiyyəti illərində respublikada sənaye quruculuğu, demək olar ki, tamamilə yenidən təşkil edilmişdi.

Respublikada birinci növbədə duz istehsalı bərpa edilmişdi və 1925-ci ildə 1913-cü ilə nisbətən 2,8 dəfə çox duz çıxarılmışdı. Bərpa dövründə kənd təsərrüfatının az-çox dirçəlməsi ilə əlaqədar olaraq, onun ayrı-ayrı sahələrinin xammalı əsasında bir neçə sənaye müəssisələrinin tikilişinə başlanıldı. 1924-1925-ci illərdə də Naxçıvan şəhərində və Şərur qəsəbəsində bir vaxtda iki böyük pambıqtəmizləyən zavod tikilir. Lakin çox keçmədən məlum olur ki, respublikada xam pambıq istehsalının az olması üzündən hər iki zavod öz istehsal gücünün ancaq 50 faizindən istifadə edə bilər. Ona görə də bütün pambıq təmizlənməsi əsas pambıqçılıq rayonunda yerləşən Şərur zavodunda mərkəzləşdirildiyi üçün, Naxçıvan zavodu bağlanır.

1926-cı ildə əsas üzümçülük rayonlarının arasında yerləşən Naxçıvan şəhərində böyük çaxır-spirt zavodu tikilir. 1929-cu ildə əsas bağçılıq Ordubad rayonunda, konserv zavodu Ordubad şəhərində yaradılır. İpəkçiliyin dirçəlməsi nəti-

cəsində respublikada olan onlarca bəsit ipək fabrikləri əsasında Ordubad şəhərində müasir ipək fabriki yenidən qurulur. Ordubad şəhərində respublikanın rayonlarını yüksək barama toxumu ilə təmin etmək üçün barama zavodu açılır.

Naxçıvan MR-də tarixdə ilk dəfə olaraq bir neçə elektrik stansiyasının tikilişinə başlanılır ki, bunların da ümumi gücü 1932-ci ildə 400 kilovata çatır. 1929-cu ildə Başbaşı dəmiryol stansiyası ilə Naxçıvan duz mədəni arasında 12 kilometrlik məsafədə elektrikləşmiş hava məftil yolu çəkilir ki, bu da duz istehsalında ən zəif nöqtələrindən biri olan duzun fasiləsiz və asan daşınmasını təmin edir.

İnqilabdan əvvəl Naxçıvan MR-ın müasir ərazisi özünün yolsuzluğu ilə səciyyələnirdi. Sovet hakimiyyəti illərində respublikada o qədər şose və dəmir yolları salınmışdır ki, hazırda Naxçıvan Respublikasının iqtisadi həyatında Böyük Vətən müharibəsi illərində Bakı-Yerevan dəmir yolunun Culfa-Mincivan sahəsində tikilib başa çatdırılması da böyük əhəmiyyətə malik idi. Naxçıvan MR-nın hazırki ərazisində əhalinin artımı 1897-ci ildən 1917-ci ilə qədər 5% olmuşdur. Qeyd etmək lazımdır ki, əhalinin sayı burada 1917-ci ildən 1920-ci ilə qədər nəinki artmamış, 52 min nəfərə qədər, yəni 38% azalmışdır. Əhalinin bu az müddətdə azalması çar hökumətinin mənfur əlaltıları olan daşnaq quldurlarının qısamüddətli ağalığı ilə əlaqədar idi. Xalqın qəddar düşmənləri o zaman əhalinin xeyli hissəsinin siyasi şüurunun aşağı olmasından istifadə edərək öz mənfəətləri naminə Azərbaycan və erməni xalqları arasında milli ədavət salır, qırğın yaradaraq kütləvi surətdə, xüsusən İrana qaçmasına, habelə misli görünməmiş aclıq üzündən əhalinin böyük tələfatına səbəb olmuşdur.

Sovet hakimiyyəti illərində respublikanın təsərrüfatı və mədəni həyatında geriliyin ləğv edilməsi, əhalinin maddi rifah halının yüksəlməsi, xəstəliklərə qarşı tədbirlərin görülməsi nəticəsində Naxçıvan MR əhalisi xeyli artmışdır.

Hazırda MR Azərbaycanın inkişaf etmiş aqrar-sənaye rayonlarından biridir. Onun xalq təsərrüfatının quruluşu başlıca olaraq yerli təbii sərvətlərdən və iqtisadi imkanlardan is-

tifadə edilməsi əsasında daim təkmilləşir və inkişaf edir. Naxçıvan MR-in iqtisadi və sosial inkişafının mühüm xüsusiyyətlərindən biri olan çoxsahəli kompleks inkişafı idi. Bir sıra mühüm sənaye və kənd təsərrüfatı məhsulları istehsalının həcminə görə Muxtar Respublika ictimai ərazi əmək bölgüsündə mühüm rol oynayır. 1992-2002-ci ilin məlumatlarına görə Naxçıvan MR-in payına respublikamızda hasil edilən daşduz və şüşə butulkalarının hamısı, mineral suların 90%-i, konservlərin 52%-i, ipək xammalın 20%-dən çoxu, alt trikotaj məmulatlarının 23%-i, bir sıra elektrotexnika məmulatlarının, dağ-mədən məhsullarının, fermentləşmiş tütünün, ilkin şərab materiallarının xeyli hissəsi, ümumi kənd təsərrüfatı məhsullarının 4%-dən çoxu, o cümlədən üzümün 2,4%-i, tütünün 6%-i, tədarük edilən yunun 11%-i düşmüşdür.

Naxçıvan MR-in müasir iqtisadiyyatının mühüm xüsusiyyətlərindən biri ondan ibarətdir ki, xalq təsərrüfatının quruluşunda Muxtar Respublikanın ictimai ərazi əmək bölgüsündə fəal rolunu təmin edən istehsal sahələri əsas yer tutur. Eyni zamanda burada çoxcəhətli yerli tələbatı ödəyən bir sıra mühüm xalq təsərrüfatı sahələri də geniş inkişaf etmişdir.

Sənaye potensialının miqyasının genişlənməsi onun quruluşunda baş verən müsbət dəyişikliklər əsasında yüksək artım hesabına həyata keçirilmişdir.

Hazırda sənaye məhsulunun ümumi həcminə görə Naxçıvan MR-in 7 iqtisadi rayon şəraitində Bakı-Sumqayıt, Kür-Araz, Gəncə-Daşkəsəndən sonra dördüncü yerdə durur.

Sənayenin bütün sahələri 100-ə qədər müəssisəni əhatə edir ki, onlardan 46-sı müstəqil balansda olan iri müəssisələrdir.

Elektroenergetika sənayesi (Araz çayı üzərində İran dövləti ilə birlikdə yaradılmış bənddə tikilmiş iki aqreqatın biri) yerli elektrik şəbəkələri ilə təmsil olunmuşdur.

Tikinti materialları istehsalı çoxsahəlidir. Əsasən müxtəlif yerli xammaldan istifadə etməklə Muxtar Respublikanın öz tələbatını ödəmək vəzifəsini yerinə yetirən bu sahənin müəssisələri başlıca olaraq dəmir-beton hissələri, kərpic, üzlük plitələr, yapışdırıcı materiallar və s. tikinti materialları

hasil edir. Şərur rayonunun Şaxtaxtı kəndində hasil edilən yüksək keyfiyyətli üzlük travertin plitəsindən metro tikintilərində, mədəniyyət və inzibati binaların bəzək işlərində geniş istifadə olunur. Bu qiymətli tikinti materialı nəinki respublikada, bir çox xarici ölkələrdə də yüksək qiymətləndirilir. Ordubad ipək fabriki əsasən yerli baramanın emalı ilə məşğul olaraq, respublikanın bir sıra ipək parça fabriklərini xammalla təmin edir və xarici ölkələrə satır. 1991-ci ildə fabrik 100 ton, 2002-ci ildə 120 ton ipək xammalı hasil etmişdir ki, bu da 1970-ci ilə nisbətən müvafiq olaraq 6 dəfə və 8 dəfə çoxdur.

Yüngül sənayenin ən geniş yayılan sahələrindən biri də tikiş sənayesidir. Onun müəssisələri bütün rayonlarda mövcud olan məişət xidməti kombinatlarında yaradılmış, ən iri istehsalı isə Naxçıvan tikiş fabrikində cəmlənmişdir. Bu müəssisələr yerli əhalinin və Azərbaycanın başqa rayonlarının tələbatını ödəmək üçün geniş çeşidli müxtəlif tikiş məmulatları istehsal edirlər.

Yeyinti məhsulları istehsalının ümumi həcminə görə o sənayenin bütün sahələri içərisində birinci yerdə durur. Onun daha çox inkişaf etmiş sahələrindən biri şərabçılıqdır.

Naxçıvanı haqlı olaraq mineral sular qalereyası adlandırırlar. Muxtar Respublikada 200-ə yaxın mineral su mənbəyi vardır. Son illərdə «Badamlı», «Sirab» və «Vayxır» mineral sularından məqsədyönlü şəkildə istifadə olunmasına başlanılmışdır. Naxçıvan əsas mineral su dolduran sənaye mərkəzi, eyni zamanda istehsalın bu sahəsi üzrə ölkənin mühüm rayonlarından biridir. Badamlı (Narzan tipli) və Sirab (Borjom tipli) su mənbələri əsasında eyniadlı mineral sular dolduran zavodlarda 1991-ci ildə 134 milyon butılka məhsul buraxılmışdır ki, bu da 1970-ci ildəkindən 3,6 dəfə çoxdur. 80 milyon butılkadan artıq mineral sular respublikanın şəhərlərinə göndərilmişdir.

Hazırda mineral sular respublikada yerli əhəmiyyətə malikdir. Xüsusi mülkiyyət sahibləri Naxçıvan MR mineral sularını maşınlarla gətirərək Bakıda və başqa rayonlarda butılkaya doldurub satırlar. Deməli, Naxçıvan mineral sularının

çox az hissəsi istifadə olunur. Bunun əsas səbəbi isə Naxçıvan MR-nın Ermənistan tərəfindən blokadada saxlanmasıdır.

Duz mədəninin maddi-texniki bazasının müasir tələblər səviyyəsində genişləndirilməsi, xüsusən onun nəql edilmə şəraitinin yaxşılaşdırılması nəticəsində bu mühüm məhsulun istehsal həcmi müqayisə olunan dövrdə 104 min ton daşduz çıxarılmışdır. Bu da əvvəlki illərdən artıqdır. Muxtar Respublikada Araz, Arpaçay və Vayxır dəryaçalarının salınması böyük sosial-iqtisadi əhəmiyyətli hadisələrdəndir. Arpaçay dəryaçasının yaradılması Muxtar Respublikanın, xüsusən Şərur rayonunun iqtisadiyyatının inkişafına çox güclü təkan vermişdir. Vaxtı ilə insanlara bəla, məşəqqət gətirən, Xan çobanın sevgilisi Saranı əlindən alan dəlisov dağ çayı ram edilərək insanların xidmətinə verilmişdir. 150 milyon kubmetr su tutumu olan Arpaçay dəryaçası hələlik Şərur rayonunun kəndlərinin vəziyyətini yaxşılaşdırmışdır. Naxçıvançay üzərində yaradılan Vayxır dəryaçası Şahbuz və Babək rayonlarının minlərlə hektar torpağını suvararaq yüksək məhsul götürməyə imkan yaradır. Azərbaycan Respublikasının Prezidenti mərhum cənab Heydər Əliyevin müdrik rəhbərliyi və gündəlik qayğısı sayəsində xalq ədalətli yol ilə getmiş, iqtisadi və sosial tərəqqi tapmış, azad, müstəqil, demokratik Naxçıvan Muxtar Respublikası Şərqin qapısında günəşdən nurlanan parlaq mayaka çevrilmişdir.

prof. C.M.Mahmudov
dos. Q.H.Həsənov
AzDİU-nun «İstehsal sistemləri və ətraf mühitin mühafizəsi» kafedrası

# NAXÇIVAN QƏDİM MƏDƏNİYYƏT ÖLKƏSİDİR

Azərbaycan adlı ölkənin ən qədim diyarlarından olan Naxçıvan bəşər tarixində öz dünya təfəkkürlü övladları ilə məshurlaşmışdır. Bu torpağın Azəri övladları süfrələrini həmişə gələn qonaqların üzünə ürəkaçıqlığı ilə açmış, süfrələrinin yuxarı başında oturdub layiqincə hörmət göstərmişlər. X-XIV əsrlərdə Şərqdə elm-mədəniyyət öz dövrünə görə çox yüksək inkişaf etmişdi. Bu torpağın məşhur elm xadimləri, sərkərdələri, bəşəri dəyərləri açıb xalqına bəxş edən övladlarından Nəsirəddin Tusi öz dövrünə görə elmi-əxlaqi təsəvvürün şahı sayılırdı.

Nəsirəddin Tusi adı ilə şöhrət tapmış Məhəmməd ibn Məhəmməd ibn Həsən 1201-ci il fevralın 17-də Cəhrud mahalında anadan olmuşdur. 1274 ildə Bağdad şəhərində vəfat etmiş, Samarada dəfn edilmişdir. Qəbrinin üstündə «Xalqın yardımçısı, elm ölkəsinin şahı belə oğlu zamanın anası doğmamışdır» həkk olunmuşdur.

İlk təhsilini Tusda aldığına görə Tusi ləqəbini götürmüşdür. Onun həyat fəaliyyəti barədə Azərbaycan tarixçisi Rəşidəddin Fəzlüllah çox dəyərli məlumat vermişdir. Orta əsrlərin dahi alim və mütəfəkkiri Nəsirəddin Tusi; riyaziyyat, astronomiya, tibb, ədəbiyyat, həndəsə, fizika, məntiq, etika, fəlsəfə, mineralogiya və s. elmlərin müxtəlif sahələri üzrə yüzdən artıq əsərin müəllifidir. Nəsirəddinin üç oğlu, bir qızı olmuşdur. Övladları və nəsili uzun müddət Marağada və Cənubi Azərbaycanın müxtəlif bölgələrində yaşamışlar. XVI əsrin əvvəlində və XVIII əsrin axırında onun nəslindən olan bir çox məşhur dövlət xadimləri Şah İsmayil Xətai və I Şah Abbasın dövründə mühüm dövlət vəzifələrində çalışmışlar.

Ordubad vilayətində Nəsirəddin Tusinin nəsilinin yaşaması və I Şah Abbasın bu məqsədlə Ordubad mahalını hər cür vergidən azad etməsi haqqında əmri daş kitabədə həkk olunmuşdur. Fərmanda «Silsileyi-nəsiriyyə -Tusiyyə» dedikdə XIII əsrdə yaşamış məşhur astronom dünya təfəkkürlü, beynəlmiləlçi, elm fatehi Nəsirəddin Tusinin Ordubadda yaşayan nəsli nəzərdə tutulmuşdur. Qeyd olunan fərman «Cümə məscidi»nin qapısı üzərində inşa edilmişdir. XIX əsrin sonuna qədər Nəsirəddinin nəsli Ordubad şəhərində və onun yaxınlığında olan kənddə yaşamışlar. N.Tusinin nəslindən olan Ordubadlı Hətəmbəy Şah Abbasın baş vəziri vəzifəsində çalışmışdır. Hətəmbəy vəzirlikdən qabaq Ordubad şəhərinin kələntəri olmuşdur. O, Şah Abbasın bütün hərbi yürüşlərində, müşavirələrində, ov mərasimlərində fəal iştirak etmişdir. Dövlət xəzinəsi Hətəmbəyə tapşırılmışdır.

XX əsrin əvvəlində Naxçıvanda Nəsirəddin Tusi nəslindən olan Mehdi Xan Ordubadlı yaşamışdır. Onun üç oğlu, üç qızı varmış, onun oğlu Təvəkkül Xan Ordubadlının üç bacısı vardır.

Təvəkkül xan Ordubadlının qızı Hökümə xanım Bakıda, Dilbər xanım Gəncədə, Nazlıbəyim Naxçıvanda yaşayıblar.

Hökümə xanımın oğlu şair və dramaturq İslam Səfərlidir, Dilbər xanımın oğlu Firidun Zamanzadə Azərbaycan Dəmir yolu İdarəsində işləyir, Nazlıbəyimin oğlu Sovet İttifaqı Qəhrəmanı Abbas Quliyevdir. Bu tarixi faktlar müasir dövrümüzə qədər gəlib çataraq bu torpağın övladlarının nə qədər əməksevər qeyrət dayağı olmasını əyani vasitələrlə sübuta yetirir.

Nəsirəddin Tusinin yaşayıb-yaratdığı, onu dünya elminin ən parlaq ulduzlarına çevirən Marağa şəhəri Cənubi Azərbaycanda təbii gözəlliyi ilə məşhur olan ən bərəkətli zəngin şəhərlərdən biridir. Bağlarla qərq olunmuş Marağaya bir neçə kilometr qalana qədər artıq hava çiçəklənmiş zeytun ağaclarının ətri ilə dolur. Marağa Urmiyyə gölünün Şərq sahillərindən düz həndəsi xətlə təqribən 35 kilometr uzaqda və dəniz səviyyəsindən 1613 metr yüksəklikdə yerləşmişdir. Şəhər Səfi

çayının axarında salınmışdır. Suyu şəhərdən yuxarıda arxlarla elə bölünmüşdür ki, göz oxşayan bağlarını, üzümlük və tarlaları suvarsın. Bu qədim elm mərkəzi olan yurd yeri Azərbaycan torpağının ən bərəkətli ərazilərindən biridir. Müalicə əhəmiyyətli şəfalı bulaqları Şərq dünyasının möcüzəsidir.

Urmiyyə gölünün uzunluğu 135 km., eni isə orta hesabla 40 km-dir. Gölə tökülən çaylar vasitəsilə gələn balıqlar gölün suyunun şorluluğundan tələf olurlar. Bu gölə Acı çay, Qara quba, Çatıl çay, Nazlı çay, Şəhər çay və s. çaylar axır.

Hülaku Xan Ələmuta doğru qoşun yeritdikdə Nəsirəddin Tusi bir neçə məsləkdaşı ilə birlikdə onun tərəfinə keçmişdir. O,Tusinin elmi fəaliyyətinə yardım etmiş, onun istedad və sədaqətinə inanaraq Marağa rəsədxanasını tikdirməyi ona tapşırmışdır.

Hülaku xanın xəzinəsi Urmiyyə gölündəki Şahı adasında yerləşirdi, saysız hesabsız qiymətli daşlar burada mühafizə olunurdu. Elxani dövlətinin sosial-iqtisadi gücünü daha da artırmaq üçün bu xəzinənin saxlanılmasının, qiymətli daş-qaşların hesaba alınmasının dövlətin idarə edilməsində, hərbi qüdrətinin gücləndirilməsində böyük iqtisadi-siyasi əhəmiyyəti vardır. Bu məqsədlə də Hülaku xan qiymətli daş-qaşların xassələrini və dəyər qiymətini müəyyənləşdirən bir əsər yazmağı N.Tusiyə həvalə etmiş, nəticədə əsər tərtib edilib hökmdara hədiyyə edilmişdir. «Cavahirnamə» yazılarkən bir sıra yazılı mənbələrdən və məlumatlardan çox geniş istifadə olunmuşdur. Nəsirəddin Tusi Əbu-Reyhan Əl-Biruninin «Cavahirnamə», İbn Sinanın «Qanun» əsərlərindən, səlcuq tarixinə aid sənədlərdən, digər tarixi-elmi mənbələrdən də istifadə etmişdir.

Əsərdə iqtisadi və müalicə əhəmiyyətli 23 mineral, 2 sümük və 3 ot növü təsvir edilmişdir. Bu minerallların növləri müasir elmdə möcüzə olaraq qalmaqdadır.

Qiymətli minerallardan qırmızı yaqut-rubin, göy yaqut-sapfir, almaz-brilyant, ləl və firuzə təsivr olunmuşdur.

Yarımqiymətli daşlardan süleymandaşı-qranat, mirvari, ametist, farizəhr, malaxit, büllur, mina, markazit, maqnitli də-

mir daşı, həcərül- heyyə, bürünc-tunc və s. xüsusiyyətlərindən bəhs edilir.

Yaqut müasir elmdə rubin-qırmızı və sapfir-göy növləri ilə məşhurdur. Nəsirəddin Tusi isə rəng dəyişilməsinə görə yaqutun 30 növünü, o cümlədən qırmızı-8 növ, göy-16 növ, sarı 4 növ, ağ 2 növ göstərmişdir.

Müasir moos cədvəlində ikinci yeri tutan 9 sərtlikli yaqutların minerallar qruplaşmasında 10 bərabər ən sərt almazla deşilməsi qeyd edilmişdir. Zümrüdün 11 növü münasib adlarla təsvir edilmişdir.

Almazın 4 növü göstərilmiş, onun XIII əsrdə böyük sosial-iqtisadi əhəmiyyət kəsb etdiyindən bəhs edilmiş, dəyər qiymətinin 100 qızıl dinara bərabər olduğu yazılmışdır.

«Cavahirnamə» əsərində XIII əsrdə daşların emalı texnologiyasının səviyyəsini təsəvvür etmək mümkündür. Daş-qaşlarda deşiyin açılması, onların yonulması, cilalanması və süni rəngləmə haqqında da məlumat verilmişdir. Bu istehsal texnologiyası işin keyfiyyəti ilə qiymətləndirilmişdir.

Yarımqiymətli minerallardan əşyaların, qabların istehsalı, daş-qaşların üzərində yazı sənəti, şüşənin güclü odda qızdırılıb müxtəlif məmulatların hazırlanması texnologiyası və s.barədə də sərrast, dəqiq məlumat verilir.

«Cavahirnamə»nin Azərbaycan bədii-ədəbi dilinin elmi inkişaf tarixində xüsusi əhəmiyyət kəsb edir. Əsər minerologiya elmi ilə bağlı olan biliklərin, bədii ifadə vasitələrinin və məfhumların dərindən öyrənilməsi üçün çox dəyərlidir. Bu göstərilən bədii-ədəbi ifadələr Azərbaycan şairlərinin əsərlərində öz əksini tapmışdır. Qətran Təbrizi, Xəqani, Nizami, Fizuli, Vaqif və Vidadinin əsərlərində verilmiş bir sıra söz və ifadələrin mənalarının aydınlaşdırılmasında bu əsərin böyük ədəbi əhəmiyyəti vardır. Nəsirəddin Tusinin fizika elminə aid bir neçə əsəri vardır. Bunlardan «İşıq şüasının qayıtması və sınması», «İsti və soyuq haqqında», «Göy qurşağı haqqında» və s. əsərlərini göstərmək olar. Bu elmi əsərlər öz ahəngdarlığını, fiziki əsaslarını sonradan Avropanın XVI-XVIII əsr alimlərinin əsərlərində təkrarlanmasının göstərir... Alim «Ca-

vahirnamə» əsərlərində kristallarda, xüsusən almazda və büllurda göy qurşağına bənzər rəngarənqliyi göstərmişdir. Almazın növləri – şüşəyəbənzər ağ və şəffaf; təbni – samani, azacıq sarıya çalır; simabi-civə rəngdədir; zəytuni – tünd yaşıl rəngdədir;

Bundan əlavə, almazın qırmızı, yaşıl, qara və əkhab növləri də vardır. Almazın emalı texnologiyası, qiyməti əldə edilmə qaydaları şərh edilir. Əsasən almaz hündür, uca və sıldırımlı dağların arasından axan çaylarda olur.

A.Düma 1858-cı ilin ikinci yarısından 1859-cu ilin əvvəlinə qədər Rusiyada və Qafqazda olmuşdur. Aleksandr Düma (Ata) bütün dünyəvi xüsusiyyətləri özündə cəmləşdirən xoşbəxt yazıçılardandır. O, Azərbaycanda Dərbənd, Qafqazın nəhəng qalası, Şah Abbas karvansarası, Bakı, Bakının ətraf yerləri, Xəzər dənizi, Şamaxı və Şəkidə olmuş, qədirbilən xalqımızın milli vüqarını «Qafqaz səfəri» kitabında qələmə almışdır. O, Bakıda Xurşudbanu Natəvanla, onun həyat yoldaşı Xasaybəy Usmuyevlə görüşərək bu xalqın mədəni, mənəvi əxlaqına heyran qalmışdır. Qarabağ xanının qızı olan Xurşudbanu Natəvan A.Dümaya öz əl işlərini hədiyyə olaraq bağışlamışdır. O, Parisə bəzi həşəratlardan qorunmaq üçün Bakı və ətraf yerlərdə istifadə edilən birəotundan (yovşanın bir növü) bir kisə, yağışı keçirməyən mahuddan bir neçə dəst ... və s. aparırsa, ilan sancarkən yaranın üstünə qoyularaq zəhəri çəkən «həçərül-ləyyə» (ilan daşı) əldə edib, Fransaya aparmağa cəhd göstərirsə, bunu ona heç kəs vermir. Bu şəxsin nə qədər öz xalqını sevməsinə əyani sübutdur. A.Dümanın ilan daşı haqqında təsəvvürü yox idi – bu bütün Avropaya aid edilir.

XIII əsrdə Nəsirəddin Tusi ilan daşı haqqında yazır: «İlan daşı padzəhrin torpaq rəngli bir növdür. İlan sancmış yerə qoyduqda bədəndən zəhəri çıxarır, xəstə şəfa tapır». Aleksandr Düma yazır: «oxucuların inana bilməyəcəyi bir məsələdən söhbət açmaq istəyirəm. Bəzi ailələrdə, Bakı, Quba, Naxçıvan, Qarabağ xanlarının nəslindən olan ailələrdə misli görünməmiş məşhur daş vardır. Bu, ataların var-dövlətindən

uşaqlarına verdikləri daş-qaşın ən qiymətlisidir. Adamı zəhərli həşərat – əqrəb, qırxayaq, gürzə çalanda həmin daşı yaranın üstünə sürtmək kifayətdir. O zəhəri maqnit dəmiri çəkən kimi çəkir. Daş yaranın üstündə olan vaxt rəngini dəyişir – bozumtul rəng alır. Sonra onu südün içinə atırlar. Daşda olan zəhər südə qarışır – daş əvvəlki rəngini alır. Mən polkovnik Davıdova yalvardım ki, əgər Parisə gələcək olsa, özü ilə bu daşı gətirsin, fransızlar onun tərkibini öyrənsinlər... Mən bunun təbii daş olmasına inanmıram. Bu daş insan əli ilə qədim təbiblərin tərəfindən zəhərə qarşı düzəldilmiş möcüzədir... Bu inkaredilməz isbata ehtiyacı olmayan meyardır». Nəsirəddin Tusinin adı əsrlərdən bəri «Təbrizin gül və meyvə bağı» adını almış Ordubadla sıx bağlıdır.Bu haqda Nəsirəddin Tusinin nəsil səcərəsi Təbriz alimi Məhəmmədəli Tərbiyyənin kitabında yazılmışdır. Nəsirəddin Tusi haqqında qələmə alınan bu kiçicik mövzu bəşəri elmi təfəkkür dünyasına sahiblənmiş ustadlar-ustadının həyat və fəaliyyətindən dənizdə bir damladır.

MÜNDƏRİCAT

Naxçıvan Muxtar Respublikasının 80 illik yubileyinin keçirilməsi haqqında
Azərbaycan Respublikası Prezidentinin sərəncamı.... 5
Azərbaycan Dövlət İqtisad Universiteti rektorunun əmri.......................................................... 7
T.Ə.Hüseynov. Ön söz əvəzi.............................. 9
T.Hüseynov, H. Cəfərov. Heydər Əliyev- 80 Azərbaycan xalqına və dövlətçiliyinə həsr olunmuş şərəfli ömrün anları.......................................... 14
H.F.Cəfərov. Naxçıvan qədim və əbədi Azərbaycan diyarıdır.................................................... 22
Ə.Q.Əlirzayev. Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişaf qanunauyğunluqları, meylləri və xüsusiyyətləri..................................................... 61
R.H.Məmmədov. Naxçıvan Muxtar Respublikasının təbii sərvətləri məhsuldar qüvvələrin inkişafının əsasıdır.......................................................... 74
H.B. Allahverdiyev. Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı: reallıq və perspektivlər............ 81
A. Seyidov. Naxçıvan arxeoloji abidələrinin öyrənilməsi XXI əsrdə............................................ 92
Hacı Paşa Murad Kəngərli, F.B.Həsənova. Naxçıvan MR-də kənd təsərrüfatının mikrozonalar üzrə inkişaf perspektivləri.................................................... 96
Hacı Paşa Murad Kəngərli. Qədim Naxçıvanın iqtisadi inkişaf tarixi............................................ 106
C.M.Mahmudov, Q.H.Həsənov. Naxçıvan qədim mədəniyyət ölkəsidir.......................................... 164

*Nəşriyyatın müdiri:* ***Nəriman Dünyamalıyev***
*Baş redaktor:* ***Kamil Hüseynov***

*Redaktor:* ***İsabə Hüseynova***
*Korrektorlar:* ***Südabə Manafova***
***Vaqif Kişiyev***

NAXÇIVAN QƏDİM AZƏRBAYCAN DİYARIDIR

NAXÇIVAN MUXTAR RESPUBLİKASININ YARADILMASININ 80 İLLİYİNƏ HƏSR OLUNUR

*Çapa imzalanıb 01. 10.2004. Kağız formatı 60x84 1/16. Həcmi 10,5 ç.v. Sayı 500. Sifariş 166.*

*"İqtisad Universiteti" nəşriyyatı.*
*AZ 1001, Bakı, İstiqlaliyyət küçəsi, 6*